# 15 ilin şərəf, zəfər və inkişaf salnaməsi:
# TARİXİN ƏN QÜDRƏTLİ AZƏRBAYCANI

Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 231 (7958) BAZAR, 14 oktyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymətı 40 qəpik




# Prezident İlham Əliyevin milli intibah strategiyası:
## möhkəm təməl, davamlı inkişaf, uğurlu gələcək

**Müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin varisi - müasir Azərbaycan Respublikası XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdi. Dünya miqyaslı dövlət xadimi, müstəqil Azərbaycanın memarı Heydər Əliyev ötən əsrin 90-cı illərində xalqın təkidli tələbilə yenidən hakimiyyətə qayıdandan sonra suverenliyimiz möhkəmləndi, ümumbəşəri dəyərlərə əsaslanan demokratik, hüquqi, dünyəvi və müasir dövlətin ideya əsasları və strateji inkişaf istiqamətləri müəyyənləşdirildi, davamlı iqtisadi inkişaf üçün möhkəm təməl yaradıldı. Müstəqil Azərbaycanın qurucusu kimi gördüyü misilsiz işlər Heydər Əliyevə çağdaş tariximizdə xalqımızın xilaskarı və müasir dövlətçiliyimizin banisi kimi əbədiyaşarlıq qazandırdı.**

Ulu öndərin uzaqgörən dünyəvi dövlət quruculuğu və milli inkişaf konsepsiyasının 2003-cü ildən yeni dövrün lideri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndi, suverenliyimiz əbədi və dönməz xarakter aldı.

Ümummilli liderin layiqli davamçısı olan İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən ötən 15 ildə ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atıb, dövlətçiliyimiz, siyasi və iqtisadi müstəqilliyimiz daha da güclənib, ölkənin davamlı və dayanıqlı inkişafı, sürətlə modernləşməsi təmin edilib, Azərbaycan inkişaf edən ölkələr sırasında layiqli yer tutub. Dahi siyasət korifeyinin böyük uzaqgörənliklə dediyi *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizinköməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"* kəlamı zamanın sınağından keçərək, reallığa çevrilib və müasir Azərbaycan tarixinin hər anında tarixi təsdiqini tapır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Düşünülmüş, qarşılıqlı etimada və milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirən Azərbaycan bu gün beynəlxalq aləmdə siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın məkanı kimi tanınır. Səsi dünyanın ən mötəbər tribunalarından gələn müstəqil Azərbaycanın üçrəngli bayrağı irimiqyaslı ictimai-siyasi və mədəni tədbirlərdə, nüfuzlu təşkilatlarda əzəmətlə dalğalanır. Azərbaycanın 2011-ci ildə 155 ölkənin etimadını qazanaraq BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi də məhz ölkəmizin beynəlxalq aləmdə getdikcə artan nüfuzunun və sürətli iqtisadi inkişafının göstəricisidir.

*Ardı 2-3-4-cü səh.*




**Müstəqil Azərbaycan dövləti artıq ölkəmizdə uğurla sınaqlardan çıxmış prezident üsuli-idarəsinin işığında həm daxili, həm də xarici siyasətdə möhtəşəm uğurlara imza atmışdır. Dövlət müstəqilliyinin açdığı böyük demokratik imkanlar əsasında Azərbaycan Respublikasının seçdiyi prezident idarəçiliyi sistemi xalqımızı və ölkəmizi böyük və hərtərəfli inkişaf mərhələsinə çatdırmış, çoxəsrlik tariximizdə yeni tarixi epoxanın formalaşması ilə nəticələnmişdir.**

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin möhkəm əsaslarını, etibarlı bünövrəsini yaratdığı prezident üsuli-idarəsi müstəqillik dövrünün ən məqsədyönlü dövlət idarəçiliyi forması kimi artıq ölkəmizin timsalında özünü təsdiq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə ölkəmizi yeni epoxanın işığında hərtərəfli şəkildə irəliyə doğru inkişaf etdirməyin nümunəsini göstərməkdə davam edir. Artıq hər kəsə yaxşı bəllidir ki, *Prezident İlham Əliyev dünyada XXİ əsrin meydana çıxardığı yeni siyasi liderlərin və dövlət başçılarının ən görkəmlisidir.*

Sözün həqiqi mənasında görkəmli dövlət xadimi kimi ölkəyə rəhbərlik etməyin şərəfini də, məsuliyyətini də özünün gündəlik əməli fəaliyyətində uğurla birləşdirən *İlham Əliyev həm də müstəqil Azərbaycan dövlətini istənilən mötəbər məqamda böyük ləyaqətlə təmsil etmək vəzifəsini yüksək səviyyədə gerçəkləşdirir.*

Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında köklü, davamlı dövlətçilik ənənələrinin qorunub saxlanılması şərtilə dövlət strukturu böyük sürətlə inkişaf etdirilərək dünya standartlarına uyğunlaşdırılır, dövlətin idarə olunmasının ən müasir forma və metodları uğurla tətbiq olunur. Ölkəmizdə demokratik cəmiyyətin, bazar münasibətlərinə əsaslanan iqtisadi siyasətin bərqərar olması proseslərinə ciddi fikir verilir. İqtisadiyyatda özəl sektorun üstünlük qazanması, neft gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin siyasətinin əsasında dayanır.

Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması, ən yeni texnologiyaların meydanının genişləndirilməsi də möhtərəm Prezidentin önə çəkdiyi zəruri sahələrdəndir. Ölkə başçısının səyləri ilə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri böyük körpülər, abad yollar və çoxsaylı göydələnlər şəhərinə çevrilmişdir. Bu gün *Azərbaycan Şərqlə Qərb arasında nəinki möhkəm və etibarlı körpü, həm də möhtəşəm bir zirvədir.*

Artıq üçüncü mərhələsi uğurla həyata keçirilən Azərbaycan regionlarının inkişafı üzrə Dövlət Proqramı ölkəmizin inkişafında mühüm hadisəyə çevrilmişdir. Hazırda *Azərbaycanın regionlarında aşkar görünən hərtərəfli intibahın, sürətli canlanmanın, müasir həyatın bərqərar olması ideyasının memarı və müəllifi respublikamızın Prezidenti İlham Əliyevdir. Bir sözlə, qısa müddətdə, sözün əsl mənasında, möhtəşəm addımlarla irəliləyən müstəqil Azərbaycan dövlətinin böyük tərəqqisində İlham Əliyevin prezidentlik fəaliyyətinin xüsusi payı vardır.*

*Ardı 5-ci səh.*

# İlham Əliyevdən "İslam maarifçiliyinin Azərbaycan modeli"nə dəyərli töhfə



Prezidentin təşəbbüsü ilə yaradılan İlahiyyat İnstitutu peşəkar, intellektual dini mütəxəssislər formalaşdırmaqla yanaşı, ölkəmizin qlobal miqyasda islam həmrəyliyini möhkəmləndirməyə yönələn fəaliyyətinə də əməli dəstək olacaq

**Son illərdə Qərbdə geniş yayılan irqçilik, islamofobiya kimi zərərli meyillər, Yaxın Şərqdə isə islam adına aparılan müharibələr, "Allahu əkbər" şüarı ilə həyata keçirilən terror dünyada islamın imicinə böyük zərbə vurur.**

Təəssüf ki, dünyada islam dedikdə Mövlana Cəlaləddin Ruminin, Nəsirəddin Tusinin, Bektaş Vəlinin, Yəhya Bakuvinin adlarından daha çox Bin Laden, əl-Bağdadi, Molla Ömər və başqa terror təşkilatlarının rəhbərləri xatırlanır. Eyni zamanda, islam dinini dünyada artıq terror, müharibə ilə assosiasiya etməyə çalışan məlum şəbəkə də fəallaşıb. Bəlkə də İŞİD və başqa "islamçı" qruplaşmaları yaradanların da məqsədi elə budur: dünyadan islamı təcrid etmək və dini savaşlar üçün alətə çevirmək...

Lakin islamı terrorizmlə eyniləşdirənlər yaxşı bilirlər ki, bunlar yanlış, yanlış olduğu qədər də absurddur. Halbuki islam dini həmişə sülh, tolerantlıq, humanizm ideyalarını təlqin etmiş və dünya sivilizasiyasına sanballı töhfələr vermişdir. Tarix boyunca islam müxtəlif dini etiqadlara malik olan insanların sülh şəraitində, bir-biri ilə qarşılıqlı hörmət və ehtiram ruhunda yaşamasını dəstəkləmişdir.

## Tolerantlıq və multikulturalizm məkanı

Əhalisinin böyük əksəriyyətinin islam dininə mənsub olmasına baxmayaraq, Azərbaycan da o ölkələrdəndir ki, burada digər dinlərə münasibət hörmətə əsaslanır, insanların tolerantlıq və multikulturalizm şəraitində yaşamasına hər cür şərait yaradılıb.

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik yaşam normasına çevrilib.

*Ardı 9-cu səh.*

# İlham Əliyevin 15 illik "hücumçu diplomatiyası"nın Ermənistan üçün nəticələri:
## *Sosial-iqtisadi böhran, siyasi xaos və hərbi məğlubiyyət*



### Azərbaycan Prezidentinin düşünülmüş, prinsipial, ardıcıl siyasəti Ermənistanın təcridini tam başa çatdırıb və onun dövlətçiliyini əsaslı şəkildə zəiflədib

**Cari ilin ötən dövrünə nəzər saldıqda işğalçı Ermənistanda müşahidə olunan əsas məqamlar ictimai-siyasi müstəvidə gərginliyin daha da artması, sosial-iqtisadi sahədə vəziyyətin əvvəlki dövrlərə nisbətən xeyli pisləşməsidir.**

Bütün bunlar bu ilin may ayında Ermənistanda separatçı rejimin hakimiyyətdən devrilməsi, kənar qüvvələrin əlində sadəcə vasitə olan Nikol Paşinyanın iqtidara gəlməsinə səbəb oldu. Lakin bu hakimiyyət dəyişiklyi də Ermənistanda gərgin ictimai-siyasi, ağır sosial-iqtisadi vəziyyətin sona çatmasına səbəb olmadı.

Bunun ümdə səbəbi Ermənistanın işğal siyasətini davam etdirməsi, Azərbaycan Prezidenti İlham Əliyevin bununla bağlı işğalçı dövləti təcrid vəziyyətinə salmasıdır. Əslində Ermənistanda hərbi xuntanın devrilməsinin başlıca səbəbi də məhz Azərbaycanın bu ölkəyə qarşı atdığı addımlardan qaynaqlanır.

## Xalq hərbi xuntanı devirdi

Xatırladaq ki, cari ilin aprelində Ermənistanda günlərlə davam edən xalq üsyanı, nəhayət, öz nəticəsini verdi. Əvvəllər hakimiyyət kürsüsündən bərk yapışan, buna görə hətta ölkənin konstitusiyasını dəyişən Serj Sarkisyan sonda yaşanan etirazlara davam gətirməyərək vəzifəsini tərk etdi.

*Ardı 11-ci səh.*

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# Prezident İlham Əliyevin milli intibah strategiyası:

**Bizim siyasətimiz xalqın maraqlarını təmin edən siyasətdir. Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 ildə çox böyük və şərəfli yol keçmişdir.**

**İlham ƏLİYEV**



*Əvvəli 1-ci səh.*

Bu gün ölkəmiz qlobal əhəmiyyətli beynəlxalq tədbirlərin, humanitar forumların, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun, mötəbər idman yarışlarının və mədəniyyət tədbirlərinin keçirildiyi məkana çevrilib.

Dövlət başçısının uzaqgörən siyasəti, prinsipiallığı, müdrik qərarları və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində siyasi dayaqlarını və iqtisadi müstəqilliyini daha da möhkəmləndirən Azərbaycan ordu quruculuğu sahəsində görülmüş irimiqyaslı tədbirlər, müasir hərbi-texniki bazanın yaradılması nəticəsində dünyanın 50 ən güclü ordusu sırasındadır. Azərbaycanın müdafiə sənayesi ordumuzu müasir silahlarla təchiz edir, ölkəmizdə mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur, bu məhsullar beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilir. Bu gün Azərbaycan Ordusu ən çətin hərbi tapşırıqları yerinə yetirməyə, işğal altındakı torpaqlarımızı hər an azad etməyə qadirdir. 2016-cı ilin aprelində uğurlu əks-hücum əməliyyatları nəticəsində ölkəmiz üçün hərbi-strateji baxımdan önəmli olan bir sıra yüksəkliklərin, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin, bu ilin mayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisinin işğaldan azad olunması Azərbaycan Ordusunun hərbi qüdrətinin əyani göstəricisidir. Bu ilin iyununda Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə və sentyabrın 15-də Bakının azad edilməsinin 100-cü ildönümünə həsr olunmuş paradlar ordumuzun mükəmməlliyini, qüdrətini bütün dünyaya nümayiş etdirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çevik, ölkəmizi davamlı tərəqqiyə aparan müstəqil siyasət nəticəsində iqtisadi sahədə də beynəlxalq ictimaiyyət və nüfuzlu reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilən uğurlar qazanılıb. Dövlət başçısının innovasiyayönümlü, yüksək rəqabətqabiliyyətli istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb. Təsadüfi deyildir ki, Azərbaycan dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb, dünyada maraqla qarşılanan iqtisadi inkişafın Azərbaycan modeli formalaşıb. Yaradılmış makroiqtisadi sabitlik, Azərbaycanın qlobal çağırışlara hazır olması, iqtisadiyyatın davamlı inkişafı və diversifikasiyası, güclü iqtisadi potensial, sistemli islahatlar, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı sayəsində ölkə iqtisadiyyatı 2008-ci ildə başlayan qlobal iqtisadi böhranı, sonrakı dövrlərdə dünya enerji bazarındakı qeyri-sabitlik və digər neqativ iqtisadi prosesləri kifayət qədər hazırlıqla qarşılayıb, bütün neqativ təsirləri minimuma endirməyə, qlobal maliyyə-iqtisadi böhran şəraitində belə, bir sıra ölkələrdən fərqli olaraq, sosial-iqtisadi inkişafa nail ola bilib.

Statistik göstəricilər Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlığını bir daha təsdiq edir. Belə ki, 2004-2017-ci illərdə ümumi daxili məhsul istehsalı real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 4,9 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 1,7 dəfə, yükdaşımalar 2,1 dəfə, informasiya və rabitə xidmətləri 11,2 dəfə, pərakəndə ticarət dövriyyəsi 3,8 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb. 2004-cü ildən 2018-ci ilin oktyabr ayının 1-dək ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötüb.

Cənab İlham Əliyev ilk dəfə Prezident seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağına söz vermişdi. O zaman bu, bəzilərinə xəyal kimi görünürdü. Dövlət başçısı bu məqsədə vaxtından əvvəl nail oldu. Belə ki, son 15 ildə Azərbaycanda 2 milyondan çox yeni iş yeri açılıb.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapıb. Təsadüfi deyildir ki, dünyanda nüfuzlu Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 137 ölkə arasında daha 2 pillə yüksələrək 35-ci yerdə qərarlaşıb. Ümumiyyətlə, ölkəmiz qlobal rəqabətlilik hesabatları üzrə 2005-ci ildən 2017-ci ilədək olan dövrdə 69-cu yerdən 34 pillə irəliləməklə bərabər, 2009-cu ildən indiyədək MDB-də liderliyini qoruyub saxlayır.

Makroiqtisadi sabitliyin qorunması, innovativ əsaslı iqtisadiyyatın inkişafının təmin edilməsi, qeyri-neft sektorunun stimullaşdırılması, yüksək əlavə dəyər yaradan və ixraca yönələn məhsul istehsalının genişləndirilməsi, ən başlıcası isə, qazanılan naliyyətlərin ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəldilməsi Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş, başlıca məqsədi uzunmüddətli perspektivdə ölkənin sosial-iqtisadi resursları nəzərə alınmaqla mütərəqqi dünya təcrübəsi əsasında davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi ilə yüksək sosial rifaha çatmaq olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, məqsədli dövlət proqramları, strategiyalar, konkret tədbirlər planları, kompleks və davamlı iqtisadi islahatlar ölkədə innovativ, bilik iqtisadiyyatının formalaşması, ixracın diversifikasiyası, idxaldan asılılığın maksimum dərəcədə azaldılması, biznes mühitinin əlverişliliyinin daha da artırılması, investisiyaların cəlb edilməsi və digər istiqamətlərdə mühüm işlərin həyata keçirilməsinə hüquqi və iqtisadi zəmin yaradır. Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə dövlət başçısının 6 dekabr 2016-cı il tarixli fərmanı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" təsdiq edilib. Sənəddə nəzərdə tutulmuş tədbirlərin icrası kənd təsərrüfatından başlayaraq sənayeyə qədər bütün sahələri, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması kimi əsas istiqamətləri əhatə etməklə Azərbaycan iqtisadiyyatının şaxələnməsinə, bütünlükdə inkişafına töhfəsini verir.

## Müasir infrastruktur təminatı

Ötən 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar barədə danışarkən bir sıra sahələr üzərində xüsusilə dayanmaq istərdik. Belə sahələrdən biri infrastruktur sahəsidir. Ötən müddət ərzində Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə regional və qlobal miqyaslı nəhəng infrastruktur və enerji layihələri reallaşdırılıb. Yaradılmış müasir və beynəlxalq standartlara cavab verən infrastruktur vasitəsilə hazırda Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz Boru Kəməri ilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir. Bu il rəsmi açılışı həyata keçirilmiş "Cənub qaz dəhlizi" və TANAP layihəsi, eləcə də tikintisi uğurla davam edən TAP layihəsi Azərbaycanın dünyada mühüm enerji təminatçısı kimi mövqeyini daha da möhkəmləndirəcəkdir. Azərbaycanın tranzit imkanlarının reallaşması üçün Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı, gəmiqayırma zavodu istifadəyə verilib, TRASECA, Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin inkişafı istiqamətində əhəmiyyətli işlər görülüb.

Son 15 ildə Azərbaycanda 6-sı beynəlxalq olmaqla, 7 hava limanı inşa olunub, 14 min kilometrdən çox müasir yollar çəkilib, 453 körpü, tunel tikilib və ya təmir olunub, Xəzər dənizində 270 gəmidən ibarət iri ticarət donanması yaradılıb, 1750-dən çox yaşayış məntəqəsi təbii qazla təmin edilib, qazlaşdırma səviyyəsi 94%-ə çatdırılıb. Əhalinin dünya standartlarına uyğun keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə 27 şəhər və rayon mərkəzində su və kanalizasiya şəbəkəsi yaradılıb, 230 su anbarı tikilib, 300-dən çox artezian və subartezian quyusu qazılıb, modul tipli 466 sutəmizləyici qurğu quraşdırılıb. Bu sahədə Oğuz-Qəbələ-Bakı su kəmərinin və Ceyranbatanda sutəmizləyici qurğunun tikintisi mühüm əhəmiyyət kəsb edir. Görülmüş işlər nəticəsində mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfədən çox artıb. Bu dövrdə dəmir yolu nəqliyyatı sistemi inkişaf etdirilib, infrastrukturu və vaqon parkı yenilənib, Azərbaycanın ərazisindən keçən nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliyi yüksəlib, tranzit daşımaların həcmi əhəmiyyətli dərəcədə artıb.

Əhalinin istilik təchizatı təminatının yaxşılaşdırılması məqsədilə məktəblərin, uşaq bağçalarının və yaşayış binalarının istilik sistemləri yenidən qurulub, sosial obyektlər üçün yeni qazanxanalar tikilib. Ötən 15 ildə 5 yeni metro stansiyası istifadəyə verilməklə, metro stansiyalarının sayı 25-ə çatdırılıb. Bu dövrdə ümumi gücü 2878 MVt olan 31 elektrik stansiyası istismara verilib, 40 min kilometrdən çox elektrik verilişi xətti, 1650-dən çox yarımstansiya inşa edilib və ya yenidən qurulub. 2018-ci ilin sonuna qədər istifadəyə veriləcək "Şimal-2" elektrik stansiyası sistemə əlavə 400 MVt enerji ötürəcək. Son 15 ildə inşa olunan və ya bərpa edilən yüzlərlə məktəb, uşaq bağçası, səhiyyə müəssisəsi və idman qurğuları Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sosial dövlət quruculuğu yolunda inamla irəlilədiyinin, qazandığı böyük uğurların göstəricisidir.

## Sənayeləşmə. Yeni mexanizmlərin tətbiqi səmərə verir

Prezident İlham Əliyevin "Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır" strateji xəttinə uyğun olaraq, ölkəmizdə həyata keçirilən sənayeləşmə siyasəti nəticəsində yüzlərlə müasir sənaye müəssisəsi, yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixracın həcmi yüksəlib. Ötən müddət ərzində Azərbaycan üçün ənənəvi olan sənaye sahələri genişlənməklə yanaşı, yeni sənaye sahələri də yaradılıb. Belə ki, 2013-cü ildə ilk süni peykini orbitə çıxararaq dünya kosmos ailəsinin üzvünə çevrilən Azərbaycan bu yaxınlarda sayca 3-cü peykini - "Azərspace-2"ni orbitə buraxıb. Alternativ və bərpa olunan enerji sahəsinə diqqətin artırılması və bu sahədə bir sıra müəssisələrin işə düşməsi ilə artıq Bakının işıqlandırılmasında günəş panellərindən və külək generatorlarından istifadə olunur. Müasir texnologiyalara əsaslanan gəmiqayırma zavodunun fəaliyyətə başlaması ilə yeni sənaye sahəsi yaradılıb. Ölkədə təkrar istehsalın təşkili məqsədilə Balaxanı Sənaye Parkı fəaliyyətə başlayıb. İstehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri müəssisə olan və Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verən Bərk Məişət Tullantılarının Yandırılması Zavodu ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılmasına və ətraf mühitə mənfi təsirlərin azaldılmasına xidmət etməklə yanaşı, həm də tullantıları enerjiyə çevirir.

Ölkədə qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan xalqının milli mədəniyyətinin tarixində özünəməxsus yer tutan xalçaçılıq, ipəkçilik və digər ənənəvi sənaye sahələrinin inkişafına böyük diqqət göstərilir. Hazırda xalçaçılığın və ipəkçiliyin inkişafına dair dövlət proqramları uğurla icra olunur. Dövlət başçısının tapşırığına uyğun olaraq, xalçaçılığın inkişafı məqsədilə 11 rayonda xalça emalatxanası istifadəyə verilib, daha 10 emalatxananın, 5 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin və Sumqayıt Kimya Sənaye Parkında yunəyirici boyaq fabrikinin tikintisi davam etdirilir. 2019-cu ildə daha 9 xalça emalatxanasının, 3 yun və boyaq maddələrinin qəbulu məntəqəsinin tikintisi həyata keçiriləcək ki, bununla da emalatxanaların sayı 30-a, məntəqələrin sayı 8-ə çatdırılacaq.

Azərbaycanda qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, eləcə də regionlarda kənd təsərrüfatı ilə yanaşı, sənaye sahəsində çalışmaq istəyənlərin maraqlarının təmin edilməsi məqsədilə sənaye parkları və məhəllələri yaradılır. Artıq Azərbaycanda kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları fəaliyyət göstərir. Bu sənaye parklarının 40-dan çox rezidenti var və onlar tərəfindən indiyədək 2,7 milyard ABŞ dollarından çox investisiya yatırılıb. Növbəti mərhələdə 1 milyard dollarıdək investisiya qoyuluşu və 7000-dək yeni iş yerinin açılması nəzərdə tutulub. Sənaye parklarında fəaliyyət göstərən müəssisələrdə tanker və gəmilər, elektron təhsil avadanlıqları, metal konstruksiyalar, maşınqayırma avadanlıqları, polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar, polipropilen, pestisidlər, müxtəlif növ sürtkü yağları, xortum və fitinq birləşmələri, kabellər, polimer məmulatlar, texniki qazlar, alüminium və plastik profillər, pambıq iplikləri və s. istehsal edilir. Hazırda sənaye parklarında tikintisi davam edən 6 sənaye müəssisəsinin 2018-ci ilin sonunadək, digərlərinin isə növbəti illərdə istismara verilməsi nəzərdə tutulur. Parkın rezidentləri tərəfindən istehsal olunan məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə xarici ölkələrə ixrac edilir. Bu yaxınlarda Sumqayıt Kimya Sənaye Parkının daha bir rezidenti - "SOCAR Polymer" MMC ixraca başlayıb. Müəssisə 2018-ci ilin sonunadək 15 min ton polipropilenin xarici ölkələrə ixracını planlaşdırır.

Sənaye parklarının rezidentləri üçün dövlət tərəfindən əlverişli infrastruktur yaradılıb və bir sıra güzəştlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındığı gündən etibarən 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən və gömrük rüsumundan azaddır. Sənaye parklarında rezidentlərin qeydiyyatı "bir pəncərə" sistemi ilə həyata keçirilir ki, bu da sahibkarların daha operativ və rahat fəaliyyətinin təşkilini təmin edir. Bundan başqa, sənaye parklarında sahibkarlara hər cür təşkilati dəstək, o cümlədən onların sorğularının cavablandırılması, müxtəlif sektorlar üzrə investisiya imkanlarının araşdırılması, investisiya layihələri haqqında məlumatların təqdim edilməsi kimi xidmətlər göstərilir.

Regionlarda kiçik və orta sahibkarlığın genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsi, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi, məşğulluqda sənayenin payının artırılması baxımından sənaye məhəllələrinin yaradılması xüsusi önəm kəsb edir. Bu məqsədlə dövlət başçısının müvafiq sərəncamları ilə Neftçala, Masallı, Sabirabad və Hacıqabulda sənaye məhəllələri yaradılıb. Artıq Neftçala və Masallı sənaye məhəllələri sahibkarların istifadəsinə verilib.

Azərbaycanda ilk sənaye məhəlləsi olan və 2017-ci ildən fəaliyyət göstərən Neftçala Sənaye Məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar istehsalı, modul tipli məktəb binalarının quraşdırılması, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Sənaye Məhəlləsinin iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılmasına 45,3 milyon manat investisiya yatırılıb. Sənaye Məhəlləsində ümumilikdə 500-ə yaxın iş yeri yaradılıb. Sahibkarlar tərəfindən Sənaye Məhəlləsinə böyük maraq göstərilir və tələbata uyğun olaraq məhəllənin ərazisi genişləndiriləcəkdir.

Bu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə Masallı Sənaye Məhəlləsi istifadəyə verilib. İlk mərhələdə mebel, dam örtükləri və aksesuarları, dəmir məmulatları, döşək, taxta emalı və məmulatları istehsalı, taxta evlərin hazırlanması ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən 5,23 mln. manat dəyərində 10 layihə təqdim edilib. Artıq reallaşdırılan bu layihələr çərçivəsində 200 yeni iş yeri yaradılıb.

Hazırda Hacıqabul Sənaye Məhəlləsində tikinti işləri tamamlanmaq üzrədir və bu ilin sonunadək başa çatdırılacaqdır. Sənaye Məhəlləsində ümumi dəyəri 44 milyon manat olan 7 layihənin icrası nəticəsində 870-dən çox yeni iş yeri yaradılması nəzərdə tutulur. Bu layihələr ağır maşınqayırma, xüsusi vaqonqayırma və kompozit materialları, plastik su qabları və tara, avtomobil, tikinti materiallarının istehsalı avadanlıqlarının istehsalı sahələrini əhatə edir.

Sabirabad Sənaye Məhəlləsində isə tikinti işlərinə başlanılıb. Məhəllənin 2019-cu ildə sahibkarların istifadəsinə verilməsi nəzərdə tutulur. Sənaye Məhəlləsində yun tədarükü, tikinti materiallarının, orqanik gübrələrin, müxtəlif avadanlıqların əyləc sistemlərinin istehsalı, kənd təsərrüfatı məhsullarının və işlənmiş təkərlərin emalı sahələrində layihələr həyata keçiriləcəkdir.

## Modernləşdirmə - aqrar sahənin inkişafının əsas istiqaməti

Prezident İlham Əliyevin "Kənd təsərrüfatının bütün sahələrinin inkişafı ölkəmiz üçün mühüm önəm daşıyır" strateji xəttinə uyğun olaraq ötən 15 ildə aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, kənd təsərrüfatının inkişafında mühüm rol oynayan infrastruktur layihələrinin - Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarlarının, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması, həyata keçirilən meliorativ tədbirlər, aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün "Aqrolizinq" ASC-nin yaradılması, 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi və s. bu sahənin inkişafında əhəmiyyətli tədbirlərdəndir. Son illər ərzində 4 min kilometrdən çox suvarma kanalları, 2660 kilometrdən çox kollektor-drenaj şəbəkəsi bərpa edilib və ya yenidən qurulub, 390 min hektar torpağın su təminatı və 261 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılıb, 145 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilib. Bu dövrdə ölkəyə 43 mindən çox müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilib.

Kənd təsərrüfatının innovativ meyarlara uyğun qurulması nəticəsində bu sahədə müasir emal müəssisələri, quşçuluq və heyvandarlıq kompleksləri, aqroparklar yaradılıb. Fermerlərin kənd təsərrüfatı məhsullarını uzun müddət saxlamaları üçün əksər rayonlarda iritutumlu soyuducu anbarlar, əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixanalar tikilib. Ölkəmizdə 45 aqroparkın və 28 iri fermer təsərrüfatının yaradılması nəzərdə tutulur və bu məqsədlə sahibkarlara güzəştli kreditlər və investisiya təşviqi sənədi verilir. Artıq Xaçmaz, Şəmkir, Cəlilabad, Goranboy və İsmayıllı rayonlarında aqroparklarda 1-ci mərhələ üzrə işlər başa çatıb. Hazırda fəaliyyət göstərən aqropark və iri fermer təsərrüfatlarında müasir suvarma sistemlərinin tətbiqi sayəsində əldə edilən orta məhsuldarlıq ölkə üzrə müvafiq göstəricilərdən 2 dəfəyədək çoxdur. 2018-ci ilin sonunadək fəaliyyət göstərən aqroparkların sayı 13-ə çatdırılacaq.

Dövlət başçısı tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində imzalanmış sərəncamlar, keçirilmiş müşavirələr, həmçinin istehsalçılara subsidiyaların verilməsi, sahəvi dövlət proqramları da bu sahədə ixracın artmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm təkan verib.

Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər nəticəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib, ərzaq məhsullarının istehsalı artıb, ixrac genişlənib, 2017-ci ildə və bu ilin yanvar-avqust aylarında 4,2 faiz artıma nail olunub. Ötən il kənd təsərrüfatı və emalı məhsullarının ixracı 28,6 faiz, bu ilin 8 ayında isə 15 faiz artıb.

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# möhkəm təməl, davamlı inkişaf, uğurlu gələcək

## Məqsədli dövlət proqramları: regionlarda yeni mənzərə

Bölgələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar şəhər və rayonların simasını köklü şəkildə dəyişib, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb. Dövlət başçısının dediyi kimi: *"Azərbaycanın hər bir yerində quruculuq-abadlıq işləri aparılır, regionların sosial-iqtisadi inkişafı proqramı icra edilir. Əlbəttə, bu proqram həm yeni iş yerlərinin açılmasına xidmət edir, eyni zamanda bölgələrin sosial problemlərinin aradan qaldırılmasına kömək göstərir"*.

İndiyədək regionların inkişafına dair 3 dövlət proqramı qəbul olunub və onlardan ikisi artıq uğurla icra edilib. Hazırda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası davam etdirilir. Dövlət proqramları çərçivəsində regionlarda infrastrukturun inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi istiqamətində mühüm tədbirlər həyata keçirilib, ümumilikdə bu illər ərzində regionların inkişafına 67 milyard manatdan çox vəsait yönəldilib.

Ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində son 15 ildə ölkəmizdə yaradılmış 2 milyondan çox iş yerinin 75 faizi regionların payına düşür.

Dövlət başçısının tapşırığına əsasən, regionların sosial-iqtisadi inkişafı ilə bağlı IV Dövlət Proqramının layihəsi hazırlanıb. Yeni dövlət proqramında regionların dayanıqlı və tarazlı inkişafının təmin olunması, o cümlədən yerlərdə rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsi və ətraf mühitin etibarlı mühafizəsi istiqamətində əhatəli tədbirlər nəzərdə tutulub. Əvvəlki dövlət proqramlarında genişmiqyaslı infrastruktur və investisiya layihələrinin həyata keçirildiyini nəzərə alaraq, qeyri-neft sektorunun inkişafının daha da sürətləndirilməsi məqsədilə yeni dövlət proqramında iqtisadiyyatın real sektorunun inkişafının dəstəklənməsi, həmçinin sahibkarlığın inkişafının stimullaşdırılmasının davam etdirilməsi, onların zəruri bilik və bacarıqlarının artırılması, məsləhət və digər xidmətlərlə təmin edilməsi məsələləri prioritet hədəflər kimi müəyyənləşdirilib.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə qəbul edilmiş Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası paytaxtın hər bir rayon və qəsəbəsinin inkişafının təmin edilməsi, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması sahəsində mühüm rol oynayıb, müxtəlif sahələri əhatə edən konkret tədbirlər uğurla icra olunub.

Ekoloji tədbirlərin davamı olaraq Abşeron yarımadasında yerləşən 9 gölün və ətraf ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə tədbirlər davam etdirilir. Abşeron göllərinin bərpası layihəsi çərçivəsində yarımadanın ən böyük gölü olan Böyükşor gölünün reabilitasiyası işləri aparılıb. Artıq Böyükşor gölünün birinci mərhələsi üzrə işlər başa çatdırıb. Bu mərhələdə gölün 300 hektar ərazisi tullantılardan təmizlənib, 15 hektardan çox sahədə abadlıq işləri görülüb, gölün şərq və cənub sahilində bulvar və park salınıb, Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün hər cür şərait yaradılıb. Digər Abşeron göllərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində də müvafiq tədbirlər görülür.

## İqtisadiyyatın aparıcı qüvvəsi - sahibkarlıq

Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyasında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı prioritet istiqamətlərdəndir. Dövlət başçısının "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" kursuna uyğun olaraq, son 15 ildə bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirilib, qanunvericilik bazası təkmilləşdirilib, inzibati prosedurlar sadələşdirilib, vergi yükü azaldılıb, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilib. Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığın İnkişafı Fondu, "Aqrolizinq" ASC vasitəsilə özəl sektora göstərilən dəstək, AzPROMO və s. mexanizmlər vasitəsilə həyata keçirilən məsləhət xidmətləri sahibkarlığın inkişafı baxımından əhəmiyyətlidir.

Sahibkarlara güzəştli kreditlərin verilməsi özəl bölmənin maliyyə resursları ilə təmin olunması istiqamətində əsas mexanizmlərdəndir. İndiyədək investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 36 minədək sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür. 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara minimum 170 milyon manat güzəştli kreditin verilməsi təmin ediləcək. Artıq sahibkarlıq subyektlərinə 117,3 milyon manat güzəştli kredit verilib.

Sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək, İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib, nəzarət mexanizmi təkmilləşdirilib. Yeni qaydaların tətbiqi sahibkarların güzəştli maliyyə resurslarına çıxışına, eləcə də qeyri-neft istehsalının və ixracının genişlənməsinə, istehsal xərclərinin azalmasına, məhsulun maya dəyərinin aşağı düşməsinə, yeni istehsal sahələrinin yaradılmasına, özəl bölmənin dövlət dəstək mexanizmlərindən daha geniş istifadəsinə imkan yaradacaq. Yeni qaydalar əsasında artıq sahibkarlara 5 milyon manatdan çox güzəştli kredit verilib.

Özəl bölmənin inkişafında əhəmiyyətli mexanizmlərdən olan "Aqrolizinq" ASC vasitəsilə 2004-cü ildən kənd təsərrüfatı texnikası lizinqə verilir, pestisidlər, texnoloji avadanlıqlar, tinglər, toxumlar, damazlıq cins heyvanlar güzəştli şərtlərlə istehsalçılara çatdırılır, aqrotexniki xidmətlər göstərilir.

Sahibkarlıq fəaliyyətinə başlayanların dəstəklənməsi üçün Xaçmazda və Yevlaxda yerləşən regional inkişaf mərkəzlərində biznes-inkubatorlar yaradılıb. Lazımi şərait və avadanlıqlarla, eləcə də tədris materialları ilə təmin olunmuş biznes-inkubatorlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə biznesin sirləri öyrədilir. Hazırda mövcud biznes-inkubatorların inkişaf etdirilməsi və yenilərinin yaradılması imkanları araşdırılır.



Bundan başqa, Almaniya-Azərbaycan Birgə Proqramı çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkar və menecerlər Almaniyanın tədris mərkəzlərində ödənişsiz ixtisasartırma kursu keçir, beynəlxalq təcrübəyə yiyələnir, işgüzar əlaqələr qururlar. İndiyədək 350-dən çox azərbaycanlı sahibkar və menecer bu proqramdan yararlanaraq Almaniyada ixtisasartırma kursu keçib. Dövlət başçısının yeni qlobal çağırışların nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilədək dayandırılıb, yoxlamaların dayandırıldığı 1 noyabr 2015-ci il tarixindən sonrakı 35 ay ərzində vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində cəmi 488 yoxlama keçirilib, yoxlamaların dayandırılmasından əvvəlki 35 ay ərzində isə keçirilmiş yoxlamaların sayı 171 mindən çox olub.

Sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə apelyasiya şuraları yaradılıb, ixracın və investisiyaların təşviqi mexanizmləri formalaşdırılıb, dövlət satınalmalarında yerli mallar üçün güzəştlər müəyyən olunub, gömrük prosedurları sadələşdirilib, tələb olunan sənədlərin sayı azaldılıb və konkretləşdirilib, idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlər (yaşıl dəhliz, elektron bəyanetmə və s.) tətbiq edilib.

Lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı təqribən 4 dəfə azaldılaraq 86-ya endirilib, lisenziyanın verilməsinə görə dövlət rüsumları təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılıb, lisenziyanın verilməsi üçün tələb olunan prosedurlar sadələşdirilib. 2 noyabr 2015-ci il tarixindən dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə başlanılıb və indiyədək "ASAN xidmət" mərkəzləri vasitəsilə 6300-dən çox lisenziya verilib. Bununla yanaşı, "Lisenziyalar və icazələr" portalı yaradılıb və 1 mart 2018-ci il tarixindən 24 fəaliyyət növü üzrə lisenziyaların verilməsinə başlanılıb, portal vasitəsilə indiyədək 380-dən çox elektron lisenziya verilib.

2016-cı ildən etibarən investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədləri verilir. İndiyədək 277 sahibkarlıq subyektinə 313 investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi mexanizminin tətbiqindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb.

Yeri gəlmişkən, investisiya təşviqi sənədi Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə 7 il müddətinə mənfəət və ya gəlir vergisinin 50 faizindən, torpaq və əmlak vergisindən, layihə çərçivəsində texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə gömrük rüsumlarından və ƏDV-dən tam azadolma aiddir. Eyni zamanda investisiya təşviqi sənədi əsasında texnikanın, texnoloji avadanlıq və qurğuların güzəştli şərtlərlə idxalı üçün 245 sahibkarlıq subyektinə 1937 təsdiqedici sənəd təqdim edilib. Təsdiqedici sənədlər əsasında sahibkarlıq subyektlərinin əldə etdiyi güzəştlərin ümumi dəyəri 97 milyon ABŞ dollarından çoxdur.

Kiçik və orta sahibkarlığın ölkə iqtisadiyyatında rolunun və rəqabət qabiliyyətinin artırılması, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması və institusional dəstək mexanizmlərinin formalaşdırılması məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Artıq agentliyin əsas mexanizmlərindən olan "Kiçik və Orta Biznesin Dostu" mərkəzi Masallı Sənaye Məhəlləsində fəaliyyətə başlayıb. Ölkənin digər şəhər və rayonlarında da 60 "KOB Dostu" şəbəkəsinin yaradılması işləri aparılır. "KOB Dostu"nun fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaranmasına, kiçik və orta sahibkarlığın inkişafı vasitəsilə regionun potensialının reallaşdırılmasına yönələcəkdir. Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların həyata keçirilməsi təşviq olunacaq. "KOB Dostu"nın fəaliyyətinin digər önəmli istiqaməti kiçik və orta sahibkarlara dayanıqlı inkişaf tələblərinə uyğun çoxsahəli dəstəyin göstərilməsidir. Belə ki, bu istiqamətdə fəaliyyət həm mövcud dövlət dəstək mexanizmlərindən istifadə imkanlarının genişləndirilməsinə və onlara maneəsiz və rahat çıxışının təmin edilməsinə, həm də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin göstərəcəyi çoxsaylı dəstək mexanizmlərinin tətbiqinə yönələcəkdir. "KOB Dostu" kiçik və orta sahibkarların hüquqlarının müdafiəsi istiqamətində də fəaliyyət göstərəcək. KOB-ların hüquqlarının pozulması hallarının aradan qaldırılması və qarşıya çıxan məsələlər dövlət-sahibkar əməkdaşlıq platformasında öz həllini tapacaqdır. "KOB Dostu" sahibkarlarla sıx əlaqələr quracaq və onların inkişaf ehtiyaclarını sorğular vasitəsilə öyrənəcək. Bu, həmin tələblərə operativ reaksiyanı təmin etməyə imkan verəcəkdir. "KOB Dostu" şəbəkəsi ilə yanaşı, Bakı şəhərində ilk "KOB evi"nin yaradılması istiqamətində də müvafiq tədbirlər görülür.

İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işinin əlaqələndirilməsi, müvafiq sahənin inkişafı ilə bağlı təkliflərin hazırlanması məqsədilə sahibkarların 16 sahəvi assosiasiyası, İxracatçılar Klubu yaradılıb.

Görülmüş işlər nəticəsində Azərbaycanda güclü özəl sektor formalaşıb, müasir texnologiyalara əsaslanan minlərlə müəssisə açılıb, 2017-ci ildə özəl bölmənin payı ÜDM-də 83,8 faiz, məşğulluqda 75,9 faiz təşkil edib, 2018-ci ilin 1 iyul tarixinə ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 939 mini keçib.

Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti beynəlxalq təşkilatların hesabatlarında da müsbət qiymətləndirilir. Görülən işlərin nəticəsi olaraq Dünya Bankının "Doing Business 2018" hesabatında Azərbaycan 190 ölkə arasında 8 pillə irəliləyərək 65-ci yerdən 57-ci yerə yüksəlib, Avropa və Mərkəzi Asiya regionunda 4 və daha çox islahat aparan 3 ölkədən biridir.

## Tranzit potensialı reallaşdırılır

Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Dövlət başçısının Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib, ölkəmizin nəhəng transmilli infrastruktur layihələri Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişib.

Son 15 ildə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və əlverişli geostrateji mövqeyə malik olan Azərbaycanda nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində son illərdə görülən işlər xüsusilə vurğulanmalıdır. "Şərq-Qərb nəqliyyat dəhlizi" Çinlə Avropa arasındakı ən qısa marşrut olduğundan tranzit və yükdaşıma baxımından səmərəlidir. Orta hesabla 5400 km uzunluğunda olan "Şərq-Qərb nəqliyyat dəhlizi"nin tranzit müddəti 15 gündür. Prezident İlham Əliyevin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra dəhlizin quru xətlə birbaşa Avropaya çıxışına imkan yaranıb. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olan Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi ilə "Şərq-Qərb Beynəlxalq nəqliyyat dəhlizi" üzrə konteyner daşımalarında xeyli artıma nail olunub.

Azərbaycan həmçinin alternativ dəhlizlərdən üstünlüyü ilə seçilən "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafı ilə bağlı mühüm işlər görüb. Bu nəqliyyat dəhlizinin önəmli halqalarından olan Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi, eləcə də Azərbaycan və İran sərhədində dəmir yolu məntəqələrinin birləşməsi üzrə nəzərdə tutulan inşaat işləri ölkəmiz tərəfindən sürətlə icra edilib. İran ərazisində isə 1,4 km-lik dəmir yolu xəttinin tikintisi başa çatıb. Hazırda Astarada (İran) yükaşırma terminalının inşası davam etdirilir. Nəqliyyat dəhlizinin tərkib hissəsi olan Qəzvin-Rəşt dəmir yolu xətti üzrə isə işlərin 90 faizdən çoxu tamamlanıb. Bununla yanaşı, İran ərazisində Rəşt-Astara dəmir yolu layihəsinin reallaşdırılması istiqamətində tədbirlər görülür. Bu layihənin icrasından sonra Fars körfəzindən Rusiyaya, eləcə də Şərqi və Şimali Avropa ölkələrinə yüklərin daşınması daha səmərəli olacaq, Şimal-Cənub dəhlizinin Azərbaycandan keçməklə infrastrukturu tam təmin ediləcək. "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" böyük siyasi və iqtisadi əhəmiyyətə malik olmaqla, yük və sərnişin daşımalarının həcminin dəfələrlə artmasına imkan yaradır. Təsadüfi deyildir ki, 2018-ci ildə "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi" ilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşınıb.

Azərbaycanın tranzit daşımaları sahəsində potensialını reallaşdırmaq baxımından Çinin "Kəmər və Yol" təşəbbüsü ölkəmiz üçün əhəmiyyətlidir. Azərbaycan bu strategiyanı dəstəkləyən ilk ölkələrdəndir. Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə Çinə rəsmi səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycanın məqsədi "Transxəzər tranzit dəhlizi"ni "Kəmər və Yol" layihəsinə inteqrasiya etmək və bütün iştirakçı ölkələrin qarşılıqlı iqtisadi mənafeyinə uyğun səmərə əldə etməkdir. Ümumiyyətlə, Azərbaycan İpək yolunun ölkəmizə aid olan hissəsinin yenidən qurulmasında həmişə fəallıq göstərib, Şərq-Qərb istiqamətində reallaşdırdığı Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində TANAP və TAP qaz kəmərləri vasitəsilə bu dəhlizin enerji komponentini təmin edib.

Xəzər dənizi hövzəsində ən böyük limanlardan biri olan Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin tikintisi üzrə işlər başa çatıb. Bu layihənin ikinci mərhələsinin həyata keçirilməsi nəticəsində limanın yükaşırma imkanlarının 25 milyon ton yükə, o cümlədən 400 min konteynerədək, növbəti mərhələdə isə 1 milyon konteynerədək artacağı gözlənilir. Limanın ərazisi də daxil olmaqla Ələtdə azad iqtisadi zonanın yaradılması da nəzərdə tutulur və hazırda bu istiqamətdə müvafiq tədbirlər görülür. Bu layihə ölkədə bilavasitə əlavə dəyər yaradan istehsal və xidmət sahələrinin diversifikasiyasına və potensialının artırılmasına əlavə imkanlar yaradacaq.

Reallaşdırılan tədbirlər nəticəsində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Avropa və Asiyanı birləşdirən beynəlxalq logistik şəbəkənin əsas halqalarından birinə çevrilməklə Azərbaycanın mühüm nəqliyyat qovşağı kimi əhəmiyyətini daha da artırıb.

Azərbaycanın tranzit daşımaları sahəsində potensialından daha geniş və səmərəli istifadə edilməsi məqsədilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılıb. Tranzit yükdaşımalar sahəsində vahid prinsip və şərtlərin müəyyən olunması, tariflərin optimallaşdırılması, daşıyıcılarla dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, şəffaflığın təmin olunması, tranzit prosedurlarının asanlaşdırılması yüklərin daşındığı ölkələr və aidiyyəti qurumlar arasında əməkdaşlığın genişləndirilməsi, ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin təşviqi ilə bağlı həyata keçirilmiş tədbirlər nəticəsində təkcə 2018-ci ilin yanvar-avqust aylarında ölkə ərazisindən 6,1 milyon ton tranzit yük daşınıb.

## Xarici əlaqələr genişlənir, ixrac imkanları artır

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici əlaqələri daha da genişlənib, müstəqil siyasət həyata keçirən ölkəmizin dünyada nüfuzu artıb. BMT, NATO və digər mötəbər beynəlxalq təşkilatların kürsülərində inamlı və cəsarətli çıxışlar edərək Azərbaycanın milli mənafelərini bütün səviyyələrdə qətiyyətlə qoruyan dövlət başçısı dünya ictimaiyyətinin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli və prinsipial mövqeyinə yönəldib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: *"...Ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək"*.

Ardı 4-cü səh.

2003 2018 Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# Prezident İlham Əliyevin milli intibah strategiyası: möhkəm təməl, davamlı inkişaf, uğurlu gələcək

*Əvvəli 3-cü səh.*

Ötən müddət ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da genişlənib, ölkəmiz Asiya İnfrastruktur İnvestisiya Bankı, ECOBank kimi yeni beynəlxalq maliyyə qurumlarına tam hüquqlu üzv qəbul edilib.

Azərbaycanın xarici əlaqələrinin inkişafında dövlət başçısının çoxsaylı səfərləri, aparılan danışıqlar, imzalanmış sənədlər, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən işlər mühüm töhfəsini verir. Təkcə bu ilin 9 ayı ərzində Azərbaycan Respublikasının Prezidenti 12 dəfə xarici ölkələrə səfər edib, 15 dövlət və hökumət başçısı Azərbaycanda səfərdə olub. Son 3 ayda Prezident İlham Əliyev qarşılıqlı səfərlər və beynəlxalq tədbirlər çərçivəsində Azərbaycanın strateji tərəfdaşları olan Rusiya Federasiyasının Prezidenti ilə 4 dəfə, Türkiyə Respublikasının Prezidenti ilə 5 dəfə görüşüb, bu görüşlər çərçivəsində müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsini nəzərdə tutan çoxsaylı sənədlər imzalanıb, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə, eləcə də iqtisadi əlaqələrin inkişafına dair müzakirələr aparılıb.

Ötən 15 ildə xarici iqtisadi əlaqələrin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericilik daha da təkmilləşdirilib, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış yeni Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında", "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar qəbul edilib.

Azərbaycanın iqtisadi qüdrətinin artması, həyata keçirilən diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyəti ölkənin xarici ticarətində müsbət meyillərə təkan verib. Ötən müddət ərzində Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayı artıb, xarici ticarətinin coğrafiyası genişlənib, onun əmtəə strukturu təkmilləşib. Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayının artması həm də ölkəmizin dünyada etibarlı tərəfdaş, öz öhdəliklərini vaxtında yerinə yetirən ölkə kimi tanındığını göstərir. Bu gün dünya bazarına "Made in Azerbaijan" brendi ilə çıxarılan Azərbaycan məhsullarına, xüsusilə də meyvə-tərəvəz, şərab, meyvə şirələri, spirtli içkilərə və s. böyük maraq və tələbat var.

Son 15 ildə görülmüş tədbirlər nəticəsində Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayı 1,5 dəfə artıb. Bu dövrdə ixrac 5,3 dəfə, o cümlədən qeyri-neft ixracı 4,1 dəfə, ixrac məhsullarının çeşidi 2,6 dəfə artıb.

Siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün cəlbedici ölkəyə çevirib. Bugünədək Azərbaycan Respublikası hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 48 saziş imzalanıb.

2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard ABŞ dollarına yaxın investisiya yatırılıb ki, bunun da təxminən yarısı xarici sərmayələrdir. Ümumi investisiya qoyuluşunun 60 faizdən çoxu qeyri-neft sektorunun inkişafına yönəldilib. Belə ki, 2018-ci ilin yanvar-sentyabr aylarında Azərbaycan iqtisadiyyatına qoyulmuş 9 milyard dollar investisiyanın 5,6 milyard dolları məhz qeyri-neft sektorunun payına düşür.

Azərbaycana investisiya yatıran xarici ölkələr siyahısının ilk beşliyində Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya kimi ölkələr qərarlaşıb. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələrin ilk beşliyində isə Türkiyə, Böyük Britaniya, ABŞ, Niderland və Rusiyanı qeyd etmək olar. İndiyədək Azərbaycanda xarici ölkələrin müxtəlif sahələri əhatə edən 9000-dən çox şirkəti qeydiyyatdan keçib. Xarici şirkətlər Azərbaycanda dövlət əsaslı vəsaiti hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində də fəal iştirak edirlər.

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirib. Ötən müddət ərzində Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb. Ümumilikdə son 15 ildə Azərbaycandan xarici ölkələrə müxtəlif sahələr üzrə 21 milyard ABŞ dollarından çox investisiya yönəldilib. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı yüksəlib, bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında özəl şirkətlərimiz aktiv fəaliyyət göstərir. Bununla yanaşı, Yaxın Şərq, ABŞ və Asiya ölkələri ilə də əməkdaşlığımız genişlənir və bu regionlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yeni bazarlara çıxışın təmin edilməsi ilə bağlı reallaşdırılan tədbirlər çərçivəsində Qazaxıstanın Aktau şəhərində kənd təsərrüfatı və digər qida məhsullarının saxlanmasını və satışını təmin edən logistik mərkəz istifadəyə verilib.

Qeyri-neft istehsalının artırılması, ixracın genişləndirilməsi və "Made in Azerbaijan" brendinin dünyada tanıdılması Azərbaycanın xarici iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Bu məqsədlə bir sıra yeni dəstək mexanizmləri də tətbiq olunur. İndiyədək dövlət dəstəyi hesabına xarici ölkələrə 17 ixrac missiyası təşkil edilib, sahibkarlar 14 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak edib, xarici KİV-də məhsullarımızın təbliğinə dair reklam rolikləri yayımlanıb, xarici bazarlara dair araşdırmalar aparılıb.

Xarici ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə Rusiya, Çin, Birləşmiş Ərəb Əmirliklərində və Mərkəzi Avropada Azərbaycanın ticarət nümayəndəlikləri fəaliyyət göstərir. Belarus, Ukrayna, Latviya və Çində Azərbaycan ticarət evləri açılıb. Bu yaxınlarda isə Azərbaycanın xarici ölkədə ilk şərab evi Çində fəaliyyətə başlayıb. Bundan başqa, Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri, Polşa və Qazaxıstanda ticarət evlərinin yaradılması işlərinə başlanılıb.

Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə 2018-ci ilin mayında Həştərxanda Azərbaycan İş Mərkəzi açılıb. İş Mərkəzində Azərbaycan məhsullarının nümayiş olunduğu daimi sərgi fəaliyyət göstərir. 2018-ci ilin sonunadək İş Mərkəzində şərab və çay evlərinin açılması nəzərdə tutulub. Bununla bərabər, Azərbaycanın Çin, Körfəz, MDB və bir sıra Avropa İttifaqı ölkələrində də ticarət və şərab evlərinin açılması planlaşdırılır.

## Turizm qeyri-neft sektorunun gəlirli sahəsinə çevrilir

Qeyri-neft sektorunun prioritet sahələrindən olan turizmin inkişafı, ölkənin turizm potensialından səmərəli istifadə olunması, yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən turizm sənayesinin formalaşdırılması, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi məqsədilə son 15 ildə köklü islahatlar və məqsədyönlü tədbirlər həyata keçirilib. Turizm sektorunda sahibkarlıq fəaliyyəti üçün lisenziya tələbinin ləğv edilməsi, turizm potensialı olan ərazilərdə turizm və rekreasiya zonalarının yaradılması, güzəştli kreditlərdən, investisiya təşviqi sənədindən yararlanma imkanları bu sahənin investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə artırır.



Yaradılmış əlverişli biznes və investisiya mühiti nəticəsində hazırda ölkəmizdə müasir tələblərə uyğun qurulmuş Tufandağ və Şahdağ Qış-Yay turizm kompleksləri, Şamaxı Safari Ekoparkı, 563 mehmanxana, o cümlədən məşhur dünya brendlərinin beşulduzlu hotelləri və onlarca digər turizm obyektləri fəaliyyət göstərir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarından istifadə etməklə "ASAN Viza" sisteminin tətbiqi nəticəsində Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə 30 günlük birdəfəlik elektron vizanın 3 iş günü müddətində, eləcə də elektron vizanın sürətləndirilmiş qaydada alınması ilə bağlı müraciət edildikdə 3 saat ərzində təcili vizanın verilməsi həyata keçirilir.

2016-cı ildən etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycan ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan istehlak mallarına "Tax-free" sisteminin tətbiqi, eləcə də 2017-ci ildən başlayaraq mütəmadi olaraq keçirilən ticarət festivalları ("Shoppinq festival") ölkəyə səfər edən xarici turistlər tərəfindən məmnunluqla qarşılanır.

Son illərdə Azərbaycanda mütəmadi olaraq müxtəlif beynəlxalq idman və mədəniyyət tədbirlərinin keçirilməsi, eləcə də davamlı olaraq yeni əlverişli beynəlxalq reyslərin açılması turizmin inkişafını daha da sürətləndirir.

Görülmüş tədbirlər nəticəsində Azərbaycana gələn turistlərin sayı əhəmiyyətli dərəcədə artıb. Dünya İqtisadi Forumunun "Səyahət və Turizm Rəqabətqabiliyyətliliyi 2017" hesabatında Azərbaycan əvvəlki illərə nisbətən öz mövqeyini yaxşılaşdıraraq 136 ölkə arasında Səyahət və Turizm Rəqabətqabiliyyətliliyi İndeksinə görə 71-ci, MDB ölkələri arasında isə 2-ci yeri tutub.

## Sosial-iqtisadi siyasətin prioriteti - insan amili

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində vətəndaşların rifahının yaxşılaşdırılması dayanır və həyata keçirilən bütün tədbirlər məhz bu məqsədə xidmət edir. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq Azərbaycan Respublikası Prezidentinin həyat fəlsəfəsidir. Dövlət başçısının qeyd etdiyi kimi: *"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır"*.

Ötən 15 ildə sosial sahədə həyata keçirilən islahatlar və məqsədyönlü tədbirlər əhalinin etibarlı sosial müdafiə sisteminin formalaşmasını təmin edib. Əhalinin sağlamlığının qorunması, təhsilin səviyyəsinin yüksəldilməsi, səmərəli məşğulluğunun təmin edilməsi və s. istiqamətlərdə sistemli tədbirlər bu gün də davam etdirilir, bu sahəyə yönəldilən vəsaitlərin həcmi ildən-ilə artırılır. Həyata keçirilən sosialyönümlü siyasətin nəticəsi olaraq, orta aylıq əməkhaqqı 2003-cü ildəki 77,4 manatdan 2017-ci ildə 528,2 manatadək yüksəlib, əhalinin nominal gəlirləri 8,6 dəfə artıb, yoxsulluq səviyyəsi 5,4 faizədək, işsizlik səviyyəsi 5 faizədək azalıb.

Son 15 ildə 3000-dən çox məktəbdə, 500-dən çox məktəbəqədər təhsil müəssisəsində və 650-yə yaxın səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib.

İnsan kapitalının inkişafı məqsədilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar.

Dövlət başçısı tərəfindən idmanın inkişafına göstərilən böyük diqqət və qayğı nəticəsində təkcə regionlarda 40-dan çox olimpiya idman kompleksi inşa olunub, ölkəmiz I Avropa Oyunları, İslam Həmrəylik Oyunları, "Formula1" kimi mötəbər idman yarışlarına uğurla evsahibliyi edib. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır, idman uğurlarımız yüksək qiymətləndirilir, idmançılarımız beynəlxalq idman yarışlarında böyük nailiyyətlər qazanırlar.

Əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə, o cümlədən əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, qaçqın və məcburi köçkünlərə dövlət qayğısının nəticəsi olaraq onların mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilib, 6000-dən çox əlil və şəhid ailəsi mənzillə təmin olunub. Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına bütün sosial-texniki infrastruktura malik 97 müasir qəsəbə salınıb, 52,3 min qaçqın və məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Prezident İlham Əliyevin yeni həyat bəxş etdiyi və "Böyük Qayıdış"ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra qayıdan sakinlər üçün fərdi yaşayış evləri, məktəb, məscid binası istifadəyə verilib, infrastruktur işləri və kommunal tədbirlər həyata keçirilib. Bununla da Cocuq Mərcanlı Azərbaycan torpaqlarının təcavüzkar Ermənistan tərəfindən işğal olunması nəticəsində öz yurd-yuvasından didərgin düşmüş məcburi köçkünlərin öz torpaqlarına qayıtdığı ilk yaşayış məskəni kimi tarixə düşüb. Cocuq Mərcanlının inkişafı, burada yaşayan əhalinin məşğulluğunun təmin olunması üçün bir sıra layihələr həyata keçirilir. Azərbaycan hökumətinin Türkiyə ilə birgə həyata keçirdiyi belə layihələrdən biri çərçivəsində Cocuq Mərcanlıda istixanalar və arıçılıq təsərrüfatları yaradılıb. Artıq bu təsərrüfatlarda istehsal edilən kənd təsərrüfatı məhsulları "Cocuq Mərcanlı", bal isə "Qarabağlı" brendləri ilə satışdadır.

*"Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz"* deyən Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlarla dövlət qurumları arasında bürokratik maneələrin aradan qaldırılması məqsədilə innovativ addım atdı - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı.

Bu gün Azərbaycan brendi kimi dünyada tanınan "ASAN xidmət" bir sıra ölkələr tərəfindən maraqla öyrənilir və tətbiq edilir.

Ölkəmizin ictimai-siyasi həyatında, çoxsaylı sosial-iqtisadi layihələrin reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan layihələr Azərbaycanda sosial sahənin inkişafına mühüm töhfələr verir, minlərlə insanın sosial şəraitinin yaxşılaşması üçün yeni imkanlar yaradır. Xarici ölkələrdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr Azərbaycanın dünyada nüfuzunun artmasında xüsusi əhəmiyyət kəsb edir.

Dövlət başçısının rəhbərliyi ilə ötən müddət ərzində uğurlu sosial siyasət həyata keçirən Azərbaycan 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilib, 2015-ci ildə Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi nailiyyətlərə görə "Cənub-Cənub" mükafatına layiq görülüb. Təsadüfi deyildir ki, FAO-nun baş direktoru Jose Qratsiano Da Silva Azərbaycanın Minilliyin İnkişaf Məqsədləri çərçivəsində yoxsulluğun yarıyadək azaldılmasını qarşıya məqsəd kimi qoyan 128 ölkə arasında bu öhdəliyi yerinə yetirən 18 ölkədən biri olmaqla yanaşı, dünyada yoxsulluğun 5 faizədək aşağı endirilməsinə nail olan 29 ölkə sırasında yer almasının böyük uğur olduğunu vurğulayıb.

Minilliyin İnkişaf Məqsədlərinin uğurlu icrasına nail olan ölkə kimi Azərbaycan dünyanın 193 ölkəsi ilə birgə BMT-nin yeni qlobal Dayanıqlı İnkişaf Məqsədləri təşəbbüsünə qoşulub. Məhz bu məqsədlə Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılması üçün Prezident İlham Əliyevin 2016-cı il tarixli fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb. Ötən müddət ərzində Azərbaycan BMT-nin 2016-2030-cu illər üzrə Dayanıqlı İnkişaf Məqsədləri üzrə bir çox hədəfləri, xüsusilə insanların sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması, yoxsulluğun aradan qaldırılması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, gender bərabərliyinin təşviq və təmin olunması üzrə mühüm nailiyyətlər əldə edib və hazırda bu istiqamətdə tədbirlər davam etdirilir. Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə verdiyi böyük önəmin nəticəsidir ki, bu ilin oktyabrında Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına məsul olan beynəlxalq təşkilatların və ölkələrin yüksək səviyyəli nümayəndələrini bir araya gətirəcək Dayanıqlı İnkişafa dair Bakı Forumu keçiriləcəkdir.

Dövlət başçısının tapşırığı ilə böyük sosial əhəmiyyət kəsb edən dərman vasitələri bazarında tənzimlənmə aparılıb, dövlət qeydiyyatına alınmış 11 mindən artıq dərman vasitəsinin qiymətləri təsdiq edilib, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı Mingəçevir, Yevlax və Ağdaşda pilot layihələr icra olunub.

Azərbaycanda əhalinin mənzilə olan tələbatının ödənilməsi və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə mənzil-kommunal sahəsində köklü islahatlar aparılıb. 2009-cu il 1 oktyabrdan qüvvəyə minmiş Mənzil Məcəlləsi müvafiq sahədə əsas hüquqi baza rolunu oynamaqla sahənin inkişafında mühüm əhəmiyyət kəsb edir. Ötən müddət ərzində ölkə əhalisinin mənzilə artan tələbatının qarşılanması məqsədilə ipoteka kreditləşməsi sistemi yaradılıb, sistem daha da təkmilləşdirilərək ipoteka kreditlərinə çıxış imkanları asanlaşdırılıb, şəffaflığın artırılması və xidmətdən daha çox vətəndaşın istifadə etməsi məqsədilə "Elektron ipoteka" sistemi Elektron Hökumət Portalına inteqrasiya olunub. Şəhərsalma və tikinti sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsi və vətəndaşların yaşayış sahələrinə olan ehtiyacının güzəştli şərtlərlə ödənilməsi məqsədilə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi yaradılıb və bu ilin sentyabrında agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksində mənzillər vətəndaşların istifadəsinə verilib.

Mənzil fondunun yeni idarəetmə üsulları əsasında idarə olunması məqsədilə artıq 100-dən çox mənzil mülkiyyətçiləri müştərək cəmiyyətləri yaradılıb. Kommunal sahədə xidmətlərin göstərilməsində idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması sahəsində də bir sıra məqsədyönlü və innovativ addımlar atılıb, "ASAN kommunal" mərkəzləri yaradılıb və bu sahədə vətəndaş məmnunluğu təmin olunub.

Bu gün dünyada sabitlik adası, inkişaf məkanı kimi tanınan, beynəlxalq aləmdə nüfuz sahibi olan Azərbaycanın səsi dünyanın ən mötəbər tribunalarından gəlir, üçrəngli bayrağımız qürurla dalğalanaraq vətənimizin qüdrətini bütün dünyaya nümayiş etdirir. Beynəlxalq əhəmiyyətli layihələrin fəal iştirakçısı, regionun siyasi, iqtisadi və mədəni mərkəzi olan Azərbaycan dünyada və regionda gedən proseslərə təsir imkanına malik, müstəqil siyasət yürüdən demokratik ölkədir. Azərbaycan siyasi sabitliyin, əmin-amanlığın və yüksəlişin məkanı kimi tanınır.

Beləliklə, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində müstəqilliyimiz möhkəmlənir, dövlətimiz qüdrətlənir, ölkəmiz davamlı və dayanıqlı inkişaf edir, Azərbaycanın dünyada nüfuzu artır. Bir sözlə, dövlət başçısının ölkəmizin hərtərəfli inkişafına hesablanmış siyasəti Azərbaycanı daha işıqlı sabahlara, daha firavan gələcəyə aparır.

Dövlət başçısının müəyyənləşdirdiyi kimi, *"...Görülən bütün bu işlərin məqsədi budur - Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın, ölkəmizin iqtisadi müstəqilliyi daha da möhkəmlənsin və dünyada rolumuz, əhəmiyyətimiz artsın"*.

***Şahin MUSTAFAYEV,***
***Azərbaycan Respublikasının iqtisadiyyat naziri***

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



*Əvvəli 1-ci səh.*




Bu gün **İlham Əliyev artıq geniş mənada dünyada qəbul olunmuş görkəmli siyasi liderdir.** Dünya təcrübəsindən görünür ki, bir çox dövlət başçıları yalnız ölkəyə ümumi rəhbərlik vəzifəsini yerinə yetirməklə kifayətlənməli olurlar. Onların bir çoxunun ampluası praktik rəhbərlikdən başqa daha heç nəyi əhatə edə, yaxud əks etdirə bilmir. **Prezident İlham Əliyev isə bacarıqlı, mükəmməl, qurucu dövlət xadimi olmaqla bir sırada, həm də geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan mükəmməl siyasi xadimdir.** O, mövcud siyasi reallıqları inkişafda olan ictimai proseslərlə böyük məharətlə uzlaşdırmağı bacarır. Siyasi gerçəklikləri dərindən, ətraflı və sistemli şəkildə dəyərləndirəndə də, yaxın və uzaq gələcəkdən söz açanda da nikbin və realist görünür.

***Gerçəklik, müdriklik, dərin analitik düşüncə, nikbin, aydın və yetkin məntiqi təfəkkür onun siyasi portretinin təməl prinsipləridir.***

***Boş vədlərdən, süni populizmdən, keçici görüntüdən uzaq olmaq İlham Əliyevin xarakteridir.***

***O, özünün siyasi rakursunda da həyatidir, realdır, gerçəkçidir.***

Dünya ictimaiyyəti də, Azərbaycan xalqı da çoxdandır ki, Prezident İlham Əliyevi böyük siyasətçi, yaxud siyasi idarəetməni həyati proseslərlə bütün incəliklərinə qədər uzlaşdırmaq vəzifələrini məharətlə gerçəkləşdirən kamil siyasi xadim kimi qəbul edir.

Prezident İlham Əliyevə kamil bir siyasətçi kimi Cənubi Qafqaz və ya ümumiyyətlə, Qafqaz müstəvisində yanaşma mövcud siyasi reallığı qətiyyən ifadə etmir. Fikrimcə, **görkəmli yeni siyasi lider kimi İlham Əliyev səviyyə etibarilə postsovet məkanının sədlərini və miqyasını da çoxdan aşmışdır.** Hələ Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinə başçılıq edəndə yeni təfəkkür sahibi kimi parlaq çıxışlar edib, bəyanatlar verdiyi illərdə o, Avropa evi səviyyəsində düşünmək, mesajlar vermək potensialına malik bir siyasətçi kimi dərk olunmuşdu. **Prezident kimi İlham Əliyevin siyasi-ideoloji postulatı artıq böyük dövlətlərin rəhbərlərinin, yaxud çoxillik təcrübəyə malik siyasi xadimlərin səviyyəsi ilə bir sırada dayanır.**

***İlham Əliyev böyük siyasətdə milli təfəkkürlə bəşəri düşüncəni üzvi surətdə birləşdirən, real gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi liderdir.***

***İlham Əliyevin siyasi baxışları dərin nəzəri səviyyəsi, aydın məntiqi, fəlsəfi çəkisi və praqmatik xarakteri ilə səciyyələnir.***

Möhtərəm Prezidentin müxtəlif məqamlardakı nitqləri zamanı müdrikliklə ifadə etdiyi yetkin siyasi tezislər dərin mənalı aforizmlər kimi səslənir. Böyük siyasətdə aforizm səviyyəsində düşünmək və özünü ifadə etmək yalnız və yalnız ən təcrübəli, uzun yol keçmiş, çox səviyyəli, böyük məktəblər yaratmış siyasətçilərə nəsib ola bilir.

İlham Əliyev əsl siyasətçiyə məxsus olan belə uca məqamı fəth etmək vəzifəsinin öhdəsindən hələ cavan yaşlarında ikən bacarıqla gəlmişdir. **İlham Əliyevin siyasi aforizmlərinin böyük siyasətin ibrətamiz dərsləri səviyyəsində təqdim olunması onun yetkin, kamil siyasətçi obrazını dolğun şəkildə müəyyən edir.**

**Prezident İlham Əliyevin siyasi fəaliyyətinin ana xətlərini azərbaycançılıq məfkurəsi, millətlərarası münaqişələrin həlli, yeni neft strategiyası, enerji təhlükəsizliyi, bəşəriyyətin taleyində çoxaspektli dialoqun rolu, multikulturalizm və tolerantlıq fəlsəfəsi, iqtisadiyyatın şaxələndirilmiş inkişafı, dövlətçilikdə xalq faktorunun üstün mövqeyi və sair kimi aktual, xüsusi çəkiyə malik məsələlər təşkil edir.**

**Bu məsələlərin hər birinin şərhində və təqdimində İlham Əliyev ustad siyasətçi və böyük dövlət xadimi olaraq yüksək professionallıq nümayiş etdirir.**

Milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal siyasətdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini, ana xəttini təşkil edir. Məhz dövlət rəhbəri kimi **İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində hərtərəfli şəkildə inkişaf edən Azərbaycan Respublikası sözün əsl mənasında, dünya brendinə çevrilmişdir.**

***Prezident İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini, irəliyə doğru inkişafın üfüqlərini aydın görən, siyasi müstəvidə yeni istiqamətlər açan, yol göstərən görkəmli dövlət xadimidir.***

***Bacarıqlı dövlət başçısında uzaqgörən yüksək siyasətçi düşüncəsinin və mühüm idarəetmə məharətinin olması dövlətin normal inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır.***

***Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi və əsl vətənpərvərliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.***

Böyük və professional bir siyasətçinin dövlət başçısı kimi uğurlu fəaliyyəti təkcə ölkənin və xalqın deyil, böyük siyasətin də xeyrinədir. Çünki kamil, yetkin, lokal mənada da, qlobal səviyyədə də faydalı, gərəkli olan böyük siyasət özünüifadə, yaxud özünütəsdiq baxımından real platsdarm, münasib meydan tapa bilməyəndə bəzən mücərrəd, utopik, yaxud havadan asılı olan nəzəri-ideoloji təlim olaraq qalır. Ancaq böyük siyasətçi üçün siyasi fəaliyyət dövlətçilik işinin üzvi tərkib hissəsinə, əsasına, daşıyıcısına, hərəkətverici qüvvəsinə çevriləndə daim yeniləşir, təkmilləşir, aşkarlanır, zənginləşir və inkişaf edir.

Prezident İlham Əliyevin siyasəti də həm Azərbaycan məkanında, həm də beynəlxalq müstəvidə konkret məsələlərin, aktual problemlərin həllinə istiqamətləndirilmiş aşkar siyasi fəaliyyət kimi mütəmadi olaraq yeniləşir və zənginləşir. Ölkə rəhbərinin qəti siyasi mövqeyi onun ölkəni irəli aparmaq, cəmiyyəti inkişaf etdirmək yollarındakı siyasi iradəsinin real təzahürüdür. Bu mənada 15 il ərzində inkişafda olan müstəqil Azərbaycanda əldə olunan möhtəşəm nailiyyətlər və beynəlxalq miqyasda ölkə ilə əlaqədar aparılan düşünülmüş, məqsədyönlü və ardıcıl iş, əldə olunan zəngin təcrübə tükənməz ideya mənbəyi kimi İlham Əliyev siyasətinin aktuallığını və müasirliyini təmin edir. Beləliklə, **dövlət də, Prezidentin siyasəti də ölkəmizlə birlikdə xalqımızla həmahəng şəkildə daimi inkişafdadır.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin milli dövlətçilik təliminin, sınaqlardan çıxmış siyasi kursunun layiqli davamçısıdır.**

**Heydər Əliyev siyasi kursu - Azərbaycan dövlətinin ümummilli inkişaf strategiyasının nəzəri-ideoloji əsasını təşkil edir.**

**Heydər Əliyev təlimi - ölkəmizin və xalqımızın dirçəliş və tərəqqi yolunun kompasıdır.**

**Heydər Əliyev fəlsəfəsi - Azərbaycan idealının özünütəsdiqinin dialektikasından ibarətdir.**

**Heydər Əliyev yolu - Azərbaycan dövlətinin və xalqının əbədiyyət yoludur.**

**Böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunu dərin fəlsəfəsi ilə, görünən, bilinən və görünməyən cəhətləri ilə birlikdə mənimsəyib özündə cəmləşdirməkdə, yaradıcı şəkildə inkişaf etdirib uğurla həyata keçirməkdə Prezident İlham Əliyevlə müqayisə edilə biləcək ikinci bir siyasi şəxsiyyət göstərmək nəinki çətindir, bəlkə də mümkün deyildir.**

Ən müxtəlif məqamlarda Heydər Əliyevin çoxcəhətli fəaliyyətini yaxından izləmək, yaşantılarını dərindən duymaq, siyasi gedişlərinin, necə deyərlər, alt yapısının mahiyyətini incəliklərinə qədər öyrənmək baxımından bu böyük şöhrətə malik olan mötəbər ailənin üzvü kimi İlham Əliyevin imkanları hamıdan, hətta ulu öndərin ən yaxın məsləkdaşlarından da təbii surətdə çox olmuşdur. Həm keçmiş sovet rejimi mərhələsində, həm də müstəqillik dövründə İlham Əliyev həmişə görkəmli dövlət xadimi Heydər Əliyevin böyük siyasətinin yaxın əhatəsində olan bir şəxsiyyət kimi mühüm dövlətçilik məktəbi keçmişdir.

Böyük siyasi xadim Heydər Əliyevin zamanında Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda mükəmməl təhsil alması, Kreml mühitində cərəyan edən daxili proseslərdən xəbərdar olması, sonralar Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, respublika Olimpiya Komitəsinin Prezidenti, millət vəkili, Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, nəyahət, Baş nazir kimi məsul vəzifələrdə şərəfli və məsuliyyətli yol keçməsi, mükəmməl həyat təcrübəsi və zəngin siyasi təcrübə qazanması, Avropa dillərində sərbəst və sərrast danışmaq imkanlarına malik olması əvəzedilməz üstünlüklər və nailiyyətlərdir.

Müşahidələr göstərir ki, İlham Əliyev görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik və böyük siyasət akademiyasını, necə deyərlər, fərqlənmə diplomu ilə bitirərək onu daha da inkişaf etdirməyin mümkünlüyünü isbat etmişdir. Həyat təsdiqlədi ki, İlham Əliyev ümummilli lider Heydər Əliyevdən sonrakı dövrdə mükəmməl dövlətçilik təlimini bacarıqla və yaradıcılıqla inkişaf etdirməkdə də hamıdan fərqlənir. Əvvəla, **o, Heydər Əliyev siyasi kursuna dərin, birmənalı sədaqətində, ikincisi isə həmin sınaqlardan çıxmış siyasi kursu qətiyyətlə, dönmədən, yaradıcılıqla, ardıcıllıqla müasirlik işığında həyata keçirməkdə fərqli, üstün imkanlara və böyük potensiala, qeyri-adi enerjiyə və yaxşı mənada qibtə olunacaq əsl istedada malikdir.**

**Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında ilk növbədə, əsl, həqiqi, geniş dünyagörüşə, sağlam və aydın məntiqi təfəkkürə malik Heydər Əliyevçini görür və onun hər bir addımını yüksək dəyərləndirir.**

Qazanılmış ümumxalq rəğbəti, seçilmiş və isbat olunmuş siyasi kursun ardıcıllıqla, qətiyyətlə davam etdirilməsi özündən əvvəlki on illik ərzində qazanılan nailiyyətlərin daha da artırılması və yeni layihələrin meydana çıxması müəyyən olunmuş istiqamətlərin, başlanmış mühüm işlərin, hazırlanmış böyük layihələrin uğurla icra edilməsi deməkdir. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə dəyişən və inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən möhtəşəm layihələr - Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, hər gün gözəlləşən və müasirləşən Azərbaycan cəmiyyəti Heydər Əliyev siyasi kursunun uğurla, yaradıcılıqla davam etdirilməsinin real bəhrələri, sanballı töhfələridir. Zəfərlərlə dolu olan 15 ildə ardıcıl neft-qaz və nəqliyyat-logistika siyasətinin uğurla həyata keçirilməsi ölkəmizin inkişafında mühüm rol oynamışdır. "Əsrin müqaviləsi"nin uğurlu davamı və yeni inkişaf mərhələsi olan "Cənub qaz dəhlizi"nin və Türkiyədə TANAP layihəsinin rəsmi açılışlarının keçirilməsi, bu layihələri Avropa ölkələrinə qədər uzadan TAP layihəsinin uğurla irəliləməsi 15 il ərzində Azərbaycanı dünyanın ən zəngin və əlverişli enerji mərkəzlərindən biri səviyyəsinə çatdırmışdır. İlham Əliyevin neft-qaz imkanlarımızla əlaqədar aşağıdakı fikirləri bu mühüm sektorun müasir inkişafının ölkəmizin həyatındakı yerini və rolunu aydın surətdə təsəvvür etməyə imkan verir: *"Cənub qaz dəhlizi"nin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq. Ondan sonra bunu nəzərə alaraq biz o ölkələrdə yeni infrastruktur layihələri icra edə bilərik. Bu, səmərəliliyi, gəlirimizi daha da artıracaqdır".*

Dünyanın nadir Dəmir İpək Yolu kimi qəbul edilən Bakı-Tbilisi-Qars dəmir yolu 15 ilin nəhəng layihələrindən biri kimi tarixə düşmüşdür. Bu, Azərbaycanı Avropa və Asiya bazarları ilə bağlayan və ölkəmizin inkişafı üçün yeni üfüqlər açan nadir iqtisadi layihədir. Bakı ətrafında analoqu olmayan Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yaradılması Dəmir İpək Yolu ilə yanaşı, digər beynəlxalq nəqliyyat qovşaqlarının da müasir imkanlarına və perspektiv inkişafına inamla baxmağa əsas verir. Xəzər dənizində ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı ölkəmizin müəllifi olduğu "Şərq-Qərb Nəqliyyat Dəhlizi" və "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin uğurlu və səmərəli fəaliyyətini təmin edə biləcək əlverişli infrastruktur layihəsi kimi, Azərbaycanın tranzit imkanlarını daha da genişləndirəcəkdir. Artıq bugünkü səviyyədə nəqliyyat dəhlizlərində aparılan işlər hələ tam başa çatmamış Azərbaycandan keçən yükdaşımaların həcminin yüz dəfədən çox atrması aparılan böyük işlərin sabahına daha nikbin baxmağa əsas verir. Məhz bütün bunlar Prezident İlham Əliyevin timsalında çətin sınaqlardan çıxmış inanılmış siyasi kursun ardıcıllıqla və qətiyyətlə davam etdirilməsinin nələrə qadir olduğunun, ölkəmizi hansı səviyyəyə gətirib çatdıra biləcəyinin gerçək təzahürləridir. **Bu mənada o, Heydər Əliyev dövlətçilik təlimini yeni tarixi era olan İlham Əliyevçilik səviyyəsinə qaldırmışdır.**

Siyasi dünyagörüşü etibarilə "Azərbaycan naminə" əqidəsi əsasında formalaşmış İlham Əliyev siyasəti ölkəmizə beynəlxalq aləmdə də böyük şöhrət qazandırmışdır. Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Təhlükəzislik Şurasının üzvü seçilməsi və dünyanın ən böyük və mötəbər təşkilatının ciddi bir qurumuna müəyyən olunmuş müddətdə rəhbərlik etməsi Prezident İlham Əliyevin apardığı xarici siyasətin əhəmiyyətini, təsir imkanlarını, beynəlxalq aləmdə tutduğu yüksək mövqeyini əyani şəkildə nümayiş etdirir. Azərbaycan Respublikasının Avropa Şurası, Avropa Birliyi məkanında, o cümlədən UNESCO səviyyəsində nümayiş etdirdiyi mövqe ölkəmizin qısa müddətdə böyük Avropa evində normal yer tuta bildiyini göstərdi. Müstəqil Azərbaycan Respublikasının Avropa Şurası Nazirlər Kabinetinə böyük bacarıqla sədrlik etməsi, Qoşulmama Hərəkatı kimi mötəbər bir beynəlxalq quruma rəhbərlik etmək səlahiyyəti qazanması Prezident İlham Əliyevin müstəsna dərəcədə yüksək dövlətçilik istedadına malik olmasının real göstəriciləridir.

Müasir Azərbaycanda Çin, Cənubi Koreya, Yaponiya, Sinqapur, Malayziya kimi inkişaf etmiş Asiya ölkələri ilə də əməkdaşlığın sürətləndirilməsi ölkəmizdə Şərq tərəfdaşlığına dair böyük və etibarlı addımların atıldığını göstərir. Nəticə etibarilə Azərbaycan Şərq üçün də, Qərb üçün də cəlbedici və əhəmiyyətli ölkə olmaq statusu qazanmışdır. Azərbaycan Avrasiya məkanının ən əlverişli imkanlara malik inkişaf etmiş ölkəsidir.

Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi təlimini yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə yeniləşdirən və daha da zənginləşdirən siyasi xadimdir. Ümummilli liderimiz Heydər Əliyevdən sonrakı tarixi mərhələnin meydana çıxardığı siyasi-ictimai reallıqlar, iqtisadi-hərbi proseslər, ideoloji-etnik problemlər mövcud siyasi kursun işığında hadisələrin və gedişatların yenidən dəyərləndirilməsini tələb etdiyi məqamlarda Prezident İlham Əliyev istənilən məsələyə yaradıcı münasibət bəsləməyi, yeni müstəvidən yanaşmağı müvəffəqiyyətlə həyata keçirir. O, qətiyyən klassik siyasi irsin təkrarı olmayıb, mövcud siyasəti yaradıcılıqla inkişaf etdirib tam yeni zirvəyə qaldırmış novator dövlət xadimidir.

***İlham Əliyev - daim inkişafda olan yeni tipli Heydər Əliyev siyasi təliminin yaradıcısıdır.***

***İlham Əliyev - mövcud siyasi kursun yeni epoxa ilə şərtlənən yeni dövrünün lider səviyyəsində görkəmli təmsilçisidir.***

***İlham Əliyev - Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun yeni magistrallardakı qüdrətli sükançısıdır.***

Təsadüfi deyildir ki, dünya şöhrətli görkəmli yazıçı Çingiz Aytmatov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi "qloballaşan dünyanın lider etalonu" kimi yüksək qiymətləndirmişdir.

Məhz bütün bunlara görə o, görkəmli dövlət xadimi və böyük siyasi xadim səviyyəsinə yüksəlmişdir. Geniş şöhrət və nüfuz qazanan Prezident İlham Əliyev müstəqil Azərbaycan Respublikasını sürətli inkişaf etdirmək mənasında özünü ən böyük məqama çatdırmağı bacarmışdır.

Qeyd olunanları ümumiləşdirməklə nəticə olaraq Prezident İlham Əliyevin siyasi özünəməxsusluqlarını aşağıdakı kimi dəyərləndirmək mümkündür:

*Heydər Əliyev siyasi kursu, üstə gəl yeni dünyanın, beynəlxalq aləmin reallıqları və üstə gəl müstəqil Azərbaycanda yeni dövrün meydana çıxardığı gerçəkliklər və böyük dəyişikliklər, üstə gəl müasirlik və modernləşdirmə bərabərdir İlham Əliyev.*

Həqiqətən, İlham Əliyev yeni dünya düzənində müdrik siyasəti və böyük bacarığı ilə Azərbaycana başucalığı gətirən ən müasir tipli qüdrətli liderdir. Müasir Azərbaycanın yeni tarixi mərhələdəki yeni həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir. Respublikamızda paytaxtımız Bakı ilə yanaşı, Azərbaycan regionlarının böyük sürətlə və hərtərəfli şəkildə inkişaf etdirilməsi hərəkatının başında möhtərəm Prezident İlham Əliyev dayanır. Bu mənada **İlham Əliyev yeni Azərbaycan adlı möhtəşəm əsərin qüdrətli yaradıcısıdır.**

Prezident İlham Əliyevin məqsədyönlü ordu quruculuğu sayəsində Azərbaycan Ordusu dünyanın ilk əlli ordusu sırasında qərar tutur. Həm ən yüksək hərbi texnika, həm də böyük vətənpərvərlik Azərbaycan Ordusunun müasir simasını müəyyən edir. Azərbaycan Ordusunun 2016-cı ilin aprel ayında Tərtər-Murov istiqamətində, 2018-ci ilin may ayında isə Naxçıvan ərazisində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar xalqımızın Dağlıq Qarabağ müharibəsində qələbə çalacağına inamını daha da artırmışdır. Tərtər-Murovdağda 2 min 200 hektar, Naxçıvan ərazisində 11 min hektar ərazinin işğaldan azad olunması Azərbaycanın dövlət müstəqilliyinin bütün dövrü ərzində qazandığı ən böyük zəfərdir. İşğaldan azad olunaraq Cəbrayıl rayonunda salınmış Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının Dağlıq Qarabağa qayıdışının start nöqtəsidir. Şərur rayonundakı Günnüt kəndinin düşmən mühasirəsindən çıxarılması və Qızılqaya zirvəsinin fəth edilməsi isə torpaqlarımızın azad edilməsi hərəkatının davamlı bir proses olduğunu göstərir.

**Prezident İlham Əliyev - qətiyyətli və möhkəm siyasi əqidəyə malik olan qüdrətli Ali Baş Komandandır.**

**İlham Əliyev - analitik düşüncə sahibi kimi dərin məntiqə və aydın təfəkkürə malik olan, siyasi reallıqları nəzəriyyə ilə vəhdətdə ifadə edən mükəmməl siyasi xadimdir.**

**İlham Əliyev - XXI əsrin yeni tipli siyasi lideridir.**

**Müstəqil Azərbaycanın yeni həyatının, təzə çağının qüdrətli müəllifi Prezident İlham Əliyevdir.**

**Dünyanın yeni reallıqları, beynəlxalq aləmdə gedən müasir proseslər zəminində yeni Azərbaycanın maraqlarını və mənafeyini ifadə etməkdə İlham Əliyev zəngin təcrübəyə, dönməz siyasi iradəyə malikdir.**

**İlham Əliyev - yeni mərhələdə Azərbaycan ölkəsinin və cəmiyyətimizin müasirləşdirilməsinin baş memarıdır.**

**İlham Əliyev - yeni siyasi təfəkkürə və yaradıcı yanaşmalara malik olan novator dövlət xadimidir.**

**Müstəqillik andı, xalq amili, milli mənafe, ölkə maraqları İlham Əliyev üçün müqəddəs meyarlardır!**

**İlham Əliyev - yaxın və uzaq gələcəyi, bütün reallıqları incəliklərinə qədər görən və məharətlə proqnozlaşdırmağı bacaran böyük dövlət xadimidir.**

Ölkəmizin və xalqımızın bundan sonrakı mərhələdə də İlham Əliyev kimi geniş formatda, böyük masştabda düşünən, beynəlxalq aləmdə qəbul edilən, xalqına və dövlətinə ürəkdən bağlı olan, yüksək səviyyəli və enerjili dövlət xadiminə ciddi ehtiyacı var.

Bütövlükdə Qərb və Şərq müstəvisində, xüsusən də Qafqazda gedən mürəkkəb ictimai-siyasi proseslərdə İlham Əliyevin tutduğu tarazlaşdırılmış mövqe və həyata keçirdiyi müstəqil siyasət dövlətimizi dünya üçün də, regionlar üçün də əhəmiyyətli ölkəyə çevirmişdir. Prezidentin müdrik siyasəti Azərbaycanın dünyada və Qafqazdakı hadisələrin həlli baxımından söz sahibi olan dövlətə çevrilməsi ilə nəticələnmişdir. İndi Azərbaycanın yaxından iştirakı, razılığı təmin olunmadan, nəzərə alınmadan Qafqaz regionunda heç bir problemin həllindən danışmaq, yaxud yeni layihələrə başlamaq olmaz. Eyni sözləri Azərbaycanı əhatə edən digər Şərq tipli dövlətlərə, bir çox Avropa ölkələrinə də şamil etmək olar. Belə yüksək dövlətçilik imicini ölkəmizə Prezident İlham Əliyev qazandırmışdır.

Böyük uğurla keçən 15 illik dövr ölkəmizdə elmin, mədəniyyətin və ədəbiyyatın inkişaf etdirilməsi baxımından da çox uğurlu olmuşdur. "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə yeni elmi mühitin formalaşdırılması və inkişafına böyük üfüqlər açmışdır. Azərbaycan Milli Elmlər Akademiyası özünün sovet hakimiyyəti illərindəki şöhrətini bərpa etmiş və daha da irəli mövqeyə çıxmışdır. Prezident İlham Əliyevin sərəncamı ilə Milli Elmlər Akademiyasında yaradılmış Yüksək Texnologiyalar Parkı ən müasir elm və istehsalat kompleksi kimi fəaliyyət göstərir. AMEA-nın təcrübə-sənaye zavodunun ölkə və dünya bazarlarına rəqabətədavamlı məhsullar çıxara bilməsi elm sahəsində sahibkarlıq və innovasiya mühitinin formalaşdığını təsdiq edir.

Müstəqillik dövründə Azərbaycanın kosmos ölkəsinə çevrilməsində elmin böyük rolu var. 2018-ci ildə Azərbaycan Respublikasının üçüncü kosmik peykinin orbitə buraxılması misilsiz elmi-texniki nailiyyətdir. Azərbaycanda müstəqillik dövrünün elmi məktəblərinin yaranması dövrümüzün elmi mühitinin nailiyyətidir. Azərbaycan elminin beynəlxalq əlaqələrinin genişləndirilməsi də yeni eranın reallığıdır. Milli mədəniyyət və ədəbiyyat sahələrindəki yeni inkişaf dalğası müstəqil Azərbaycanın yüksək mədəni səviyyəsini nümayiş etdirir.

Bütün bunlara görə Azərbaycan xalqı istənilən seçki üçün özünün qəti seçimini etmişdir: İLHAM ƏLİYEV!

**Ölkəmiz və xalqımız XXI əsrin dövlətçilik tarixinə YENİLƏŞMİŞ MÖHTƏŞƏM AZƏRBAYCAN BOYDA BÖYÜK HESABAT əlavə etmişdir. Bu, İlham Əliyev erasının Azərbaycan xalqı qarşısındakı böyük və şərəfli hesabatıdır.**

Görkəmli dövlət xadimi İlham Əliyevin prezidentlik fəaliyyəti Azərbaycan xalqının xoşbəxt sabahına inamla baxmağın real təminatı deməkdir. Bu, Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, işıqlı, xoşbəxt gələcəyə, daha böyük inkişafa real təminat verən işıqlı bir yola sonsuz inam deməkdir. Bu, hər bir azərbaycanlının reallıqlardan doğan yekun qənaətidir. İlham Əliyev xalqına və ölkəsinə bağlı olan böyük inamını və sarsılmaz etibarını qazanmış ölkə rəhbəridir.

Azərbaycan xalqının mütləq əksəriyyətinin inamı və etibarını qazanaraq növbədənkənar seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev yeni eradakı çoxcəhətli fəaliyyəti ilə müəyyən olunmuş siyasi-ideoloji xəttin bundan sonra da yaradıcılıqla inkişaf etdiriləcəyinə, ölkəmizin böyük sürətlə inkişaf edəcəyinə inam ifadə edir. Prezident İlham Əliyevin aşağıdakı fikirləri onun Azərbaycanın inkişafı haqqındakı böyük proqramının mühüm ana xətlərini dolğun surətdə müəyyənləşdirir: *"Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən, sözün əsl mənasında, müstəqil dövlətdir. Biz öz müstəqilliyimizi möhkəmləndirməliyik. Bizim amalımız qüdrətli Azərbaycandır, müasirlikdir, inkişafdır, sosial rifahdır... Demokratiyanın inkişafı bizim üçün əsas vəzifədir. Bu gün Azərbaycan demokratiyanın inkişafına görə heç kimdən geri qalmır. İqtisadi sahədə şaxələndirmə bizim əsas istiqamətimizdir. Biz neft amilindən asılılığımızı azaldırıq. Bundan sonra sənayeləşdirmə prosesi daha da sürətlə gedəcəkdir. Ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Azərbaycanda qəbul edilən qərarlar gələcəkdə enerji təhlükəsizliyi ilə bağlı olan yeni məsələlərə yeni istiqamət verəcəkdir".*

Bəli, bütün bunlar Azərbaycan Respublikasının müasir inkişaf konsepsiyası ilə bağlı olan aydın və konkret proqramdır. SON ON BEŞ İLDƏ Azərbaycanda baş vermiş böyük dəyişikliklər müstəqil Azərbaycan Respublikasının cəmiyyət həyatının bütün sahələri üzrə sürətlə və hərtərəfli şəkildə inkişaf etməkdə davam etdiyini parlaq surətdə nümayiş etdirir. Beynəlxalq miqyasda iqtisadi inkişafın əsas göstəriciləri üzrə rentgen funksiyasını yerinə yetirən Davos Forumunun reytinq cədvəllərində Azərbaycan Respublikasının hər il yeni bir rekordla irəliyə doğru hərəkətinin qeydə alınması, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha uca zirvələrə doğru addım-addım qabağa getdiyini nümayiş etdirir.

Hazırda Azərbaycan Davos Forumunun reytinq cədvəlinə görə dünyada rəqabətədavamlı inkişafa malik bir dövlət kimi müəyyən olunmuşdur. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 15 ilin möhtəşəm yekunudur. Çünki rəqabətədavamlı ölkə adını almaq üçün həm ardıcıl və hərəkətli iqtisadi inkişaf, həm də ölkədə davamlı sabit investisiya mühiti yaratmaq lazımdır. Prezident İlham Əliyev nə qədər çətin də olsa, Azərbaycanda ictimai-siyasi sabitliyin möhkəmləndirilməsinə nail olmaqla bütün sahələr üzrə Azərbaycanı böyük magistral inkişaf yollarına çıxarmışdır.

Heç şübhəsiz, **Azərbaycanın bundan sonrakı bütün nailiyyətləri də Prezident İlham Əliyevin adı ilə bağlı olacaqdır. Prezident İlham Əliyev Azərbaycanın böyük sabahlarına, uğurlu gələcəyinə yeni yollar açan qüdrətli və uzaqgörən dövlət xadimidir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi uğurlu 15 il özünün inkişaf səviyyəsinə görə neçə-neçə onilliklərə, hətta əsrlərə bərabər olan sürətli və hərtərəfli inkişaf illəridir. Bu, Azərbaycan tarixinin İlham Əliyev erasıdır. Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin 15 ili ölkəmizdə dövlət müstəqilliyinin möhkəmləndirilməsi və hərtərəfli şəkildə inkişaf etdirilməsi, qüdrətli bir müstəqil dövlətin qurulması dövrüdür. İlham Əliyev inkişaf etmiş müstəqil Azərbaycan dövlətinin lideridir.

*Azərbaycan xalqı özünün sadiq və uzaqgörən rəhbərinin başçılığı ilə böyük gələcəyə doğru müzəffər yürüşünü uğurla davam etdirir.*

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

# 2003 2018 Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# Sözlə əməlin vəhdətini ortaya qoyan rəhbər





**Zamanın nisbiliyi və hər şeyin müqayisədə dərk olunması baxımından bəşəriyyətin inkişafında insan amilinin digər faktorları üstələdiyi şübhəsizdir. Bu mənada, düşünürəm ki, hər bir kəsin yaşadığı zaman kəsiyindəki fəaliyyəti insan və zaman məfhumları arasındakı bağlılığı şərtləndirərək ondan alınan nəticəni formalaşdırır. Ona görə də bu dünyaya öz xalqına xidmət üçün gələn şəxsiyyətlərin amalları və əməlləri zamanın dəyər ölçüsünə çevrilir.**

Hakimiyyət sükanının arxasında durduğu ilk gündən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağını vəd edən və bu 15 il ərzində sözlə əməlin vəhdət nümunəsini ortaya qoyan ölkə rəhbəri cənab İlham Əliyev bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi cəhətdən çiçəklənməsinə sərf etməkdədir. Bu gün o, ulu öndər Heydər Əliyevin şah əsəri olan, müstəqilliyini etibarlı şəkildə qoruyub saxlayan, azad və firavan bir dövlətin rəhbəri kimi ölkə vətəndaşlarının rifahı və xoşbəxt gələcəyi, ləyaqətli həyat tərzinin bərqərar olması naminə göstərilən xidmətlərin müəllifi kimi tarixi missiyanın daşıyıcısıdır.

Namizəd olduğu bütün prezident seçkilərində xalqın böyük inam və etimadını qazanaraq yalnız ona güvəndiyindən güclü siyasi iradə, əzm və cəsarət sahibi olan İlham Əliyev 2003-cü ildən bəri mövcud resursları səmərəli şəkildə səfərbər edərək əvvəlki dövrlərdəki inkişaf konsepsiyasının daha yüksək səviyyədə təkmilləşdirilməsinə nail olmuşdur. Onun yönləndirdiyi strateji istiqamətlər yeni keyfiyyətdə, dövrün tələblərinə uyğun olaraq daim yüksələn xətlə inkişaf etməyə başlamış və nəticə etibarı ilə ümummilli liderin ideyalarından doğan tərəqqi yolunda respublikamızın və xalqımızın özünə layiqli bir gələcək qurması üçün yeni fazaya uğurlu keçidi təmin edilmişdir.

Milli-mənəvi və bəşəri dəyərləri özündə birləşdirən qanunvericiliyimizin daha mükəmməl səviyyəyə çatdırılması, hüquqi dövlət və ordu quruculuğu istiqamətlərində görülmüş genişmiqyaslı işlər, neft strategiyasının uğurlu nəticələri, postneft dörünə hesablanmış ölkə rəhbərinin təşəbbüsü və bilavasitə nəzarəti altında həyata keçirilən, mütərəqqi yenilikləri özündə ehtiva edən dövlət proqramları, çevik və mobil idarəetməni təmin edən mütərəqqi struktur dəyişiklikləri, "ASAN xidmət", strateji yol xəritələri, kosmik layihələr və "Made in Azerbaijan" adı altında dünya ictimaiyyətinə təqdim olunan digər brendlər İlham Əliyevin islahatçı prezident obrazını formalaşdıran amillərdir. Məhz bu islahatlar ölkəmizə son dövrlər dünyada baş verən iqtisadi və siyasi böhran dalğalarını inamla və qətiyyətlə dəf etməyə imkan vermişdir. Bunun nəticəsidir ki, qısa müddətdə inkişaf sürətinə görə Cənubi Qafqazın lider dövləti statusunu qazanmış Azərbaycan dünya ölkələri sırasında XXI əsrin əvvəllərindən nail olduğu sanballı mövqeyini bu gün də qoruyub saxlamaqda davam edir.

Azərbaycanın bugünkü uğurlarını şərtləndirən əsas amillərdən biri də odur ki, öz fəaliyyətində Heydər Əliyevin tövsiyələrinə dönmədən riayət edən, hər zaman humanist dəyərlərə, demokratiya və fundamental insan hüquqları prinsiplərinə sədaqət nümayiş etdirən ölkə rəhbərliyi insanların hüquq və söz azadlığının etibarlı şəkildə təmin olunmasına xüsusi diqqət yetirir. Müasir inkişaf mərhələsində ortaya qoyulmuş və sərbəst fikir mühitinin ən yüksək tələblərinə uyğun olan belə konstruktiv mövqe ədalətli vətəndaş cəmiyyətinin təşəkkül tapmasına hərtərəfli təminat verir və son nəticədə hər bir vətəndaşın özünü cəmiyyətin azad və tamhüquqlu üzvü kimi tanıya bilməsi üçün əsaslı zəmin yaradır.

Əhalinin ləyaqətli həyat tərzinin təmin olunmasına, insanların yeni düşüncə tərzinin formalaşmasına, qürurlu, eyni zamanda, yüksək elmi və intellektual potensiala malik vətəndaş kimi yetişərək cəmiyyətin tamhüquqlu üzvü kimi yaradılmış imkanlardan sərbəst şəkildə istifadə etməsinə şərait yaradan bu addımlar ilk növbədə, insan amilinə söykənən yüksək standartlara malik vətəndaş cəmiyyətinin qurulmasını hədəfləyir. Qürurvericidir ki, bu göstəricilər Azərbaycanın BMT-nin inkişaf proqramının hesabatında insan potensialının inkişaf indeksinə görə yüksək dərəcəyə malik ölkələr sırasında yer alması ilə nəticələnmişdir.

Bir-birini üzvi şəkildə tamamlayan çevik daxili və xarici siyasətin nəticəsində bu gün Azərbaycan dünya ölkələrinə tolerantlıq nümunəsini, yeni nəsil dünya dövlətinin müasir modelini, sabitliyin və əmin-amanlığın formulunu təqdim edir, Şərqlə Qərb dəyərlərinin unikal vəhdətini ortaya qoyur. Ən müxtəlif aktual mövzular ətrafında saysız-hesabsız mötəbər beynəlxalq tədbirlərin keçirilməsi, möhtəşəm idman yarışlarının, Avropa və dünya çempionatlarının təşkil edilməsi, turizm sənayesinin mükəmməl səviyyəyə qaldırılması, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmiş paytaxt Bakının əsrarəngiz gözəlliyi, bölgələrin gündən-günə müasir tələblər səviyyəsində daha da abadlaşması müstəqil Azərbaycanın real imkanlarını ortaya qoymaqla yanaşı, onun müasir, sivil dünyəvi dövlət imicinin formalaşmasına da güclü təsir edir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar Azərbaycanın BMT, AŞ, ATƏT, NATO və bütün digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından daha qətiyyətlə çıxış etməsi və bir çox məsələlərdə beynəlxalq aləmin onun rəyinə hörmətlə yanaşmaları üçün münbit şərait yaratmışdır. Bu yaxınlarda müstəqillik tariximizin ən şanlı səhifələrindən biri olan Azərbaycan Xalq Cumhuriyyəti parlamentinin 100 illiyi münasibəti ilə təşkil olunmuş təntənəli mərasimlərdə dünyanın 44 ölkəsinin parlament rəhbərliyinin, 9 beynəlxalq təşkilatın təmsilçilərinin iştirak etməsi dövlətimizin beynəlxalq nüfuzunun daha bir bariz göstəricisidir. Hesab edirəm ki, bu həm də Milli Məclisin iclas zalında düzənlənmiş yubiley tədbirindəki geniş və məzmunlu təbrik nitqində Azərbaycanı "dünya xəritəsində bir uğur nümunəsi" kimi təqdim edən olkə Prezidentinə bəslənən səmimi münasibətin etirafıdır.

Bu nailiyyətlər eyni zamanda, Azərbaycan xalqının ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində yeni yanaşmaların ortaya çıxmasına da şərait yaratmışdır. Üstəlik, yeni mərhələdə Prezident İlham Əliyevin sərrast diplomatik gedişləri, hücum taktikasını önə çəkməsi, Ali Baş Komandanın qətiyyətli mövqeyini və möhkəm siyasi iradəsini, həmçinin ordumuzun gücünü nümayiş etdirən 2016-cı il aprel döyüşləri, bu ilin iyun ayında isə Naxçıvanın Günnüt kəndinin işğaldan azad edilməsi problemin həllində ciddi dönüş üçün siyasi və psixoloji zəmin yaratmış, xalqımızın zəfər gününə inamını möhkəmləndirmiş, dünya ictimaiyyətinin isə bu məsələdə, nəhayət, ədalətli mövqeyə gələcəyinə ümidləri artırmışdır.

Beləliklə, Azərbaycan rəhbərliyinin son 15 il ərzində xalqın rifahı naminə həyata keçirdiyi məqsədyönlü siyasət bu gün ölkəmizi keçid dövründən sonrakı növbəti və daha uğurlu bir mərhələyə daşımaqdadır. Bu siyasət ulu öndərin təbirincə desək, "dünyaya günəş kimi doğacaq" Azərbaycanın zəngin və qüdrətli obrazına yeni çalarlar gətirəcək və xalqımızın azad, xoşbəxt, firavan gələcəyini mənəvi və ruhi baxımdan təmin edəcəkdir. Əminəm ki, bu uğurların da altında Heydər Əliyev ideyalarının ideoloji sütunu olan Yeni Azərbaycan Partiyasının təkrarsız lideri, xalqın sevimli rəhbəri, ulu öndərin ən sadiq məsləkdaşı, onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi, xəyalları gerçəkliyə çevirən, hər zaman öz siyasi kredosunu xalqın xidmətçisi olmaqda görən, müasir Azərbaycan dövlətinin islahatçı Prezidenti İlham Əliyevin imzası duracaqdır.

*Bahar MURADOVA,*
*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü*

# ƏDALƏT MÜHAKİMƏSİNİN ETİBARLI KEŞİYİNDƏ

## Prezident İlham Əliyevin dəstəyi ilə ədliyyə və məhkəmə-hüquq sistemi zəngin tarixi ənənələr əsasında inkişaf edir

**Tarixən müxtəlif zaman və məkanlarda yaranan əlverişli şəraitlərdə hər bir xalq malik olduğu mənəvi-intellektual potensialı, milli mədəniyyəti və özünüdərk səviyyəsi ilə azadlıq idealına, milli dövlətçilik və müstəqillik ənənələrinin bərpasına can atır. Bu mənada, zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı üçün belə real tarix 100 il əvvəl - ötən əsrin əvvəllərində yarandı. Həmin dövrdə çar Rusiyasında cərəyan edən ictimai-siyasi proseslər, imperiya daxilində bir araya gətirilmiş xalqların azadlıq uğrunda mübarizəyə qalxması 1918-ci ilin mayında Azərbaycana öz istiqlaliyyətini elan etmək imkanı yaratdı.**

Müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin bəyan etdiyi kimi, əgər XX əsrin əvvəllərində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atmışdısa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə nail olmuşdur: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

Tarixi faktlara nəzərən Azərbaycan Xalq Cümhuriyyətinin kifayət qədər mürəkkəb mərhələdə belə demokratik ideallardan geri çəkilmədiyini, hər bir vətəndaşın hüquq və azadlıqlarının təmini istiqamətində qətiyyətli addımlar atdığını, ədalətə və qanunçuluğa tapındığını, maarifçilik ənənələrini inkişaf etdirdiyini əminliklə söyləmək olar. Cümhuriyyəti yaradıcısı olmuş böyük ziyalılar hüquqi və demokratik dövlət quruculuğu yolunda ədliyyə və məhkəmə-hüquq islahatlarının da zəruriliyini ilk gündən düzgün dəyərləndirərək bu istiqamətdə sistemli tədbirlər həyata keçirmişlər.

100 illik şanlı inkişaf yolu keçmiş Azərbaycan ədliyyə və məhkəmə orqanlarının şanlı tarixi 1918-ci il mayın 28-dən - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin il noyabrın 22-də nazirliyin əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən edilmişdir.

Cəzaçəkmə yerlərində aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında", AXC-nin yaranmasından il yarım keçməsi münasibətilə ümumi amnistiya haqqında və digər qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.

Ədliyyə Nazirliyi o vaxtlar şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür. İlk növbədə, ədliyyə, məhkəmə və istintaq strukturları formalaşdırılmış, respublikada qaydaqanunun bərqərar olması, yeni hüquq sisteminin təşkili ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Eyni zamanda, zəruri hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Fəaliyyəti unudulmaz hadisələrlə yadda qalan Ədliyyə Nazirliyinin həm də çətin və mürəkkəb dövrü olmuşdur. 1920-ci ildə cümhuriyyətin süqutundan sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək, əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmişdir. Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi, ədliyyə işinin təkmilləşdirilməsi məhz 1970-ci illərə - ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Həmin dövrdən etibarən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılmışdır.

Müstəqillik hər bir xalqın, dövlətin davamlı inkişafını milli ideya səviyyəsinə yüksəldərək mövcud iqtisadi, elmi-intellektual və mədəni potensialdan səmərəli istifadəyə geniş imkanlar yaradır. Fəqət, müstəqillik nemətinə qovuşan hər bir xalq ilkin mərhələdə onu qoruyub saxlamaq, möhkəmləndirmək, dövlətin gələcək inkişafına etibarlı bünövrə hazırlamaq kimi məsuliyyətli və çətin mərhələni də keçməli olur. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək respublikada hökm sürən acınacaqlı vəziyyət bunu bir daha təsdiqləyir. Həmin dövrdə sosial-iqtisadi tənəzzülün dərinləşməsi, insanların sosial rifah halının pisləşməsi, ictimai-siyasi sabitliyin addımbaşı pozulması, insan hüquqlarına təminatın olmaması və s. destruktiv proseslər respublikanın de-fakto müstəqilliyinə imkan verməmişdir.

1993-cü ilin iyun ayında - ölkədə ciddi siyasi böhranın, hərc-mərcliyin, xaos və anarxiyanın hökm sürdüyü bir şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyət sükanı arxasına keçmiş ulu öndər Heydər Əliyev cəmiyyətdə demokratiyaya münasibətdə formalaşmış yanlış təsəvvürləri dəyişmək üçün ilk növbədə, ictimai-siyasi böhranı aradan qaldırmış, cəmiyyətdə yeni mübariz əhval-ruhiyyə yaratmağa nail olmuş, milli birlik yolu ilə dövləti parçalanmaqdan xilas etmişdir.

Ümummilli liderin rəhbərliyi altında hazırlanan, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. 1995-2003-cü illərdə Azərbaycan ulu öndər Heydər Əliyevin rəhbərliyi altında demokratik dəyərlərin mənimsənilməsi, sivil Qərb dəyərlərinə inteqrasiya, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində mühüm uğurlara nail olmuşdur. Aparılan islahatlar nəticəsində keçmiş sovetlər birliyindən miras qalmış hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuş, birinci instansiya, apelyasiya və kassasiya instansiyalarından ibarət yeni üçpilləli müstəqil məhkəmə sistemi yaradılmışdır. 2000-ci ildən ölkədə hakim seçkisinin test və müsabiqə əsasında aparılması, bununla bağlı şəffaf mexanizmlərin tətbiqi əldə olunan ciddi uğurlardan olmuşdur.

Ulu öndər Heydər Əliyev məhkəmələrlə yanaşı, ədliyyə sistemində də islahatların aparılmasını təmin etmiş, bu orqanın funksiyalarının yeni ictimai-iqtisadi formasiyanın tələblərinə uyğunlaşdırılmasına nail olmuşdur. Ümummilli lider 11 noyabr 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr tarixi ədliyyə işçilərinin peşə bayramı günü elan edilmişdir. Yaranmasının 100-cü ildönümünü qeyd etməyə hazırlaşan ədliyyə orqanlarının əməkdaşları ulu öndərin bu tarixi xidmətini daim minnətdarlıq duyğusu ilə xatırlayır, onun layiqli siyasi davamçısı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatları ürəkdən dəstəkləyirlər.

Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdıran Heydər Əliyev həm də bu ənənələrin davamlılığını təmin etmişdir. Son 15 ildə ulu öndərin əsasını qoyduğu islahatları inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində müstəsna xidmətləri olan Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdəki rolunun və mövqeyinin əhəmiyyətli dərəcədə yüksəlməsini praktik addımları ilə təmin etmişdir. Nazirliyin fəaliyyətinin normativ hüquqi əsaslarının təkmilləşdirilməsi məqsədilə 18 aprel 2006-cı il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"yə əsasən, Ədliyyə Nazirliyinin bu sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak imkanları genişlənmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin son 15 ildə yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Bu məqsədlə ötən müddətdə ədliyyə sistemi ilə yanaşı, ölkəmizin məhkəmə-hüquq sistemində də əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər görülmüşdür.

Məhkəmə-hüquq islahatlarının əsas hədəflərindən biri də məhz regionlarda yaşayan vətəndaşların qanuni maraq və mənafeyinin ədalət mühakiməsi yolu ilə qorunması mexanizmlərinin təkmilləşdirilməsi olmuşdur. 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərmanı bölgələrdə yaşayan vətəndaşların məhkəmələrə müraciət imkanlarını genişləndirmiş, bu sahədə bir sıra mütərəqqi yeniliklərə imkan yaratmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya və yerli iqtisad məhkəmələri yaradılmışdır. Fərmanla eyni zamanda, Sumqayıt şəhərində Sumqayıt Yerli İqtisad Məhkəməsi təşkil edilmişdir.

Müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması, ədalət mühakiməsinin tamamilə şəffaf, demokratik, obyektiv şəraitdə həyata keçirilməsi, bu zaman insan və vətəndaş hüquq və azadlıqlarının maksimum səviyyədə qorunması baxımından hakimlər korpusunun sağlamlaşdırılması da vacib şərtlərdən biridir. Məlumat üçün bildirək ki, son illərədək Azərbaycanda hakimlərin əhaliyə nisbətdə sayı Avropa Şurasına üzv bəzi dövlətlərlə müqayisədə aşağı göstərici ilə xarakterizə olunur, hər 100 min nəfərə orta hesabla 4 hakim düşürdü. Halbuki bir sıra Avropa dövlətlərində hər yüz min nəfərə 20-25 hakim düşür. Məhkəmələrdə hakimlərin sayca azlığının ədalət mühakiməsinin keyfiyyətlə və nəzərdə tutulmuş vaxtda həyata keçirilməsinə mənfi təsirlərini nəzərə alan Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2006-cı il 17 avqust tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı ilə respublika məhkəmələri hakimlərinin sayı 157 ştat vahidi artırılmışdır. Fərmanla həmçinin Sumqayıt Yerli İqtisad Məhkəməsi üzrə əlavə 2 hakim vəzifəsi müəyyən edilmişdir.

Ümumiyyətlə, təkcə son 10 il ərzində əhalinin məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən, regional apelyasiya məhkəmələri təsis edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin məhkəmə sisteminin təkmilləşdirilməsi və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə 15 iyul 2010-cu il tarixli fərmanı ilə 7 rayonda, o cümlədən Sumqayıtda Yerli İqtisad Məhkəməsinin əsasında (bazasında) Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi təşkil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2010-cu il tarixli fərmanına əsasən, Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına Abşeron, Xaçmaz, Xızı, Qobustan, Quba, Qubadlı, Qusar, Siyəzən, Şabran, Şamaxı, Şuşa və Zəngilan rayonları, eləcə də Sumqayıt şəhəri daxildir.

Hakimlərin obyektiv və qərəzsiz olmasının, işlərə daha keyfiyyətlə baxmasının ən mühüm amillərindən biri də onların seçimi prosesinin şəffaflığı və obyektivliyidir. Bu məqsədlə hələ 2004-cü ildə nüfuzlu beynəlxalq ekspertlərin iştirakı ilə işçi qrupu yaradılmış, bir çox ölkələrin təcrübəsi öyrənilməklə, yeni qaydalar işlənmişdir. Çoxsaylı imtahan və müsahibələrdən, namizədlərin hakim vəzifələrinə hazırlanmaları üçün uzunmüddətli kurs və təcrübədən ibarət olan bu seçim proseduru müstəqil qurum olan, tərkibi əsasən hakimlərdən ibarət təşkil edilmiş Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir. Bu qaydalar əsasında ötən illərdə 2200 namizəd sırasından seçilmiş 400 nəfərədək yüksək hazırlıqlı hüquqşünas hakim vəzifələrinə təyin edilmişdir. Eyni zamanda, aparılan məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) öz hesabatında ölkədə məhkəmə islahatlarına göstərilən diqqəti Avropa dövlətləri sırasında fərqləndirərək yüksək qiymətləndirmişdir.

Xüsusi qeyd etmək istərdik ki, son illər ərzində ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin rolu nəzərə alınaraq bu sahədə irimiqyaslı işlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan yeni məhkəmə binaları tikilib istifadəyə verilir. Dünya Bankı ilə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində rayon məhkəmələri üçün müasir tələblərə cavab verən yeni inzibati binalar inşa edilmişdir. Bakının Yasamal və Sabunçu rayonlarında, habelə Gəncə, Oğuz, İmişli, Gədəbəy, Qəbələ və Şəkidə yeni məhkəmə komplekslərinin inşa edilməsi dövlət başçısının bu sahəyə xüsusi qayğısının təcəssümüdür.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" sərəncamı isə bu sahədə ötən illərdən başlanmış islahatların uğurlu davamına etibarlı zəmin yaratmışdır. Sərəncam "ASAN xidmət"in yaradılması ilə vətəndaş məmnunluğuna səbəb olan müasir, sivil, şəffaf xidmətlərin məhkəmə orqanlarının fəaliyyətində də geniş tətbiqinə imkan yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamına əsasən, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidməti yaradılmışdır.

Ədliyyə orqanlarının yaranmasının 100-cü ildönümü mühüm və əlamətdar bayramdır. Şübhə etmədən demək olar ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi, Məhkəmə-Hüquq Şurasının təşkilati-hüquqi səyləri ilə davam etdirilən mütərəqqi islahatlar nəticəsində Azərbaycanda məhkəmə və ədliyyə orqanlarının fəaliyyəti daha da müasirləşəcək, əhaliyə göstərilən hüquqi yardımın səviyyəsi yüksələcək, ədalət mühakiməsinin daha çevik, işlək və obyektiv mexanizmlər əsasında həyata keçirilməsi mümkün olacaqdır.

*İslam ƏLİYEV,*
*Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri*

2003 2018

## Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# Hər bir azərbaycanlının Prezidenti

**Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə başlanan möhtəşəm inkişaf və quruculuq dövrünün 15-ci ili tamam olur. 2003-cü ilin prezident seçkilərində xalqımız ulu öndərin ən layiqli siyasi davamçısı cənab İlham Əliyevə etimad göstərməklə etibarlı gələcəyinə, daha güclü Azərbaycana və yüksəlişə səs verdi.**



## Ümummilli etimad ünvanı

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri:*

- 15 oktyabr 2003-cü il. Bu təqvim həm Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının, həm də müasir Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifələrindən biri kimi yaddaşlara yazılıb. Həmin gün ölkədə Prezident postuna azad, ədalətli və şəffaf şəkildə keçirilən 5-ci rəsmi seçkilərdə YAP-ın namizədi cənab İlham Əliyev seçicilərin 2 milyon 438 min 787 nəfərinin etimadını qazanaraq Azərbaycanın dövlət başçısı seçilib.

Bu, ilk növbədə, xalqın müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevə olan inamının göstəricisi idi. Çünki dahi şəxsiyyət seçkilərdən öncə xalqa müraciət edərək "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" dedikdə, özünün alternativsiz siyasi kursunu davam etdirə biləcək ünvanı göstərmişdi. Ulu öndər tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün məyyənləşdirdiyi inkişaf konsepsiyasını məhz cənab İlham Əliyev uğurla davam etdirərək reallığa çevirə bilər.

Belə bir şəxsiyyətin respublikamıza rəhbər seçilməsi dünyanın tərəqqipərvər, sabitlik, demokratiya, sülh, rifah, inteqrasiya şəraitində yaşamağa üstünlük verən bütün mütərəqqi qüvvələri tərəfindən həm Azərbaycanda, həm də regionda ictimai-siyasi proseslərin məntiqindən doğan labüd hadisə kimi qarşılandı.

Bu gün Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, dahi şəxsiyyət özünün qurub-yaratdığı şah əsəri olan müstəqil respublikamızın taleyini öz məktəbinin layiqli davamçısı cənab İlham Əliyevə əmanət edib. Heydər Əliyev dühasından bəhrələnərək onun siyasi kursunu 15 ildir ki, ləyaqətlə davam etdirən cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində bu gün müstəqil Azərbaycan dünyada qüdrətli dövlət kimi tanınır. Möhtərəm Prezident İlham Əliyev 15 il ərzində ulu öndərin müəyyən etdiyi inkişaf konsepsiyasını uğurla icra edərək Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.

Ötən dövr Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafın müşahidə edilməsi, ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirməsi ilə müşahidə olunur. Müstəqilliyimizin və ideoloji dayaqlarımızın daha da möhkəmləndirilməsinin, vətəndaş həmrəyliyinin bərqərar olmasının təməlində isə Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayanır.

Son 15 il ərzində Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb, ölkəmizin beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirib. Bu gün regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət edir.

Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada nüfuzu artdı, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycan Prezidentinin bu məsələdəki birmənalı mövqeyi təsdiqlədi ki, Dağlıq Qarabağın Azərbaycandan ayrılmaq mexanizmi yoxdur. Bununla belə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində Ermənistanın apardığı etnik təmizləmə və işğal siyasəti nəticəsində doğma torpaqlarından qovulan bir milyon insanın həyat şəraitinin yaxşılaşdırılması, yeni qəsəbələrin salınması diqqətdə saxlanıldı.

Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, Silahlı Qüvvələrin hərbi hazırlıq səviyyəsinin artırılması ilə bağlı görülən işlər Dağlıq Qarabağın Azərbaycandan qoparılması ilə bağlı bəzi dairələrdə yaranan əminliyi darmadağın etdi, xalqımızı ordumuzun etibarına inandırdı. Azərbaycanda güclü müdafiə sənayesi quruldu.

Bu dövrdə Azərbaycanın iqtisadi uğurları daha da böyüdü. İqtisadi nailiyyətləri ilə hər zaman diqqət mərkəzində olan ölkəmizin valyuta ehtiyatları, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artdı, güclü sahibkarlıq sinfi yarandı. 2003-cü ildə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. Ancaq bu gün həmin rəqəm 26,6 faiz artaraq 45 milyard dollara yüksəlib. Azərbaycan iqtisadiyyatına 250 milyard dollar investisiya yatırılıb. Bunun böyük hissəsi xarici sərmayədir. Yəni, Azərbaycanda yaradılan biznes və investisiya mühiti hər zaman xarici sərmayədarların diqqətini cəlb edib.

Son 15 ildə iqtisadiyyatın 3,2 dəfə artması isə dövlət başçısının söylədiyi kimi rekord göstəricidir. Bu, onu təsdiq edir ki, son 15 ildə iqtisadi cəhətdən Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bütün bunların sayəsində respublikanın bölgələrində inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 1 milyon 600 mindən çox yeni iş yeri açıldı.

Ölkədə qeyri-neft sektorunun inkişafı neft strategiyasının məntiqi davamı oldu. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı tədbirlər gördü. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərdi. Ölkədə minlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı.

Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, ümumiyyətlə, nəhəng infrastruktur layihələrinin icrası Azərbaycanı regionun nəqliyyat-tranzit, eləcə də logistik mərkəzinə çevirdi.

Əgər 1994-cü ildə ulu öndər Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafının təməl daşı hesab olunan "Əsrin müqaviləsi"ni reallaşdırdısa, 23 il sonra, 2017-ci ilin sentyabrın 14-də cənab İlham Əliyev bu müqavilənin 2049-cu ilə kimi uzadılması ilə bağlı yeni "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu.

Əgər 1971-ci ildə ölkəmizdə 1 milyard ton neft hasil olunması ilə bağlı tədbiri ulu öndər Heydər Əliyev keçirmişdirsə, 46 il sonra 2017-ci ildə 2 milyard ton neftin hasilatı ilə əlaqədar mərasimi Prezident İlham Əliyev təşkil etdi.

Bu tarixi reallıqlar bir daha təsdiq edir ki, dövlət başçısı 15 il müddətində yürütdüyü tam müstəqil siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib.





## Liderlik rəmzi

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı*

- Azərbaycanın yüksəlişini, beynəlxalq arealda qazandığı nüfuzu qiymətləndirərkən ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanını əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır. Azərbaycanın indiki sürətli yüksəlişinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.

Dahi şəxsiyyət yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənmədi, bu strateji kursu davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider yetişdirdi. Ölkəmizin strateji inkişaf kursunu yeni dövrün tələblərinə uyğun şəkildə, yüksək dinamizmlə həyata keçirən Prezident İlham Əliyev fəaliyyəti və verdiyi vədləri əməli işi ilə doğrultmaqla ulu öndər Heydər Əliyevin ən layiqli siyasi davamçısı olduğunu sübuta yetirdi, milli ideyalara sadiqliyin mükəmməl nümunəsini yaratdı.

Azərbaycan xalqı ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə səs verməklə Heydər Əliyev siyasi kursunun davamına, xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. Cənab İlham Əliyevin ölkəmizə ilk dəfə prezident seçilməsindən 15 il ötür.

15 il dövlət üçün elə də uzun zaman kəsiyi deyil. Amma Azərbaycanın bu dövrdə qazandığı möhtəşəm nailiyyətlər, sosial-iqtisadi yüksəlişi, beynəlxalq imicinin artması, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi ölkəmizin sanki onilliklərə bərabər inkişaf yolu keçdiyini düşünməyə əsas verir. Və bunların hamısı ilk növbədə, onu təsdiqləyir ki, müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirilir.

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düşünülmüş, təmkinli, lakin çevik və qətiyyətli, uzaqgörən siyasət nəticəsində ölkəmiz olduqca mühüm iqtisadi və sosial uğurlara nail olub. Azərbaycan hələ 9 il əvvəl keçid dövrünü uğurla başa vurub, qlobal maliyyə böhranlarını qısa müddətdə inkişafla əvəzləyib. Bu mənada Prezident İlham Əliyev çox qısa müddətdə ölkənin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə Azərbaycanın ən yeni tarixinə qızıl hərflərlə yazılan uğurların müəllifidir. Belə ki, respublikamız müsbət iqtisadi göstəriciləri ilə yanaşı, həm də siyasi baxımdan sabit ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin iştirakçısı kimi tanınır. Bakı-Tbilisi-Ceyhan neft kəmərindən başlamış Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsinə qədər bütün möhtəşəm uğurlarımızın müəllifi Prezident İlham Əliyevdir.

Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Bu siyasət həm də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin məkanına çevrilməsini təmin edib. Beləliklə, Prezident İlham Əliyev ölkəmizin inkişafı ilə yanaşı, həm də dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib. Odur ki, fəaliyyəti ilə cəmiyyətimizdən daim dəstək alan, müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev ulu öndərin layiqli davamçısı olaraq beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılanır. Bu mənada fəxarət doğuran məqamlardan biri də Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Təsadüfi deyil ki, dövlət başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

2003-2018-ci illərin reallıqları həm də onu deməyə əsas verir ki, Prezident İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir.

Ölkəmizdə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi daha sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin məqsədyönlü fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib. Bundan irəli gələrək bütün parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədləri üstünlük qazanıblar.

Azərbaycan dövləti və xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, inkişafa doğru məhz Heydər Əliyevin təməlini qoyduğu yol ilə inamla irəliləməkdədir. Ötən 15 ilin siyasi-iqtisadi-sosial mənzərəsi göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderimizin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi liderdir. Prezident İlham Əliyev ulu öndərin siyasi-ideoloji kursunu layiqincə davam etdirməklə, Azərbaycanın inkişaf strategiyasını uğurla həyata keçirməklə, müstəqilliyimizi möhkəmləndirməklə, dövlətçiliyimizi qüdrətləndirməklə Heydər Əliyevin ideyalarını yaşadır, inkişaf etdirir, ölkəmizi əzm və inamla aydın sabahlara aparır.

## Azərbaycanın iqtisadi müstəqilliyini təmin edən rəhbər

**Tahir MİRKİŞİLİ,**
*Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 2003-2018-ci illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olmuşdur. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə artmışdır. Ölkənin strateji valyuta ehtiyatları 26.6 dəfə artmış, maliyyə imkanlarımız əsaslı şəkildə yaxşılaşmışdır. Müqayisə edilən illərdə xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi 6 dəfə artmışdır. Regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfəyə bərabər olmuşdur.

Əldə olunan nailiyyətlər ölkədə sistemli şəkildə həyata keçirilən islahatlar nəticəsində iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi sayəsində mümkün olmuşdur.

Azərbaycan vətəndaşı, onun sosial qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyinin təmin olunduğu strateji xəttə uyğun olaraq əhalinin sosial rifah halının yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi, əmək məhsuldarlığının artırılması və məşğulluğunun təmin edilməsi, yoxsulluq dərəcəsinin aşağı salınması istiqamətlərində əhatəli kompleks tədbirlər həyata keçirilmişdir. Əhalinin nominal gəlirləri 8.6 dəfə, minimum əməkhaqqı 12.9 dəfə, xaricə səfər edən vətəndaşların sayı 2,2 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artmışdır. Hər 100 ailəyə 53 avtomobil düşür, 1 958 400 yeni iş yeri açılmış, 326.6 min nəfərə ünvanlı dövlət sosial yardımı verilmişdir. İşsizliyin səviyyəsi 9.2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44.7 faizdən 5.4 faizə enmiş, 245 min nəfər məcburi köçkün mənzillə təmin olunmuşdur.

Əhalinin sosial müdafiəsinin güclənməsinə səbəb olan mühüm sosial layihələr reallaşdırılmış, yeni sosial obyektlərin tikintisi istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Güclü sosial siyasətin həyata keçirilməsi əhalinin keyfiyyətli və etibarlı sosial qayğı ilə əhatə olunmasına imkan yaratmış, sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə xüsusi diqqət gücləndirilmişdir.

Paytaxtdakı və regionlardakı iqtisadi ehtiyatların səfərbər edilməsi yeni müəssisələrin və iş yerlərinin açılmasına, işsizliyin səviyyəsinin xeyli aşağı salınmasına, insanların layiqli yaşayışının təmin edilməsinə səbəb olmuşdur.

Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ən mühüm üstünlüklərindən biri ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatların dərin konseptual əsaslar və hər sahədə dinamik inkişafı təmin edən konkret proqramlarla dəstəklənməsidir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və "Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası"nın postneft dövrünün yeni çağırışlarına uyğun hədəflərin reallaşdırılmasında, informasiya-kommunikasiya sektorunun inkişafında, müasir innovasiyaların tətbiqi və idarəetmə sisteminin təkmilləşdirilməsində İKT-nin rolunun əsaslı şəkildə artırılmasında mühüm rolu olmuşdur.

15 il ərzində Azərbaycan qlobal rəqabətlilik indeksində dünyadakı mövqeyini xeyli gücləndirmiş, Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda 35-ci pillədə qərarlaşmış və MDB məkanında liderliyini qoruyub saxlamışdır. Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkədən biri kimi tanınmışdır. Həmçinin ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olmuşdur. Ölkə ərazisində internetin tətbiqi genişləndirilmiş və internet istifadəçiləri əhalinin 78 faizini təşkil etmişdir. İKT sektorunun iqtisadiyyatda payı 3,7 dəfə artmışdır. Azərbaycan kosmik ölkələr sırasına daxil olmuşdur.

Bu uğurlu missiya bu gün də davam edir. Dərin iqtisadi islahatlar nəticəsində Azərbaycan müasir dünyanın çağırışlarına daha dayanıqlı iqtisadiyyat formalaşdırmaqla cavab verir. Dövlət başçısının Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin, rifah halının daim yaxşılaşmasına yönələn yorulmaz fəaliyyəti hər keçən il öz müsbət nəticələrini daha çox göstərir.

***"Azərbaycan"***

2003 2018

# Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



Şərq müdriklərindən biri söyləyir ki, “Əgər hara getdiyini bilmirsənsə, o zaman heç bir səmt küləyi sənə kömək edə bilməz”. Bu deyim, inkişafa can atan hər bir xalqın onu öz milli hədəflərinə doğru apara biləcək liderə olan mənəvi ehtiyacını əks etdirir. İnsanları ideyalar ətrafında liderlər bir araya gətirir. Toplumu öz məqsədlərinə doğru liderlər aparır. Tarixdə yaşanan gerçəklər bunun sübutudur.

## Şəxsiyyətin gücü

Dövlət müstəqilliyimizin ilk illərindəki ağır təlatümlər dövründə məhz ümummilli lider Heydər Əliyev cəmiyyətimizi dövlətçilik idealları ətrafında toparlaya bildi. Xalqımızın tarixi, siyasi zəfərləri bu böyük şəxsiyyətin qətiyyəti sayəsində ardıcıl xarakter aldı. Dünyanın siyasi xəritəsində xalqımız dahi rəhbərin sayəsində özünü tapdı, öz milli dövlətini qurdu. Heydər Əliyev fenomeni bu dövlətin əbədiliyini, sarsılmazlığını, dönməzliyini təmin etdi.

Ulu öndərin milli dövlətçilik irsini davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqın yekdil səsi ilə ölkə rəhbəri seçildiyi 2003-cü ilin 15 oktyabrından keçən əlamətdar dövr də milli dövlətçilik tariximizdə möhtəşəm intibah mərhələsinə çevrildi. Bu dövr xalqın öz seçimində göstərdiyi müdrikliyi bir daha nümayiş etdirdi. İnsanlarımız təkamülə əsaslanan demokratik inkişafın tərəfdarı olduqlarını, konkret planlara malik çevik, işlək, monolit komandaya güvəndiklərini təsdiqlədilər.

Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin labüdlüyünü şərtləndirən ən başlıca amil, şübhəsiz ki, bu kursun bütünlüklə Azərbaycanın dövlətçilik maraqlarının həyata kecirilməsinə yönəldilməsindən ibarət idi. Bu siyasətin varisliyinin qorunub saxlanılması zərurəti Azərbaycan cəmiyyətinin sosial sifarişi kimi ortaya çıxmışdı. Ulu öndərin siyasət məktəbində yetişmiş peşəkar diplomat kimi təmiz keçmişə, praqmatik, müasir lider imicinə malik olması, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin, Milli Olimpiya Komitəsinin rəhbəri kimi ölkəmizə qazandırdığı nailiyyətlər İlham Əliyevin ictimai rəydə qazandığı yüksək nüfuzu şərtləndirirdi.

Azərbaycan insanları onda da gördülər ki, Moskva Beynəlxalq Münasibətlər İnstitutu kimi bütün dünyada məşhur ali təhsil müəssisəsində diplomatiya elminin incəliklərinə dərindən yiyələnmiş, bu sahədəki nəzəri biliklərini Heydər Əliyevin siyasət və idarəçilik məktəbində qazandığı vərdişlərlə ümumiləşdirərək təcrübəli, peşəkar dövlət xadimi kimi formalaşmış cənab İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik məharəti ümumi vəhdət təşkil edir. Onun fəaliyyətində, siyasi davranışında ciddi nizam-intizam, məsuliyyət hissi, ən əsası isə məqsədyönlülük və prinsipiallıq var.

## Uğurlu lider

Cənab İlham Əliyevin siyasi portretinin xarakterik cizgiləri onun Azərbaycan və dünya siyasi arenası üçün zəmanəsinin ən uğurlu siyasi liderlərindən olduğunu ötən 15 il ərzində birmənalı şəkildə sübuta yetirmişdir. O, yeni dövrün siyasətçisi kimi öz simasında Qərb standartlarının - kübar rəftarın, sadəliyin, rasional düşüncə tərzinin, sarsılmaz vətənpərvərliyin, praqmatizmin milli mentalitetlə, Şərq müdrikliyi ilə uğurlu sintezini yaratmış, bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə müasirlik gətirmişdir. Liderlik xüsusiyyətinin əksəriyyət tərəfindən qəbul edilmək, geniş siyasi spektrin inamını qazanmaq, elektoral dəstəyə malik olmaq kimi politoloji məqamları özündə ehtiva etdiyini nəzərə alsaq, bu termini bütün kateqoriyalar üzrə cənab İlham Əliyevə şamil etmək mümkündür. Dövlət başçısı müasir dünyadakı qloballaşmadan, yeni geosiyasi reallıqlardan irəli gələn mənzərənin tələblərinə cavab verən siyasi xəttin daşıyıcısıdır. Milli maraqları və mənəvi dəyərləri ümumbəşəri ideallarla ahəngdar şəkildə uzlaşdırmaq bacarığı, intellektual səviyyə, universal bilik və akademik təhsil, dəmir məntiq və möhkəm iradə - bütün bunlar cənab İlham Əliyevin siyasi obrazını tamamlayan mühüm keyfiyyətlərdir.

Milli dövlətçilik təfəkkürünə bağlı olan cənab İlham Əliyev əsrlərin süzgəcindən keçərək günümüzə gəlib çatmış mənəvi-əxlaqi sərvətlərimizə pozitiv anlamda mühafizəkarlıq prizmasından yanaşır. Bu mənada, millilik Prezident İlham Əliyevin siyasi düşüncəsinin, təfəkkürünün əsas mənbəyidir. Onun öz xalqının ruhuna uyğun olan, eləcə də müasir dünyamızın modern təmayüllərinə əsaslanan siyasəti Azərbaycanın əbədi və əzəli milli maraqlarından qaynaqlanır. Cənab İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən və xalq təəssübkeşliyi, Şərqin pozitiv ənənəçilik meyilləri, türk mənəvi-əxlaqi dəyərləri, habelə Qərb və Avropa təmayülləri sintez təşkil edir. Prezident İlham Əliyev klassik siyasətdən XXI yüzilliyin modern siyasətinə uğurlu keçid formulunu ilk dəfə, özü də müvəffəqiyyətlə sınaqdan çıxaran siyasətçi obrazının daşıyıcısı olaraq beynəlxalq münasibətlərdə, diplomatiyada eyni dərəcədə mühafizəkar, ənənəçi və yenilikçi, liberal olmaqla mötədil dəyərləri uzlaşdırmağı bacarır. Bütün bu vacib keyfiyyətlər isə Azərbaycanın son 15 ildəki uğurlarının başlıca düsturuna çevrilmişdir.

Azərbaycanda ictimai-siyasi sabitliyin, vətəndaş sülhü və həmrəyliyinin qorunub saxlanılması naminə ilk gündən nümayiş etdirdiyi yüksək prinsipiallıq, qətiyyət və əzmkarlıq Prezident İlham Əliyevin istənilən ekstremal situasiyada çevik və optimal qərar qəbul edən qətiyyətli lider olduğunu göstərmişdir. Zaman-zaman ölkəmizdə ictimai-siyasi sabitlik əleyhinə yönəlmiş xarici və daxili təzahürlərin qətiyyətlə aradan qaldırılması dövlət başçısının xalqın dəstəyinə arxalanan, dövlətçiliyin müdafiəsi üçün zəruri keyfiyyətlərə malik lider olduğunu dəfələrlə sübuta yetirmişdir.

## Mütərəqqi dövlətçilik ənənələri

2003-cü ilin 15 oktyabr seçkilərindən ötən illər ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan dövlətinin yüksəlişi, öz hədəflərinə yetişməsi üçün zərrə-zərrə formalaşdırdığı böyük potensialın bütün əzəməti ilə reallığa çevrildiyi möhtəşəm bir dövrdür.



İctimai-siyasi sabitlik amili, eyni zamanda, mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycanın dünya miqyasında sivil, demokratik yolla inkişaf edən, beynəlxalq hüquq normalarına və prinsiplərinə hörmətlə yanaşan ölkə imicini daha da möhkəmləndirir. Respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ən yeni tarixinin çox mühüm nailiyyətlərindəndir.

Prezident İlham Əliyev liberal dəyərləri üstün tutan bir sıra beynəlxalq siyasi dairələrin “daha çox demokratiya, daha az dövlət” çağırışlarına cavab olaraq Azərbaycanın yerləşdiyi coğrafi-siyasi regionda, həmçinin, ictimai inkişafın mövcud pilləsində dövlətçilik prinsipinin dominantlıq qazanması zərurətini ustalıqla əsaslandırmağı bacarır. Azərbaycan nümunəsi ilə göstərir ki, güclü dövlət olmadan vətəndaşların demokratik hüquq və azadlıqlarını həyata keçirmək mümkün deyildir.Yaxud da əksinə, vətəndaşların hüquq və azadlıqlarını təmin etmədən güclü dövlət qurmaq olmaz. Cənab İlham Əliyev bu siyasi ideyalar arasında uğurlu harmoniya yaradaraq ictimai təkamülün ardıcıllığını qoruyur. Bunun nəticəsi olaraq nə dövlət vətəndaşların, nə də vətəndaşların hüquq və azadlıqları dövlətçilik təmayülünün labüd inkişafına xələl gətirir. Məhz bu amil İlham Əliyevin milli xüsusiyyətləri nəzərə almaqla irəli sürdüyü demokratik və hüquqi dövlət ideyasının başlıca xəttini təşkil edir.

# İnsana dəyər verən siyasət

Bu mənada, Azərbaycan xalqının 15 il öncə inanıb öz taleyini etibar etdiyi cənab İlham Əliyev ümummilli liderin siyasi irsinin təkcə ən layiqli varisi deyil, həm də bu zəngin dövlətçilik irsində müəyyən olunmuş böyük amalları faktlaşdıran, həyat gerçəklərinə çevirən qüdrətli siyasi fenomendir. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaratmışdır.

Müasir qloballaşma dövründə dövlətlərin demokratiklik əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqdan mandat almış hakimiyyət, fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatlar kursunu həyata keçirməyə çalışır. Bu prinsip Heydər Əliyevin dövlətçilik irsini inamla davam etdirən və daha da möhkəmləndirən cənab İlham Əliyevin fəaliyyətinin başlıca qayəsini təşkil edir.

2003-cü ilin 31 oktyabrında keçirilmiş andiçmə mərasimində hakimiyyəti xalqa xidmət vasitəsi saydığını bəyan etmiş dövlət başçısı verdiyi vədləri əməli işi ilə doğrultmaq üçün əzmlə çalışmış, hər bir addımında vətəndaşların mənafeyini əsas götürmüşdür. Dövlət idarəçiliyinə yeni ruh və müasirlik çalarları gətirmiş cənab İlham Əliyev hökumətin müntəzəm olaraq xalq qarşısında hesabat verməsini sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin mühüm şərti hesab etməklə yanaşı, bu mütərəqqi ənənəni Azərbaycanın davamlı, dönməz inkişaf yoluna çevrilmiş demokratikləşmə və vətəndaş cəmiyyəti quruculuğu prosesinin keyfiyyətcə yeni mərhələsi kimi dəyərləndirir.

## Xalq adamı

Ulu öndər Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə xalqla ekstravaqant təmasları, daha dəqiq desək, qəfildən küçə və meydanlara çıxaraq insanların qayğı və problemləri ilə maraqlanması barədə bugünün özündə də xoş xatirələr dolaşır. Böyük hakimiyyət ustadı ictimai rəy amili ilə hər zaman hesablaşaraq siyasi fəaliyyətində onu daim nəzərə alırdı. Təqdirəlayiq haldır ki, Prezident İlham Əliyev də bu xoş ənənəyə sadiqlik nümayiş etdirir. Müntəzəm surətdə xalqın qarşısına çıxır. Tez-tez rayonlara gedir, özünəməxsus sadəliklə insanlarla görüşür, onlarla səmimi söhbətləşir. Əslində, vətəndaşları narahat edən problemlərin həlli yönündə ən müdrik addım elə onlarla canlı ünsiyyət yaratmaqdır. Bu, ictimai rəy baxımından ciddi siyasi və mənəvi-psixoloji çalarları özündə ehtiva edir.

Dövlət başçısının vətəndaşlarda narahatlıq doğuran problemlərin həlli üçün yerindəcə göstərişlər verməsi ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir. Bu həm də dövlət məmurlarını əhalinin problemlərinə daha ciddi yanaşmağa sövq edir. “Mən xalqımın xidmətçisiyəm və hər bir məmur da xalqın xidmətçisi olmalıdır!” - deyən cənab İlham Əliyev bunun heç də “gəlişigözəl söz” olmadığını əməli işilə sübuta yetirir. Bu tələblərə biganə yanaşan, monolit və mobil komandada fəaliyyət prinsiplərini pozan, yaxud da dövrün tələblərinə uyğunlaşa bilməyən məmurlar tutduqları vəzifələrlə vidalaşmalı olurlar. Komanda zamanın tələbinə uyğun yeniləşir, daha çevik, mobil xarakter daşıyır.

Bu gün bütün dünyada aksiom kimi qəbul olunan həqiqət bundan ibarətdir ki, iqtisadi cəhətdən inkişaf etməyən ölkə demokratikləşmə, insan hüquqlarının etibarlı təminatı, vətəndaşların sosial müdafiəsi, habelə xarici siyasət və beynəlxalq münasibətlər sahəsində böyük uğurlar qazana bilməz. Bu reallığı düzgün qiymətləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi siyasət strategiyasını yeni dövrün tələblərinə uyğun davam etdirir.

Prezident İlham Əliyevin yenilməz iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti Azərbaycanı daim intensiv inkişaf axarında saxlayır. Dövlət başçısı respublikamızın hansı əsas problemlərinin, qayğılarının olduğunu yaxşı bilir və onların həlli üçün mükəmməl konsepsiyaya malikdir: “Bizim iş üslubumuz belədir: problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün bizim lazımi maliyyə imkanlarımız da var”.

Azərbaycan Prezidenti müasir dünyada iqtisadi inkişaf potensialının hər bir dövlətin gücünü müəyyən edən başlıca amil kimi çıxış etdiyini haqlı olaraq ilk gündən önə çəkdi. Xüsusi vurğuladı ki, ölkənin və xalqın bütün problemlərinin - sosial çətinliklərin aradan qaldırılmasından tutmuş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinədək hər bir maneənin dəf edilməsinin ən başlıca yolu məhz iqtisadi tərəqqidən keçir. Dinamik inkişafda olan iqtisadiyyat sabitlik, əmin-amanlıq, demokratiya və vətəndaş cəmiyyəti, milli təhlükəsizlik, səmərəli xarici siyasət deməkdir. Təsadüfi deyildir ki, dövlət başçısı İlham Əliyevin ötən fəaliyyəti dövründə əsas ağırlıq mərkəzini bu sahənin üzərinə saldı.

O, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində qarşıda duran əsas vəzifələri dəqiqliklə müəyyənləşdirərək ilk növbədə, milli iqtisadiyyatda infrastruktur dəyişikliklərinə nail oldu. Kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyi bacardı. Azərbaycanın davamlı inkişafının təmin edilməsi baxımından strateji əhəmiyyətli dövlət proqramlarının qəbulunu və icrasını gerçəkləşdirdi.

## İslahatçı

Sosialyönümlü siyasət yeridən dövlət başçısının son 15 ildə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar cənab İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini göstərir. Dövlət başçısı ötən müddətdə ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun inkişafı, regionların proporsional yüksəlişi, yeni istehsal müəssisələrinin açılması, ən başlıcası isə işsizlik probleminin aradan qaldırılması naminə bir sıra mühüm addımlar atmışdır.

Prezident İlham Əliyev qısa zaman kəsiyində həyata keçirdiyi çoxşaxəli islahatlarla sübuta yetirmişdir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, demokratik imicə, mənəvi yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz. Məhz bu islahatların nəticəsi olaraq beynəlxalq aləmdə Azərbaycanın nüfuzu getdikcə güclənir. Ölkəmiz dünya miqyasında daha möhkəm mövqelərə sahib olur. Qonşularla münasibətlər uğurla inkişaf edir. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələrdə Azərbaycanın iştirakı təmin olunur. Dövlət siyasəti xalqımızın milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Prezident İlham Əliyevin inamla davam etdirdiyi mütərəqqi islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyənləşdirir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddətdə iqtisadi inkişaf göstəricilərinə görə dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan insanının güzəranı yaxşılaşır, şəhər, kənd və qəsəbələrimiz abadlaşır, kommunal problemlər həllini tapır, respublikamızda işsizlik, yoxsulluq kimi ağır sosial bəlalar aradan qalxır. Ölkəmizdəki sürətli iqtisadi inkişaf yalnız statistik rəqəmlərdə deyil, həm də insanların gündəlik həyatında əksini tapır. İnsanlar zaman keçdikcə xırda məişət qayğılarından uzaqlaşır, cəmiyyətdə mənəvi dəyərlərə, milli irsə, mədəniyyətə qayıdış meyli güclənir.

## Azərbaycanımız dünyada

Dövlət başçısının yeritdiyi uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycanın bütövlükdə Avratlantik coğrafi arealında sülh, tərəqqi və əməkdaşlıq paytaxtına, beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrildiyini getdikcə daha qabarıq göstərir. Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır. Belə bir müsbət imicin formalaşması cənab İlham Əliyevin təşəbbüsü ilə respublikamızda keçirilən beynəlxalq tədbirlərin nəticəsidir. Respublikamızda müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatlar da dönmədən davam etdirilir. Bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirir.

Bütün bu nailiyyətlərin - siyasi, sosial-iqtisadi və mədəni-humanitar sahələrdə əldə edilmiş yüksək nəticələrin möhkəm təməl üzərində formalaşmış ictimai-siyasi sabitlik amili ilə şərtləndiyini, həmrəyliyə və vətəndaş sülhünə əsaslandığını xüsusi vurğulamağa ehtiyac yoxdur. Bu gün respublikamızda mövcud olan daxili sabitlik, əmin-amanlıq, milli vəhdət mühiti demokratik inkişafın, qanunçuluğa və hüquq qaydalarına, ədalət meyarlarına ciddi şəkildə riayət olunmasının, habelə sürətli iqtisadi tərəqqinin başlıca təminatlarından biridir.

“...Azərbaycanda siyasi islahatlar çox cəsarətlə aparılır. Bu da bizim prinsipial və düşünülmüş seçimimizdir. İqtisadi islahatlar və siyasi islahatlar ölkəmizin inkişafı üçün çox möhkəm zəmin yaradır. Biz bu iki amili bərabər, paralel şəkildə həyata keçiririk və gözəl zəmin əsasında güclü dövlət quruculuğu prosesi gedir. Bu zəmin əsasında Azərbaycanda güclü sosial siyasət aparılır” - deyən Azərbaycan Prezidenti İlham Əliyev hesab edir ki, cəmiyyət həyatındakı fundamental dəyişikliklər hüquqi-siyasi islahatların dərinləşdirilməsini, inkişaf etmiş Qərb dövlətlərinin mütərəqqi demokratik ənənələrinin mənimsənilməsinə xidmət edən fəal siyasətin həyata keçirilməsini aktual məsələ kimi önə çıxarır. Respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə demokratik normaların ictimai şüurda möhkəmlənməsinə və qəbul edilməsinə daha yaxşı imkanlar yaranmışdır.

## İnsan qızılı

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bildirmişdir ki, müasir dövrdə hər bir xalqın, dövlətin gələcək taleyini təkcə onun malik olduğu zəngin təbii sərvətlər deyil, həm də elmi-mədəni və intellektual imkanları, bütün bunların da fövqündə dayanan insan kapitalı müəyyənləşdirir.

Bu mənəvi sərvət, insanın ağlı, zəkası modern cəmiyyətlərin əsas güc qaynağıdır. Bəs insan kapitalı harada formalaşır? Əlbəttə, təhsildə. Həmişə deyiblər: istedad milli sərvətdir. Bu gün isə deyirlər ki, istedadlı insan cəmiyyətin ən böyük sərvətidir. Amma istedad öz-özünə bəhrə verə bilmir. Onun təhsil sistemində yetişdirilməsi, cilalanması, ona sosial qayğı göstərilməsi lazımdır. Vətəni modernləşdirmə konsepsiyasının təşəbbüskarı olan Prezident İlham Əliyev innovasion kadr potensialı yaradılması üçün orta məktəbdən başlayaraq xüsusi proqramlar həyata keçirmək üçün dövlət əhəmiyyətli sənədlər imzalayıb. Bunlar təhsilimizi modernləşdirməyə, istedadlı gənclərə qayğı göstərməyə və istedadları himayə etməyə yönəlmiş rəhbər sənədlərdir. Təhsil işçilərinin borcu isə bu sənədləri dərindən mənimsəmək və konkret məktəblərdə yerli şəraitə uyğun tətbiq etməkdir.

Hər bir maarif sisteminin bünövrəsi xalqın ziyalı potensialı, onun ənənələrə və dəyərlərə bağlılığıdır. Son yüz ildə xalqın gələcəyini düşünən, onun müasir təhsilini və məktəbini yaradan, vətənpərvər nəsillər yetişdirən Azərbaycan ziyalıları çox olub. Bu gün onların böyük bir dəstəsi də təhsil və elm sahəsində çalışır. Prezident daim bu ziyalı və alimlərə böyük qayğı göstərir. Onun ziyalı və alim əməyinə verdiyi dəyər birbaşa Azərbaycanın modernləşməsinə qoyulan kapitaldır. Eyni zamanda, cəmiyyətimizdə innovasion və texnoloji modernləşmə zərurətinin irəli sürülməsi dövlət rəhbərimizin bu istiqamətdəki ardıcıl və qətiyyətli xəttidir. Bu gün ictimai mühitdə elmin və ziyalılığın, qabaqcıl texnologiyaların böyük əhəmiyyəti təbliğ edilir, milli modernləşmə hamı tərəfindən dərk olunan hədəfə çevrilir.

Funksional imkanları elm və təhsilin inkişafına, ictimai həyatın ən müxtəlif sahələrinin tərəqqisinə yönəldən bu siyasət Azərbaycanın gələcəyinin mühüm rəhni kimi çıxış edir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin milli dövlətçilik fəlsəfəsinə görə, müstəqil Azərbaycan dövləti qloballaşan dünyanın bərabərhüquqlu subyekti kimi öz inkişafını, sadəcə, təbii sərvətlərin gətirdiyi dividendlərə bağlamır. Mövcud resurslarını insan faktorunun prioritetə çevrilməsi yönündə qurur.

Azərbaycan Prezidenti İlham Əliyevin neftdən əldə olunan vəsaitlərin böyük qisminin insan kapitalına yönəldilməsini təmin etmək istiqamətində yeritdiyi məqsədyönlü strategiya inkişaf etmiş bir sıra dövlətlərin təcrübəsində özünü tam doğrultmuşdur. Bu gün Uzaq Şərqin zəngin təbii sərvətləri olmayan bir sıra dövlətlərinin, konkret desək, Yaponiyanın timsalında tam əminliklə demək olar ki, elm və təhsil, yüksək ixtisaslı kadr potensialı hər bir dövlətin davamlı sosial-iqtisadi, mədəni-intellektual yüksəlişinin əsas təminatı qismində çıxış edir. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi dividendlərə görə bu gün hətta zəngin təbii sərvətləri belə üstələyir. Müasir dünyada rəqabətə tab gətirmək üçün ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu reallıqdan çıxış edir. Elmi sahədə böyük yüksəlişin təmin olunmasına əzmlə çalışır.

## Maarifçi

Prezident İlham Əliyev Azərbaycan xalqının gələcəyinin məhz elm və təhsillə bağlı olduğunu çıxışlarında hər zaman bildirməklə, fəal milli maarifçilik xətti yeridir. Dünyanın elm və təhsil sisteminə inteqrasiyanı vacib sayır. Respublika iqtisadiyyatının yüksək inkişaf tempi, ictimai-siyasi sabitliyin davamlı xarakter daşıması təhsilin və elmin dünya standartları səviyyəsinə qalxması üçün daha çevik islahatlar aparmağa imkan yaradır. Dövlət başçısı qlobal bilik mühitinə inteqrasiyanın təmin olunması, elm və təhsil müəssisələrimizin maddi-texniki bazasının yaxşılaşdırılması, onların kompüter və informasiya texnologiyaları ilə təchizatı, tədrisin məzmun və formaca müasirləşdirilməsi, dünyanın qabaqcıl dövlətlərinin mütərəqqi təhsil ənənələrinin mənimsənilməsi, yeni məktəblərin tikintisi kimi fundamental sahələri əhatə edən müstəsna əhəmiyyətli fərman və sərəncamlar, dövlət proqramları imzalayaraq onların icrasına nail olur.

Ötən 15 il ərzində respublikanın elm-təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişikliklərinin baş verməsi, inkişafyönümlü proqram və layihələrin həyata keçirilməsi məhz cənab İlham Əliyevin bu sahələrə diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Dövlət büdcəsindən bu sahələrə ayırmaların ilbəil artırılmasında əsas məqsəd yalnız hamının biliklər qazanmasını təmin etmək deyil, eyni zamanda, bu vəsaitdən daha səmərəli istifadə etməklə təhsilin keyfiyyətində müvafiq nəticələrə nail olmaqdır. Bu baxımdan, təhsil müəssisələrinin təmiri, bərpa və yenidən qurulması Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan möhtəşəm təhsil layihələri təsadüfi olmayıb, ölkədə həyata keçirilən təhsil strategiyasının mahiyyətindən, insana verilən dəyərdən, insanın ən qiymətli sərvət kimi qəbul olunmasından irəli gəlir.

Cənab İlham Əliyevin qazandığı uğurların təməlində də bu durur. Azərbaycan Prezidenti insan və şəxsiyyət amilini ucaltmaqla, hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirməklə insanların böyük rəğbətini qazanır. Bütün bunlar ölkəmizdə mənəvi ab-havanın getdikcə daha da yaxşılaşmasına, Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadının, sevgisinin güclənməsinə xidmət edir. Bu siyasətin ən böyük nailiyyəti isə bütövlükdə Azərbaycan insanının təfəkkür və düşüncə baxımından müasirləşməsi, modern baxışlar sisteminə liberal yanaşması, mental və bəşəri dəyərləri uzlaşdıra bilməsidir.

Cəmi 20 il bundan əvvəl dünyaya göz açmış körpələrimiz indi müstəqil Azərbaycanın 20 yaşlı, yetkin, müasir düşüncəli gəncləridir. Onlar tam olaraq müstəqillik dövründə yaşayıblar, bu mühitdə formalaşıblar, bu nemətin şirinliyini dadıblar. Şəxsi qənaətim belədir ki, onlar yeni ictimai-iqtisadi formasiyada, azərbaycançılıq və müstəqillik ideologiyası ruhunda formalaşdıqları üçün müstəqilliyin qədrini, qiymətini orta və yaşlı nəsildən daha yaxşı bilirlər. Hər cür nostalgiyadan uzaq olan müasir düşüncəli, kreativ, yenilikçi ruhlu bu gənclik müstəqilliyimizin, ulu öndərin təbirincə desək, əbədi, dönməz olmasının etibarlı təminatçısıdır.

Və bu, Heydər Əliyev ideyalarının, bu ideyalar işığında Azərbaycanı tarixinin ən xoşbəxt günlərinə yetirmiş cənab İlham Əliyevin yürütdüyü siyasətin ən qüdrətli nailiyyətidir.

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru,***
***YAP Qadınlar Şurasının sədri***

2003–2018

## Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# İlham Əliyevdən "İslam Maarifçiliyinin Azərbaycan modeli"nə dəyərli töhfə

### Prezidentin təşəbbüsü ilə yaradılan İlahiyyat İnstitutu peşəkar, intellektual dini mütəxəssislər formalaşdırmaqla yanaşı, ölkəmizin qlobal miqyasda islam həmrəyliyini möhkəmləndirməyə yönələn fəaliyyətinə də əməli dəstək olacaq

*Əvvəli 1-ci səh.*













Azərbaycan xalqının zəngin multikultural keçmişi təkcə xalqımızın bugünkü tolerant yaşam tərzi ilə deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Elə Prezident İlham Əliyevin bu ilin fevral ayının 9-da imzaladığı sərəncama əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində İlahiyyat İnstitutunun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılmasını, inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

### Məzhəblərüstü, xurafatdan uzaq tədris sistemi qurmaq istəyirik

Bu günlərdə yeni yaradılan bu təhsil müəssisəsində dərs prosesi ilə tanış olduq, müəllimlərlə, tələbələrlə söhbətləşdik. İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov bildirdi ki, təhsil ocağının əsas məqsədlərindən biri bu sahədə olan kadr ehtiyacını ödəmək, Azərbaycan üçün din xadimləri, eyni zamanda, dinşünas mütəxəssislər yetişdirməkdir. Rektorun məlumatına əsasən, indiyə qədər Azərbaycandan təxminən 3 min nəfər xaricdə dini təhsil alıb. Onlardan bir hissəsi Azərbaycana dönüb müxtəlif sahələrdə çalışsalar da, ümumi araşdırmalar göstərir ki, bir qismi o ölkələrdəki zərərli dini-ideoloji təsirlərə məruz qalıb, yaxud həmin dövlətlərdəki dini adət-ənənələri Azərbaycana qayıtdıqdan sonra tətbiq etməyə çalışıblar: "Hazırda dinlə bağlı problemlər bir çox müsəlman ölkələrində mövcuddur. Radikal, ekstremist təriqətlər var, zaman-zaman onlar da çalışıb ki, Azərbaycana gəlsinlər, amma dövlət qurumları bunun qarşısını alıb. Eyni zamanda, dinə xurafat, mövhumat elementlərinin daxil edilməsi kimi hallar da zamanla müşahidə edilib. Biz bunu xüsusilə vurğulamalıyıq ki, Azərbaycan tarixən dinlərin, mədəniyyətlərin qarşılıqlı anlaşma şəraitində birgə yaşadığı məkan olub. Bizim də məqsədimiz odur ki, məzhəblərüstü, mövhümatdan, xurafatdan uzaq tədris sistemi quraq. İstəyirik ki, yüksək dini, dünyəvi biliklərə, intellektual səviyyəyə malik, Azərbaycanı sevən, dövlətinin mövqeyində olan din xadimləri, mütəxəssislər yetişdirək. Həm də bu mütəxəssislər Azərbaycanın mədəniyyəti, tarixi, mənəviyyatı ilə bağlı insanlar olmalıdırlar".

### Məscidlərin din xadimləri ilə təmin edilməsinə böyük ehtiyac var

Ceyhun Məmmədov qeyd etdi ki, Azərbaycanda indiyə qədər iki məktəbdə ali dini təhsil tədris edilib: Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində və Bakı İslam Universitetində. Hər iki təhsil müəssisəsindən xeyli sayda mütəxəssis yetişsə də, bu sahədə ciddi kadr çatışmazlığı vardı. Nəzərə alaq ki, Azərbaycan yeni müstəqillik əldə etdikdə ölkədə 18 məscid var idisə, hazırda onların sayı 2250-dir və hamısının din xadimləri ilə təmin edilməsinə böyük ehtiyac var: "Bu gün məscidlərdə, ibadət ocaqlarında, təhsil müəssisələrində, Milli Elmlər Akademiyasında, müəyyən institutlarda dinşünas mütəxəssislərə ehtiyac var. Onu da vurğulamaq istəyirəm ki, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bu sahəyə qayğı artdı və dini təhlükəsizliyin təmin edilməsi ilə bağlı xeyli işlər görüldü. 1993-cü ilin əvvəllərində ölkəmizdə din sahəsində çox ciddi çətinliklər var idi, zərərli təriqətləri, təlimləri Azərbaycanda yaymağa çalışırdılar. Amma ulu öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan öz dini və milli təhlükəsizliyini təmin etdi. Həmçinin cənab Prezident İlham Əliyevin sərəncamı ilə yaradılan bu təhsil müəssisəsi də diqqət mərkəzindədir və dövlətin qayğısı ilə əhatə olunub".

Rektor deyir ki, İlahiyyat İnstitutunda təhsil beynəlxalq standartlara uyğun qurulub: "Biz təhsil standartlarını, tədris planlarını hazırlayarkən Avropanın, Amerikanın və digər dünya ölkələrinin təcrübələrini ciddi şəkildə araşdırmışıq. Buranı bitirən tələbələrin gələcəkdə xarici ölkələrdə təhsillərini müxtəlif istiqamətdə davam etdirmələri, xarici dil biliklərini yüksək səviyyədə inkişaf etdirmələri nəzərdə tutulur. Bizim yüksək səviyyəli dil bilən ilahiyyatçılara da ehtiyacımız var ki, onlar bizi xaricdə layiqincə təmsil etsinlər".

### Tələbələrin hər biri işlə təmin olunacaq







"Bu təhsil müəssisəsini bitirən tələbələr gələcəkdə işlə təmin olunacaqlar və bununla bağlı dövlətin müəyyən planları var"- deyən Ceyhun Məmmədov məlumat verir ki, bütün dini ibadət ocaqlarında, dini qurumlarda bilikli, savadlı mütəxəssislərə ehtiyac yaranıb: "Elə qurumlar var ki, hətta indidən bizə müraciət edərək işə götürmək üçün tələbələri səbirsizliklə gözlədiklərini deyirlər. Prezidentin göstərişi ilə institutda təhsil tam ödənişsizdir və bütün təhsil prosesi, tələbələrin ehtiyacı dövlət tərəfindən təmin olunur. Həmçinin pulsuz yemək, yataqxana, geyim kimi məsələlərin də həll olunması qarşıya hədəf kimi qoyulub".

Rektorun sözlərinə görə, indi fəaliyyət göstərdikləri bina əvvəllər BDU-nun İlahiyyat fakültəsinə aid imiş. Amma indi onlar üçün yeni bina ayrılıb və təmir işləri gedir. Hazırda institutda 103 tələbə təhsil alır və dinşünaslıq ixtisasını seçən tələbələr test yolu ilə qəbul olunurlar, islamşünaslıq ixtisasını seçənlər testdən əlavə, psixologiya üzrə komissiya tərəfindən dinə, ənənələrə olan münasibətlər və sair məsələlər barədə müsahibədən də keçirlər: "Ola bilər ki, növbəti ildə tələbə qəbulunun sayı artırılsın və bu, daha çox mütəxəssisə olan ehtiyaca görə tənzimlənəcək. Qarşıda duran əsas hədəflərdən biri, növbəti ildə dinşünas-pedaqoq ixtisasının açılmasıdır. Həmçinin istəyirik ki, beynəlxalq universitetlərlə əməkdaşlıq edək, onların təcrübələrindən yararlanaq və Azərbaycan üçün uyğun olan variantı burada da tətbiq edək. İnstitut təhsil müəssisəsi olmaqla yanaşı, qarşısına məqsəd qoyub ki, araşdırmalar aparsın, elmi-tədqiqat müəssisəsi rolunu oynasın".

### İlahiyyat İnstitutu yeni təhsilin güclü ünvanıdır

İlahiyyat üzrə fəlsəfə doktoru, institutun elm və innovasiyalar üzrə prorektoru Aqil Şirinov bizimlə söhbətində bildirir ki, bu institut böyük zərurətdən yaranıb: "Çünki din boşluq qəbul etməyən sahədir. Dünyaya, xüsusilə də Orta və Yaxın Şərqə diqqət etsək görərik ki, din sahəsi boş buraxılanda hansı fəsadlara yol açır. Bu fəsadların da səbəblərindən biri dinin doğru və obyektiv bir şəkildə insanlara çatdırılmamasıdır. Bəzən görürsünüz ki, burada məzhəbçilik, radikalizm, fanatizm amilləri rol oynayır. İslam dünyasının müxtəlif yerlərində mədrəsələrdə baxırıq ki, tamamilə məzhəbçi və dini müasir standartlarda təqdim etməyən bir sistem var. Belə bir sistemin tətbiqi çox mühümdür və İlahiyyat İnstitutu da tək bizim dinimizi deyil, digər ibrani dinləri, xristianlığı, yəhudiliyi tədris edir".

İlahiyyat elmləri üzrə fəlsəfə doktoru, İslamşünaslıq kafedrasında müdir vəzifəsini icra edən Əhməd Niyazov deyir ki, din və inanc cəmiyyətin ən böyük tələblərindən biridir və bu gün insanların dini tələbatı daha da artıb: "Buna görə də əslinə uyğun, saf əqidəni davam etdirəcək mükəmməl kadrlara ehtiyac var və yeni təhsilin güclü ünvanı İlahiyyat İnstitutu bu gözləntini təmin edəcək. Müqəddəs kitabımız Quranın sülh təklifini ictimaiyyətdə bərqərar etmək gücünə malik layiqli kadrlar yetişməsini arzu edirik".

### Azərbaycan dünyəvi dövlət olduğu üçün burada tədris də dünyəvi mahiyyətdədir

Fəlsəfə üzrə fəlsəfə doktoru, Dillər və ictimai fənlər kafedrasında müdir vəzifəsini icra edən İlkin Əlmuradov məlumat verir ki, institutda bir fakultə, üç kafedra və iki ixtisas - dinşünaslıq və islamşünaslıq var. Burada tələbələrə ingilis və ərəb dillərindən də təhsil verilir: "Biz ənənəvi üsullarla yanaşı, dövrün tələblərinə uyğun olaraq daha müasir metodlarla tələbələrə dərs deməyə səy göstəririk. Məsələn, İlahiyyat İnstitutunun hazırkı binasında bütün əksər otaqlarda proyeksiya qurğusu mövcuddur, müəllimlər dərslərini slaydlar vasitəsilə tədris edirlər. Biz dinlərə elmi nöqteyi-nəzərdən yanaşırıq. Hazırda institutda təhsil alan tələbələrin hamısı islam dininə mənsub olanlardır, qeyri-dinlərin təmsilçiləri yoxdur, amma maraqlıyıq ki, növbəti illərdə digər dinlərin mənsubları da bizim tələbə heyətimizin arasında təmsil olunsunlar".

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor Mübariz Camalov qeyd edir ki, Azərbaycan dünyəvi dövlət olduğu üçün burada tədris də dünyəvi mahiyyətdədir: "Məqsədimiz yüksək ixtisaslı kadrlar yetişdirməkdir. Dini elmi cəhətdən, elmi əsaslarla, dünya təcrübəsinə əsaslanaraq tətbiq edirik. Biz burada din fəlsəfəsi, dinin psixologiyası, sosiologiyası, müqəddəs mətnlər, hind-Çin dinləri, xristianlıq, yəhudilik, müqəddəs kitabların hermenevtikası kimi geniş səpkidə bir tədris həyata keçiririk".

### Yüzlərlə gəncin dini təhsil alma arzusu gerçəkləşdi

Dinşünaslıq fakültəsinin 1-ci kurs tələbəsi Fərid Qasımzadə uşaqlıqdan ilahiyyatçı olmaq istəyib: "Lakin indiyə qədər ilahiyyat təhsili ödənişli olduğu üçün mənim ilahiyyatçı olmaq arzum sual altında idi. Bu institutun yaradılması ilə mənim kimi yüzlərlə gəncin dini təhsil alma arzusu, istəyi gerçəkləşdi. İlahiyyatçı olmaq arzumun səbəbi isə mükəmməl dini təhsilə yiyələnməklə dövlətimə xidmət etmək istəyidir. İnstitut yeni yaranmasına baxmayaraq hər bir şəraiti var və tələbələr qayğı ilə əhatə olunub. Tələbələrin isə üzərinə düşən vəzifə odur ki, təhsili yüksək səviyyədə davam etdirərək ixtisaslı kadra çevrilsinlər".

"İxtisas seçimimdə İlahiyyat İnstitutunu ilk sıralarda göstərmişdim" - deyən institutun 1-ci kurs tələbəsi Toğrul Nadirov isə vurğulayır ki, hələ məktəb illərindən dinlərə böyük marağı olub. Təkcə islam dini deyil, digər dinlər haqqında da öyrənməyə çalışıb və istəyib ki, bununla bağlı daha geniş təcrübəsi olsun.

### İnstitutun kitabxanasında 13 min ədəbiyyat mövcuddur

İnstitutda 13 min ədəd kitabın olduğunu deyən kitabxanaçı Emin Orucov söyləyir ki, burada əsasən Azərbaycan, ərəb, rus, ingilis, türk dillərində olan kitablar var.

Kitabxanada açıq rəf sistemidir və tələbələr özləri istədikləri kitabları götürərək istifadə edirlər. Burada dini elmlərlə yanaşı, fəlsəfə, sosiologiya və digər elmlərə aid kitablar da mövcuddur.

Adı çəkilən təhsil müəssisəsində olarkən müşahidə etdiklərimiz onu deməyə əsas verir ki, həqiqətən də Azərbaycanda dünya standartlarına uyğun yeni bir təhsil ocağının əsası qoyulub və burada yüksək dini savada, intellektə malik mütəxəssislər yetişəcək.

Ümid edirik ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan İlahiyyat İnstitutu nəinki Azərbaycanda, Qafqazda, hətta dünyada sayılıb-seçilən dini təhsil müəssisəsinə çevriləcək.

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# XII Azərbaycan beynəlxalq təhsil sərgisi başa çatıb



Bakı Ekspo Mərkəzində təşkil edilən XII Azərbaycan beynəlxalq təhsil sərgisi ("Education 2018") oktyabrın 13-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, "Uşaqların gələcəyinə sərmayə" devizi altında keçirilən sərgiyə 12 ölkədən 130-dan çox iştirakçı qatılıb. Tədbirdə ayrı-ayrı ölkələri təmsil edən universitetlər haqqında ətraflı məlumat verilib, şirkətlər xaricdə təhsil proqramları, müasir texnologiyalar və sinif otaqları üçün lazım olan müxtəlif avadanlıqlar təqdim ediblər.

Təhsil Nazirliyi sərgidə geniş pavilyonda təmsil olunub. Sərgiyə gələnlərə "Məktəbəhazırlıq", "Olimpiadalara hazırlıq mərkəzi", "Peşə Təhsili üzrə Dövlət Agentliyi", "Təhsil" Respublika İdman Mərkəzi", "Uşaq-Gənclər İnkişaf Mərkəzi", "SABAH qrupları", "İçərişəhər ənənəvi incəsənət mərkəzi", "Sağlam təhsil - sağlam millət", "Maarifçi" Tələbə Kredit Fondu", "Məktəblinin dostu", "Modul tipli məktəblər", "İT STEP", "Media Mərkəz-Təhsil TV" və digər stendlər təqdim edilib.

Sərgidə ölkəmizin ali təhsil müəssisələri uğurla iştirak ediblər. Tədbirdə ADA Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Universiteti və digər ali məktəblərimiz öz stendləri ilə təmsil olunublar. "Education 2018" sərgisinin "Xaricdə təhsil" sektorunda Rusiya, Türkiyə, Gürcüstan, Latviya və digər ölkələrin təmsilçiləri öz məktəb, gimnaziya, kollec, universitet və kurslarını təqdim ediblər.

Beynəlxalq sərgi çərçivəsində işgüzar görüşlər, panel müzakirələr, media-təqdimatlar və ayrı-ayrı mövzulara dair mühazirələr təşkil olunub. Habelə "Rusiya Federasiyasında xarici vətəndaşların təhsil imkanları və üstünlükləri" və digər mövzularda seminarlar keçirilib, hər kəsə həm ixtisası, həm də təhsil müəssisəsini seçmək üçün geniş imkanlar yaradılıb.

Qeyd edək ki, sərgi Təhsil Nazirliyinin dəstəyi, "Caspian Event Organisers" ("CEO") şirkətinin təşkilatçılığı ilə reallaşdırılıb. "Kapital Bank"ın baş sponsor olduğu sərgi Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən də dəstəklənib.

# 2003 2018 Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi





## Qürur doğuran yüksəliş yolu

**Oktyabrın 15-də cənab İlham Əliyevin ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin 15 ili tamam olur. Təbii ki, bu barədə söz açarkən xalqımızın böyük oğlu, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevi xatırlamamaq olmur. Çünki Azərbaycan xalqı dövlətimizin əldə etdiyi bütün uğurlara görə ulu öndər Heydər Əliyevə minnətdardır.**

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, o, dövlət quruculuğu prosesinin ardıcıllığını təmin edəcək əsasları da formalaşdırdı. Ulu öndər cənab İlham Əliyevin şəxsində Azərbaycanın müstəqilliyinin, ölkəmizin sosial-iqtisadi, mədəni yüksəlişinin daimiliyini, dönməzliyini təmin edəcək layiqli davamçısını müəyyənləşdirdi. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında 15 ildə yüksəliş dövrünü yaşayıb, daha da güclənib, qüdrətlənib, nüfuzunu artırıb. Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini gündən-günə möhkəmləndirir, milli mənafelərimizi cəsarətlə və uğurla müdafiə edir, qloballaşmanın doğurduğu əngəlləri və maneələri qətiyyətlə dəf edir. Beləliklə, Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inamla, sürətlə irəliləyir.

Xalqımız inkişafın, sabitliyin, yüksək sosial rifahın və güclü dövlətçiliyin tərəfdarıdır. Bütün bunlara nail olmaq isə son 15 ildə Prezident İlham Əliyevin fəaliyyətinin əsas prioritetləri olub. Reallıq da ondan ibarətdir ki, 2003-cü ilin oktyabrından ötən dövr Prezident İlham Əliyevin xalqımıza verdiyi uğur hesabatıdır. Bu hesabatın hər bir səhifəsi məhz xalqımızın görmək istədiyi nailiyyətlərlə əlamətdardır. Bu dövrün ən böyük uğurlarından biri ölkənin iqtisadi yüksəlişi, respublikanın bütün bölgələrinin tarazlı inkişafının təmin edilməsidir. Bu barədə danışarkən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına toxunmamaq qeyri-mümkündür. 2004-cü ildən həyata keçirilən dövlət proqramlarının yekunlarının təhlili göstərir ki, qarşıya qoyulmuş vəzifələrin icrası nəticəsində Azərbaycan iqtisadiyyatının, xüsusən qeyri-neft sektorunun inkişafı təmin edilib, ölkəmiz regional əhəmiyyətli iqtisadi güc mərkəzinə çevrilib. İslahatların, dövlət proqramlarının real nəticəsi olaraq Azərbaycanın dörd bir yerində iqtisadiyyatın bir vaxtlar hətta əlçatmaz görünən tərəfləri inkişaf edib və bütün bunlar paralel şəkildə vətəndaşların sosial rifahının yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir göstərib. Bu dövrdə milli iqtisadiyyat 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib. Hər şeydən əvvəl, yoxsulluq həddinin 50 faizdən 5 faizə endirilməsi, başqa sözlə, təxminən 10 dəfə azaldılması, 1 milyon 900 min yeni iş yerinin yaradılması nəticəsində işsizlik səviyyəsinin təxminən 5 faizə endirilməsi kimi tarixi nailiyyətlər qeyd olunmalıdır.

Həyata keçirilən uğurlu siyasət nəticəsində modernləşmə Azərbaycanın müasir tarixinin fərqləndirici xüsusiyyətinə çevrilib. Bakı dünyanın ən gözəl şəhərlərindən biri kimi şöhrət qazanıb, bölgələrdə həyat səviyyəsi xeyli yüksəlib. Bütün şəhər və rayonlarda aparılan abadlıq və quruculuq işləri ölkənin simasını köklü surətdə dəyişib. Təbii ki, dinamik inkişafı şərtləndirən vacib amillərdən biri bütün sahələr üzrə müasir infrastrukturun olmasıdır. Əgər elektrik enerjisinin verilişi lazımi səviyyədə təmin edilməsə, yollar pis vəziyyətdə olsa, dəniz və hava limanları müasir standartlara cavab verməsə, kommunal və bank xidmətlərinin səviyyəsi yüksəlməsə, hotellər, xəstəxana və idman qurğuları olmasa hansı inkişafdan danışmaq olar?! Ötən 15 ilin yekunlarına nəzər salarkən infrastrukturun modernləşməsi istiqamətində hansı möhtəşəm layihələrin həyata keçirildiyini görmək olar?!

İlk növbədə, nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində inqilabi dəyişikliklər baş verib. Qısa müddətdə 12 min 300 kilometr avtomobil yolunun çəkilməsi, altısı beynəlxalq status daşımaqla 7 aeroportun, 443 körpünün inşa olunması bir çox dövlətlərin qibtə edəcəyi uğurlardır. Nəhayət, yeni gəmiqayırma zavodunun yaradılması müasir Azərbaycanın mühüm iqtisadi göstəricilərindən biridir. Oğuz-Qəbələ-Bakı kimi nəhəng və tarixi su kəmərinin çəkilməsi Bakı şəhərinin içməli suya olan tələbatının daha keyfiyyətli ödənilməsinə yol açdı. Bütövlükdə, ölkədə içməli su ilə təminatın 26 faizdən 67 faizə, qazlaşdırmanın səviyyəsinin 51 faizdən 95 faizə çatması son 15 ilin mühüm uğurları sırasında yer alan inkişaf nümunələridir. Hesab edirəm ki, tarix boyu təbii qazın olmadığı kəndlərə qaz çəkilməsi müasir Azərbaycanın ən mühüm inkişaf reallıqlarından biridir. Bu müddətdə ən çox diqqət yetirilən məsələlərdən biri sosial infrastrukturun yenilənməsidir. Belə ki, ötən 15 ildə ölkədə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi, 43 Olimpiya İdman Kompleksi tikilib ki, bu da ilk növbədə, təhsilin inkişafına və sağlamlığa verilən önəmin göstəriciləridir.

Bütün bu layihələrin həyata keçirilməsi milyardlarla manat deməkdir. Təbii ki, bu nəticələrin əldə edilməsində neft strategiyasının uğurla reallaşmasının böyük rolu oldu. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin inşasının başa çatdırılması ilə ölkəmizin inkişafında yeni mərhələnin əsası qoyuldu. Neftlə zəngin bir çox dövlətlərdən fərqli olaraq Azərbaycanda neft gəlirləri düşünülmüş şəkildə ilk növbədə, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına və infrastrukturun yenilənməsinə yönəldildi. Yuxarıda qeyd edilən mühüm makroiqtisadi nəticələrin əldə edilməsində neft gəlirlərinin böyük rolu oldu.

Bütün bunlar göstərir ki, bir sıra qabaqcıl dövlətlərin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini qısa zaman kəsiyində sürətlə adlamış Azərbaycan məqsədlərinə doğru inamla addımlayan, qlobal layihələri daxili imkanları hesabına gerçəkləşdirən dövlət kimi tanınmaqdadır.

Ötən 15 ilin ən mühüm uğurlarından biri Azərbaycanın bir dövlət kimi müstəqilliyini və dünya birliyində öz yerini möhkəmləndirməsi, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı inkişaf yoluna çıxarmaqla yanaşı, beynəlxalq mövqelərini də əhəmiyyətli dərəcədə gücləndirib. Ulu öndər Heydər Əliyevin bizlərə əmanət qoyduğu Azərbaycanı dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevirib. Regionun lideri olan Azərbaycan beynəlxalq əhəmiyyətli məsələlərdə də söz sahibidir. Ona görə Avropanın bir çox dövlətləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını elan ediblər. Bunun da əsas səbəblərindən biri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tamamilə müstəqil siyasət yürüdən ölkə olmasıdır.

Prezident İlham Əliyevin ən böyük nailiyyətlərindən biri də Azərbaycanı kosmik klubun üzvü etməsidir. XXI yüzillik informasiya və kommunikasiya texnologiyaları (İKT) əsridir. Bəşəriyyətin gələcək inkişafı da İKT ilə birbaşa bağlıdır. Bu gün cəmiyyət həyatının bütün sahələrinin inkişafında İKT-nin rolu inkaredilməzdir. Ona görə artıq 3-cü peykimizin orbitə buraxılması Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətindən xəbər verir. Bu gün kim orbitdə təmsil oluna bilirsə, yerdəki gələcək inkişafını da uğurla təmin edə biləcək.

Odur ki, Azərbaycan ictimaiyyəti Prezident İlham Əliyevi ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prioritetlərin varisliyini layiqincə yerinə yetirən alternativsiz lider kimi qəbul edir. Çünki cənab İlham Əliyevin dövlətə rəhbərlik fəaliyyəti yalnız və yalnız xalqımıza qazandırdığı böyük uğurlarla əlamətdardır. Öz növbəsində, bütün bunlar xalqımızı İlham Əliyevin ətrafında sıx səfərbər edən əsas amillərdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bütün bu uğurlar Heydər Əliyevin siyasətinin və ideyalarının davam etdirilməsinin və yeni dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirilməsinin nəticəsidir. Azərbaycanın 15 ildə keçdiyi böyük inkişaf yolu göstərir ki, Heydər Əliyev siyasəti, ideyaları yaşayır, müstəqil dövlətimizin yüksəlişinə xidmət edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurların miqyası o qədər böyükdür ki, hamısını sadalayıb qurtarmaq mümkün deyil. Xalqımız bu yüksəlişin davamlı olmasını, yeni və daha böyük nailiyyətlərin əldə edilməsini arzulayır. Hər kəs əminliklə inanır ki, yalnız İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz yeni qələbələrə imza ata bilər. 2008, 2013-cü illərdə və bu ilin aprelində keçirilmiş prezident seçkilərində xalqımız öz seçimini məhz bu amillər üzərində etdi. Xalqın son seçimi həm də növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamdan qaynaqlanır. Ölkə vətəndaşları Heydər Əliyev siyasi kursunu yeganə nicat və istinadgah mənbəyi seçdikləri kimi, qarşıdakı 7 ildə də məhz Azərbaycanın taleyini ulu öndərin layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevə etibar etdilər.

Ümumilikdə, ötən dövrün təhlili bu qənaətə gəlməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi Azərbaycanda ictimai zərurətə çevrilmişdir. Bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin ötən 15 ildəki fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan bu siyasət növbəti 7 ildə də uğurla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaq.

***Natiq CAVADOV,***
***"Sənayeavtomatika" İstehsalat Birliyinin baş direktoru, texnika elmləri doktoru, professor, Azərbaycan Mühəndislik Akademiyasının akademiki***

# Prezident qayğısı, dövlət dəstəyi





## Şəkinin qədim tarixi və zəngin mədəniyyəti artıq dünyada tanınır

**Ölkəmizdə mədəni irsin qorunub saxlanmasına, xalqımıza xas olan zəngin mədəniyyətin təbliğ olunmasına daim böyük diqqət göstərilir. Ölkə rəhbəri İlham Əliyevin və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu sahədə gördüyü işlərin əhəmiyyəti böyükdür.**





Dövlət başçısı İlham Əliyevin regionlara ardıcıl səfərləri sosial-iqtisadi inkişaf məsələləri ilə yanaşı, ölkəmizdə aparılan mədəniyyət siyasətinin sırf milli intibaha xidmətinin bariz nümunəsidir. Şəki şəhəri bu baxımdan aparıcı rola malik bölgələrimizdəndir.

Ölkə Prezidenti İlham Əliyevin son 15 ildə bu məkana etdiyi 6 səfər Şəki şəhəri və ətrafının mədəni yüksəlişinin təminatçısına çevrilmişdir. Bunu Şəkidə keçirilən beynəlxalq İpək yolu festivalları, bölgənin sosial-iqtisadi və mədəni rifahı üçün ölkə rəhbərinin imzaladığı sərəncamlar bir daha sübut edir.

Azərbaycanın mədəniyyət siyasətinin regional xüsusiyyətlərindən biri kimi Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" proqramına əsasən, Şəki şəhəri 2010-cu ildə "Azərbaycanın sənətkarlıq paytaxtı" elan olunmuşdur. Proqrama uyğun olaraq Şəkidə "Türkdilli xalqların qeyri-maddi mədəni irsinin konvensiyalaşdırılması, inventarlaşdırılması və proqramlaşdırılması" mövzusunda III Beynəlxalq seminar, Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzinin təşkilatçılığı ilə "Şəkinin sənət dünyası və Azərbaycan mədəniyyəti" mövzusunda "dəyirmi masa", məşhur el sənətkarı Əlfsər Şəkilinin anadan olmasının 80 illiyinə həsr olunmuş "Qədim milli nəfəs alətləri bayramı" keçirilmişdir.

2011-ci ildə Şəki yenə də ölkənin mədəni siyasət məkanına çevrilmişdir. Həmin ilin sentyabrında Rusiya Federasiyasının Tatarıstan Respublikasının Yelabuqa, Başqırdıstan Respublikasının Ufa şəhəri, 2012-ci ildə Azərbaycan Respublikasının Şəki şəhəri Türk dünyasının qeyri-maddi mədəni irs paytaxtı seçilmişdir. 2012-ci ilin iyun ayının 30-dan iyulun 4-dək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şəkidə "İpək yolu" III Beynəlxalq Musiqi Festivalı və "Şəki Xan Sarayı"nın 250 illik yubileyinə həsr olunmuş böyük bayram tədbiri keçirilmişdir. Tədbir Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin iştirakı ilə "Arşınmalçı İpək yolunda" musiqili hekayəti ilə başlamış, sonrakı günlərdə Cənubi Koreyanın, Türkiyənin, İranın, Gürcüstanın, o cümlədən ölkəmizin tanınmış musiqi kollektivlərinin çıxışları ilə davam etmişdir. Beş gün davam edən musiqi festivalına "Şəki Xan Sarayı"nın 250 illik yubiley tədbiri ilə yekun vurulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında" sərəncamına uyğun olaraq böyük dramaturqun adını daşıyan Mədəniyyət və İstirahət Parkında yenidənqurma və əsaslı təmir işləri əsasən başa çatmışdır. Şəki Şəhər İcra Hakimiyyətinin daxili imkanları hesabına aparılmış yenidənqurma işlərindən sonra ərazinin siması tamamilə dəyişmişdir. Burada şəhər sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Həmin sərəncama uyğun olaraq həmçinin dahi ədibin ev muzeyinə gedən yolda, qala divarları qarşısındakı meydanda və onun ətrafında müasir işıqlandırma sistemi qurulmuş, yeni yaşıllıq zolağı salınmışdır.

2012-ci il sentyabrın 22-də Şəkidə Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Prezident İlham Əliyevin tapşırığı əsasında inşası başa çatdırılan "Yay teatrı"nın açılışı olmuşdur. Elə həmin gün şəhərdə görkəmli maarifçi M.F.Axundzadənin yubileyinə həsr olunmuş bayram tədbirində respublikanın tanınmış elm və mədəniyyət xadimlərinin, millət vəkillərinin, ziyalıların, xarici ölkələrdən dəvət olunmuş qonaqların iştirak etdikləri mərasimdə bildirilmişdir ki, 2012-ci il TÜRKSOY tərəfindən həm də "M.F.Axundzadə" ili elan olunmuşdur. Bu baxımdan Axundzadənin yubiley tədbirlərində TÜRKSOY-a üzv ölkələrdən, o cümlədən Türkiyə, Qazaxıstan və Rusiya Federasiyasından, Başqırdıstan Respublikasından dəvət olunmuş qonaqlar iştirak etmişdir. Yubiley tədbirləri böyük maarifçinin ev muzeyinin açılışı ilə başlanmış, daha sonra onun adını daşıyan mədəniyyət və istirahət parkında təşkil olunmuş "Kitab bayramı" ilə davam etdirilmişdir. Həmin gün bilavasitə Prezident İlham Əliyevin tapşırığı əsasında inşa olunmuş 600 yerlik "Yay Teatrı"nın açılışı olmuş, burada Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Mirzə Fətəli Axundzadə - 200" mövzusunda beynəlxalq elmi simpozium keçirilmişdir.

Sentyabrın 23-də isə ilk dəfə olaraq Şəkinin 2700 illik yubileyinə həsr olunmuş "Şəhər günü" bayram tədbiri keçirilmişdir. Şəhərin mərkəzi meydanlarından birində bayramın təntənəli açılışından sonra tədbir Şəki Xan Sarayının həyətində davam etdirilmişdir. "Şəhər günü" çərçivəsində Şəki şəhər Bələdiyyəsi ilə Türkiyənin Konya şəhər Məram Bələdiyyəsi arasında qardaş şəhər haqqında protokol imzalanmış, "Yuxarı Karvansara" mehmanxana kompleksində rəsm və çiçək sərgisi açılmışdır. "Şəhər günü" bayram tədbirinə Türkiyənin məşhur "Anadolu atəşi" rəqs ansamblının konserti ilə yekun vurulmuşdur. Yubiley tədbirləri nəinki şəhərin, bütövlükdə ölkənin mədəni həyatında əlamətdar hadisəyə çevrilmişdir.

Şəkinin əsas mədəniyyət obyektləri arasında ulu öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədilə inşa edilmiş Heydər Əliyev Mərkəzi 2006-cı il aprelin 13-də Prezident İlham Əliyevin Şəkiyə səfəri zamanı açılmışdır. Mərkəzdə 182 eksponatdan ibarət ekspozisiya zalı, tədqiqat sektoru, arxiv, foto-video laboratoriyası, kitabxana və internet sinif otağı fəaliyyət göstərir.

Şəki Azərbaycanda turizmin yüksək səviyyədə inkişaf etdiyi bölgələrdən birinə çevrilmişdir. Şəkidə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm işlər görülmüş, müasir tipli istirahət mərkəzləri, yeni hotellər istifadəyə verilmişdir. Şəki qədimdən turistlər üçün cəlbedici məkan olmuşdur. Son on ildə isə rayonda yeni turizm obyektləri, mehmanxanalar, istirahət mərkəzləri yaradılmışdır. Dörddulduzlu "Şəki-Saray", "Şəki-Palase", "Qrin Hillin" hotellərinin açılışlarında dövlət başçısı İlham Əliyev iştirak etmişdir. "Narınqala" hoteli, "Cənnət bağı", "Kiş adası" istirahət mərkəzlərində turistlərə yüksək xidmət göstərilir. "Qala" hotelinin tikintisi və "Marxal" istirahət mərkəzinin yenidən qurulması davam etdirilir. 13 yeni mehmanxana və istirahət mərkəzi yaradılmışdır.

2013-cü il avqustun 14-də Şəkiyə səfəri çərçivəsində "Şəki xanlarının evi"nin rəsmi açılışını etmiş Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində artıq uçmaq təhlükəsi qarşısında olan ölkə əhəmiyyətli tarix-memarlıq abidəsi bərpa, restavrasiya edilərək Bəşər Mədəniyyəti İncilələri sırasına qaytarılmışdır.

2016-cı il yanvarın 19-da Prezident İlham Əliyev Şəki şəhərinin tarixi hissəsinin qorunması haqqında sərəncam imzalamışdır. Buna müfaviq olaraq Şəki Şəhər İcra Hakimiyyəti başçısının 22 yanvar 2016-cı il tarixli sərəncamına əsasən yaradılmış komissiya "Yuxarı Baş Dövlət Tarix - Memarlıq Qoruğu"nun küçə şəbəkələrini və plan konfiqurasiyasını pozan, memarlıq dəyərinə xələl gətirən tikililərin uyğunlaşdırılması, mühəndis kommunikasiya xətlərinin təmiri və ya yenidən qurulması, tarix və mədəniyyət abidələrinin bərpası və ya konservasiyası, yolların təmiri ilə bağlı təklifləri hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmişdir.

Qeyd edək ki, Memarlıq qoruğu və Şəki Xan sarayı dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir.

Ulu babalarımızın bizə yadigar qoyduqları Xan sarayı, Şəki xanlarının evi, dairəvi məbəd, qala divarları qoruğun memarlıq incilərindən hesab olunur. Möminlərin ibadət yeri olan Cümə məscidi, Ömər Əfəndi məscidi, Xan məscidindən başqa, məhəllə məscidləri də qoruq ərazisində yerləşir. Buradakı 1 və 3 saylı ipək əyirici və burucu fabrikləri də əhalinin ta qədimdən ipəkçilikdə texniki üsullardan istifadə etmələrindən xəbər verir.

O dövrdə qoruq ərazisində tikilmiş beş karvansaradan ikisi indiyə qədər qorunub saxlanılmışdır. Mehmanxana kimi istifadə edilən Yuxarı Karvansara indi də turistlərin zövqünü oxşayan yerlərdən biridir.

"Yuxarı Baş"ı iki hissəyə bölən Qurcana çayı üzərində xüsusi memarlıq üslubu ilə tikilmiş tağlı körpülər bu ərazini birləşdirir.

Orta əsr memarlığının yadigarı olan Ağvanlar, Dərə və Yeraltı hamamlar da bu ərazidə yerləşir. Xalqımızın milli sərvəti və iftixarı olan diyarşünaslıq, tətbiqi sənət, M.F.Axundzadənin, R.Əfəndiyevin, S.Rəhmanın ev muzeylərinin və dövlət rəsm qalereyasını da qoruq öz qoynuna almışdır.

Xalqımızın and yeri olan Şəhidlər xiyabanı və 1941-1945-ci il İkinci Dünya müharibəsi illərində həlak olan şəkililərin xatirəsinə ucaldılmış abidələri ziyarət etmək istəyənlər qoruq ərazisinə gəlirlər.

Xoş olan odur ki, əvvəlki illərdə olduğu kimi, bu gün də Şəkidə abadlıq və quruculuq işləri ən yüksək səviyyədə davam etdirilir. Şəhərin su-kanalizasiya sisteminin yenidən qurulması, tarixi hissələrdə abadlıq işlərinin, zərurət yaranan abidələrdə restavrasiya prosesinin reallaşdırılması və digər mühüm layihələrin icrasının yekunlaşmasından sonra Şəkiyə gələnlər buranı unutmayacaqlar. Bütün yaradılan gözəlliklərə görə isə sözsüz ki, ilk minnətdarlıq dövlətimizə və onun həmişə xalqının yanında olan rəhbərinə düşür.

Dövlət başçısı İlham Əliyev 2013-cü ilin avqustunda Şəki ictimaiyyətinin nümayəndələri ilə görüşündə səsləndirdiyi fikirlər bu qədim məkanın gələcəkdə daha böyük nailiyyətlərə imza atacağına etibarlı təminatdır: *"Şəki Azərbaycanda və deyə bilərəm ki, bölgədə və dünyada öz gözəlliyi ilə seçilən bir şəhərdir. Burada əlbəttə, təbiət və memarlıq, qədim və tarixi binalar, Şəkinin şəhərsalma qaydaları gözəl bir mənzərə, bir vəhdət yaradır. Təsadüfi deyil ki, Şəkinin mədəniyyəti ilə maraqlananların sayı getdikcə artır. Həm daxili turizm artır, həm xaricdən gələn qonaqların sayı. Azərbaycanın demək olar ki, bütün yerlərində Şəkiyə çox böyük hörmət və maraq vardır. İstərdim ki, Azərbaycanın bütün vətəndaşları vaxt tapıb Şəkiyə səfər etsinlər. İndi şərait yaxşılaşır, yollar da çəkilir və nəqliyyat vasitələri müasirləşdirilir. Ona görə də gələcəkdə daxili və xarici turizm inkişaf edəcəkdir. Biz gərək Şəkidə gələcəkdə beynəlxalq tədbirlərin sayını da artıraq".*

***Təranə ABDULLAYEVA,***
***"Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğu"nun direktoru***

2003 2018

## Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



# İlham Əliyevin 15 illik "hücumçu diplomatiyası"nın Ermənistan üçün nəticələri:

## Sosial-iqtisadi böhran, siyasi xaos və hərbi məğlubiyyət

### Azərbaycan Prezidentinin düşünülmüş, prinsipial, ardıcıl siyasəti Ermənistanın təcridini tam başa çatdırıb və onun dövlətçiliyini əsaslı şəkildə zəiflədib



*Əvvəli 1-ci səh.*

Öncə etirazların az müddət keçdikdən sonra səngiyəcəyini, repressiv metodlarla rəqiblərini sıradan çıxaracağını düşünsə də, Sarkisyan bu dəfə yanlışlığa yol verdi. Xalq bu canidən yaxasını qurtardı. Xocalı soyqırımının əsas səbəbkarı hakimiyyətdən qovuldu.

Bunun reseptini Prezident İlham Əliyev həmişə söyləyirdi. Dövlət başçısının böyük uzaqgörənliklə söylədiyi "Erməni xalqının ən böyük düşməni ona rəhbərlik edən hərbi xuntadır. Xalq onu zəlil gününə qoyan, dövləti dalana dirəyən cinayətkar rejimdən xilas olmalıdır" fikri Yerevanda artıq reallığa çevrildi.

### İlham Əliyevin diplomatik gedişləri qarşısında Sarkisyan tab gətirə bilmədi

Birmənalı həqiqətdir ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu diplomatik fəaliyyət, çevik siyasət Ermənistanı, onun sabiq baş naziri Serj Sarkisyanı, şahmat dili ilə desək, həmişə mat vəziyyətində qoyub. Prezident İlham Əliyevin siyasəti sayəsində Sarkisyan və onun hazırkı sələfi Paşinyan nə hadisələrin iştirakçısı ola bilir, nə də onlara təsir etmək imkanlarına malikdir.

İşğalçı ölkədə açıq bəyan edilirdi ki, Azərbaycanın təzyiqləri, diplomatik gedişləri qarşısında Serj Sarkisyan iqtidarı duruş gətirə bilmir və bu səbəbdən rəsmi Yerevanın məğlubiyyətlərinin sayı durmadan artır.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində erməni tərəfi getdikcə daha zəif duruma düşürdü. Elə bu səbəbdəndir ki, Ermənistanda Prezident İlham Əliyevin siyasi və diplomatik gedişlərinin rəsmi Yerevanı daha çıxılmaz vəziyyətə saldığına dair etiraflara indi daha çox rast gəlmək mümkündür.

Ermənilər həm də onu gördülər ki, Azərbaycanda vəziyyət tamam fərqlidir və bu ölkənin lideri güclü mövqe sahibi kimi Dağlıq Qarabağ danışıqlarında şərtləri diktə edən əsas tərəfdir. Bu da ermənilərdə o fikri möhkəmləndirdi ki, Prezident İlham Əliyevin yaratdığı güclü dövlət, uğurlu siyasəti Serj Sarkisyanı daha çətin vəziyyətdə qoyub. Bu durum həm də liderlərin siyasətinə qiymət vermək baxımından da çox önəmlidir. Digər tərəfdən, bir həqiqət də aydın şəkildə anlaşılır ki, Ermənistanın danışıqlar prosesində illərdir nümayiş etdirdiyi destruktiv mövqenin sonu yoxdur. Çünki bu hal müharibəni yenidən alovlandıra bilər.

Müharibənin nə ilə nəticələnəcəyini isə ermənilər, o cümlədən də Serj Sarkisyan Aprel döyüşlərində çox yaxşı gördü. Bilindi ki, Azərbaycan Prezidenti ötən illər ərzində müasir, döyüş qabiliyyəti yüksək olan ordu yarada bilib, Ermənistanda isə bunun tam əksi baş verib, bu ölkədə silahlı qüvvələr adına heç nə qalmayıb.

### Ermənistanın xilası Azərbaycanın əlindədir

Ötən dövr çox aydın şəkildə göstərir ki, Azərbaycanla normal münasibətlər yaratmadan Ermənistanın bir dövlət olaraq mövcudluğunu davam etdirməsi mümkün deyil. Bu gün müasir Azərbaycandan bəhs edərkən onu xarakterizə edən əsas cəhətlər sırasında ilk olaraq dünyanın ən sürətlə inkişaf edən, davamlı nailiyyətlərə imza atan ölkəsi olmasına xüsusi diqqət yetirilir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri kimi çıxış edir. Dinamik tərəqqisi Azərbaycanı artıq siyasi, iqtisadi cəhətdən nəinki regionda, daha böyük məkanda aparıcı ölkəyə çevirib.

Bütün bunlara paralel olaraq uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini ölkəmizə yönəldib. Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu və etibarlı dövlətə çevrilməsinin nəticəsidir ki, indi ölkəmizlə qarşılıqlı əməkdaşlığa can atanların sayı durmadan artır.

Bütün bunların əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik siyasi kurs dayanır. Elə bundan irəli gəlir ki, qarşıdakı dövr ərzində də Azərbaycanı daha böyük uğurların gözləməsinə ekspertlər tam əminliklə yanaşırlar.

Ölkəmizdə əldə edilən bu uğurlar fonunda isə işğalçı Ermənistana nəzər saldıqda tamam əks mənzərə müşahidə olunur. Bunun ümdə səbəblərindən biri isə işğal siyasətinə görə Azərbaycanın Ermənistanı təcrid vəziyyətinə salmasıdır. Məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev qeyd edib: *"Bu müsbət fonda baxın görün Ermənistanda nələr baş verir. 20 il ərzində kriminal, korrupsioner, qaniçən, oğru, yalançı hakimiyyət tam iflasa uğradı. Mənim dediklərimi indi erməni xalqı deyir. Mən bir neçə dəfə ən mötəbər kürsülərdən, BMT kürsüsündən Ermənistanın əvvəlki hakimiyyətini ittiham etmişdim. Demişdim ki, bu, kriminal xunta rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu, korrupsiyaya qurşanmış oğru rejimidir, indi bunu erməni xalqı deyir. Demişdim ki, bu rejim öz xalqının qanını içir. Bu gün biabırcasına hakimiyyətdən qovulmuş Sarkisyan rejimi, əslində, Ermənistanın dövlətçiliyinin iflasıdır. Çünki əgər müstəqilliyinin 26 ilində, onun 20 ili bu hakimiyyət altında keçmişdisə, onda bu dövlətin hansı müsbət cəhətləri var?! Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir".*

Dövlət başçısı bildirib ki, haqq-ədalət öz yerini tapıb və 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejim tam biabır olaraq siyasi səhnədən qovulub: *"Deyə bilərəm ki, bu rejimin çökməsində bizim də rolumuz olub, onu mən şişirtmək istəmirəm, bunu biz, necə deyərlər, öz adımıza çıxmaq istəmirik. Ancaq o da həqiqətdir ki, bizim apardığımız siyasət nəticəsində Ermənistan onlara gəlir gətirə biləcək bütün layihələrdən məhrum edildi. Biz onlara qarşı təcrid siyasətimizi uğurla aparmışıq və heç kimdən çəkinmədən mən bu barədə dəfələrlə Azərbaycan ictimaiyyətinə və xarici tərəfdaşlarıma demişəm. Nə qədər ki torpaqlarımız işğal altındadır, biz Ermənistana qarşı təcrid siyasətimizi aparacağıq. Bu siyasət nəticəsində Ermənistan iqtisadi iflasa uğradı. Ermənistanın iqtisadi perspektivləri, demək olar ki, yoxdur. Bu ölkəyə investisiya qoymaq istəyən çətin ki tapılsın. Bu ölkənin demoqrafik vəziyyəti acınacaqlıdır. Mən dəfələrlə demişəm ki, Ermənistandan hər il minimum 50-60 min insan köç edir. İndi bunu yeni hökumət təsdiqləyir. Yəni bu təcrid siyasətimiz öz rolunu oynadı, biz Ermənistanı bütün regional layihələrdən təcrid etdik. İqtisadi perspektivi olmayan ölkədə inkişaf da olmaz, sərmayə də qoyulmaz, insanların əhvali-ruhiyyəsi də yaxşı səviyyədə olmaz".*

Aydındır ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bundan əlavə, ölkəmiz ötən dövr ərzində yeni qlobal enerji və nəqliyyat layihələrinə start verməklə də Ermənistanın təcridini daha da dərinləşdirə bilib.

Bu fonda, Prezident İlham Əliyevin də dediyi kimi, Ermənistanı tərk edənlərin sayı sürətlə artır. İndi bu ölkədə görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, xaricə köçənlər durmadan artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Ancaq real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Ermənistanda bu sahədə araşdırma aparan yerli və beynəlxalq təşkilatlar da hesab edirlər ki, proseslərin real gedişi sözügedən ölkədə insan resursunun sürətlə tükəndiyini meydana çıxarır. Bununla yanaşı, Ermənistan iqtisadiyyatında miqyası hər gün genişlənməkdə olan tənəzzül ölkənin xaricdən asılılığını daha da artırır. Eyni zamanda, Ermənistanın xaricdən götürdüyü borcların miqdarı sürətlə artır. Bunun nəticəsində işğalçı ölkənin xaricdən maliyyə, iqtisadi, siyasi asılılığı getdikcə daha da güclənir. Belə şəraitdə Ermənistanın formal müstəqilliyini davam etdirə biləcəyi böyük sual altındadır.

Ekspertlər qeyd edir ki, hazırda Ermənistanda baş verənlər ölkənin sosial, iqtisadi və siyasi həyatında uzun müddət davam edən tənəzzülün nəticəsidir. Faktiki olaraq işğalçı ölkədə yaranmış iqtisadi böhran, siyasi ziddiyyətlər, həmçinin işsizlik, baş alıb gedən korrupsiya halları, yoxsulluq səviyyəsi bu ölkəni sürətlə çökdürür. İstər köhnə, istərsə də yeni hakimiyyətin tutduğu məntiqsiz, ədalətsiz və reallıqdan uzaq işğalçılıq siyasətinə görədir ki, ölkənin qonşu dövlətlərlə, xüsusilə Azərbaycan və Türkiyə ilə münasibətlərinin yaxşılaşdırılmasında heç bir irəliləyiş hiss olunmur.

Halbuki Ermənistanın bir dövlət kimi var olması birbaşa işğal siyasətinə son qoyulmasından asılıdır. Əks təqdirdə Ermənistanın tənəzzülü daha sürətli xarakter alacaq.

### İşğala son qoyulmasa, Ermənistanın iflası qaçılmazdır

Deyilənlərdən çox aydın görünür ki, bu gün işğalçı Ermənistanın dövlət olaraq mövcudluğunu davam etdirməsi, inkişafı onun Azərbaycanla normal münasibətlər qurmasından keçir. Düşmən bilir ki, Azərbaycan ərazilərinin işğalına son qoyulmayana qədər düşdüyü iflas bataqlığından xilas ola bilməyəcək.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev göstərilən xüsusda bildirib: *"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq norma və prinsiplər əsasında həll olunmalıdır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu həqiqətləri bütün dünyaya çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bu amillər, həm tarixi faktlar, həm beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri nəinki bizim mövqeyimizi gücləndirir, eyni zamanda münaqişənin həli üçün əsas yaradır, hüquqi baza yaradır və biz yorulmaz fəaliyyət nəticəsində buna nail olmuşuq. Əminəm ki, biz ardıcıl siyasət aparmaqla istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Buna mənim şübhəm yoxdur".*

Dövlət başçısının bildirdiyi kimi, münaqişənin yeganə həlli yolu Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtmasıdır. Ölkəmizin beynəlxalq hüquqa və tarixi ədalətə söykənən bu mövqeyi bütün dünya ictimaiyyəti tərəfindən qəbul olunur və dəstəklənir.

Ermənilərin isə buna müqavimət imkanları getdikcə daha zəif hala gəlir. Digər tərəfdən, düşmən görür ki, Azərbaycanın artan hərbi-siyasi gücü, qətiyyəti regionda mühüm keyfiyyət dəyişikliyi yaradıb, hərbi-siyasi və iqtisadi güc balansı tamamilə ölkəmizin xeyrinə dəyişib. Bu isə Qarabağ probleminin həllində şərtləri məhz Azərbaycanın diktə etməsinə şərait yaradır.

Aclıq və səfalət içərisində yaşayan Ermənistan cəmiyyəti görür ki, bu durumda Azərbaycanın torpaqlarını uzun müddət işğal altında saxlaya bilməz. Prezident İlham Əliyev məhz bu reallıqlardan çıxış edərək Ermənistanın yeni hakimiyyətinə çağırış edib.

Ermənilər görür ki, işğal faktoru üzərindən yürüdülən militarist siyasət, qonşu dövlətlərə qarşı ərazi iddialarının təşviqi və yarıtmaz idarəçilik Yerevanı regionda həyata keçirilən bütün layihələrdən kənarda qoyub. Bu isə ölkənin çöküşünü sürətləndirir, əhalinin ölkədən qaçmasına, olduqca ağır, məşəqqətli sosial şərtlər altında yaşamasına səbəb olur. Bu durumda Azərbaycanın öz təbii resurslarına, insan potensialına söykənərək yürütdüyü sabit və uzaqgörən siyasət Ermənistanı iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib.

Bu dalandan yeganə çıxış yolu isə işğala son qoyulması, dinc birgəyaşayışdır. Əks təqdirdə Azərbaycan düşməni başqa yolla ərazisindən çıxmağa vadar edəcək.

İndi Ermənistanın yeni hakimiyyəti üçün də yeganə çıxış yolu işğal siyasətinə son qoymaqdır. Yoxsa Azərbaycan Ermənistanın çöküşünü davam etdirəcək. Onsuz da Ermənistanda son hakimiyyət dəyişikliyindən sonra ölkədə hansısa ciddi dəyişikliklərin olacağına dair ümidlər yavaş-yavaş yerini bədbinliyə verir. Çünki dəyişən heç nə yoxdur,

Baş nazir vəzifəsini tutduqdan sonra Nikol Paşinyan da sadəcə quru vədlər verməklə kifayətlənir və reallıqda müsbətə doğru hansısa addımlar atmır. Halbuki Nikol Paşinyan baş nazir seçildikdən sonra gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərəcək.

*Lakin siyasi istiqaməti məlum olmayan və ümumiyyətlə dövlətçilikdə naşı olan Paşinyanın nala-mıxa vurması ölkədə hansısa yenilik vəd etmir. Əksinə, ermənilər daha aydın görürlər ki, onların rifahı, ümumiyyətlə xalq olaraq varlıqları Azərbaycanla normal münasibətlərdən keçir. Belə münasibətlər qurulmayana, işğal faktına son qoyulmayana qədər Azərbaycan Ermənistanın dövlət olaraq çöküşünü davam etdirəcək.*

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**



# 2003 2018 Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi



Ölkəmizi dünyada tanıdan, milli-mənəvi dəyərlərini, özünəməxsusluğunu əks etdirən nümunələrdən biri də xalçaçılıq sənətidir. Xalq sənətlərinin bu ən geniş yayılmış növü qədim zamanlardan məişətimizdə özünə möhkəm yer tutub, fərqli ornamentləri, naxışları ilə hərəsi bir sənət əsərinə çevrilib.



## Xalçaçılığın böyük potensialı var

*Nazirlər Kabinetinin iclasında qeyd edildi ki, gələn il 5 mindən çox vətəndaş bu sahədə işlə təmin olunacaq*

Xalçaçılıq sənətinin məmləkətimizi şöhrətləndirdiyini müxtəlif mənbələrdə qalan məlumatlar da təsdiq edir. Hələ qədim dünya tarixçiləri - Herodot, Klavdi Elian, Ksenofont və başqaları Azərbaycan xalçaçılığından yazırdılar. III-VII əsrlərdə - Sasanilər dövründə Azərbaycanda xalça sənəti daha da inkişaf etdi, ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxundu. Alban tarixçisi Musa Kalankatlı VII əsrdə bu əsrarəngiz ölkədə toxunulan ipək parçalar və rəngarəng xalçalar barədə heyranlıqla məlumat verirdi.

Orta əsrlərə aid yazılı mənbələrdə də Azərbaycan xalçalarından əsl sənət nümunələri kimi bəhs edilirdi. "Kitabi-Dədə Qorqud" dastanında, Nizaminin, Xaqaninin əsərlərində xalçalarımız təriflənirdi.

XIII-XIV əsrlərdə Azərbaycandan xarici ölkələrə ixrac edilən və olduqca məşhur olan xalçalarımızın zərifliyi, gözəlliyi məşhur Avropa rəssamlarının əsərlərində, miniatürlərdə əksini tapdı.

XIX əsrin əvvəllərində Azərbaycan xalçası dünya bazarında xüsusilə əhəmiyyətli mövqeyə malik idi. Bu, 1920-ci ilə qədər davam etdi. Sovet hakimiyyəti dövründə də Azərbaycan xalqı bu qədim sənəti qoruyub yaşatdı.

Ölkəmiz XX əsrin sonuncu onilliyində yenidən müstəqilliyinə qovuşdu. Bundan sonra xalqımızın milli-mənəvi sərvətləri əvvəlki dövrlərdə olduğu kimi, Azərbaycanın öz adı, ünvanı ilə beynəlxalq aləmdə təqdim olunmağa başlandı.

2010-cu ilin noyabrında Azərbaycan xalçaları UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salındı.

Bu gün müstəqil ölkəmizin, Azərbaycan xalqının zəngin tarixini, mədəniyyətini, milli xüsusiyyətlərini, adət-ənənələrini özündə yaşadan xalçaçılıq sənətinin inkişafına diqqət və qayğı böyükdür. Çünki xalçaçılıq milli sənət növü olmaqla yanaşı, ölkəmizə gəlir gətirən, eyni zamanda işsizliyi, xüsusilə qadınlar arasında işsizliyi aradan qaldıran sahədir.

Bu barədə oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında geniş söz açıldı.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov vurğuladı ki, dövlətimizin ən çox diqqət yetirdiyi sahələrdən biri də tariximizin və milli mədəniyyətimizin mühüm göstəricisi olan xalçaçılıqdır. Bu sahədə ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir: "Xalçaçılığın çox böyük potensialı var. Dövlət vəsait ayırıb, bütün xalça fabrikləri dövlət hesabına tikilir, bütün avadanlıqlar dövlət vəsaiti hesabına alınır. Biz bütün istehsal zəncirini ardıcıllıqla yaratmalıyıq. Dövlət başçısının xalçaçılığın inkişafı ilə bağlı imzaladığı sərəncamlar, "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" ölkəmizdə ənənəvi xalq üsulu ilə kütləvi xalça istehsalını, onun qeyri-neft sektorunun aparıcı sahəsinə çevrilməsini təmin edir".

V.Muradov milli mədəniyyətimizin inkişafında böyük rolu olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalçaçılığın yaşadılmasına dəyərli töhfələr verdiyini də vurğuladı: "Xalçaçıların problemlərinin aradan qaldırılmasında, onların fəaliyyət imkanlarının genişləndirilməsində, nailiyyətlərinin beynəlxalq miqyasda təbliğində Mehriban xanım Əliyevanın xidmətləri misilsizdir. Onun təşəbbüsü ilə Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin V sessiyasında UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin nümunələri siyahısına daxil edilib".

Prezident İlham Əliyevin 2016-cı il 5 may tarixli sərəncamı ilə yaradılan "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin 2016-2017-ci illərdə Füzuli, Ağdam, Şəmkir, Tovuz, Ağstafa, Qazax, İsmayıllı, Qəbələ, Quba və Xaçmaz rayonlarında filialları yaradılıb. V.Muradov diqqətə çatdırdı ki, ümumi sayı 900 nəfərə yaxın olan toxucularımızın əksəriyyəti gənclərdir. İndiyədək filiallarda Azərbaycan xalçalarının Bakı, Qarabağ, İrəvan, Naxçıvan, Quba, Gəncə, Şirvan, Qazax-Borçalı, Təbriz qrupları üzrə 1330 ədəd, 4401 kvadratmetr xalça toxunub, yerli və xarici bazarlarda "Azərbaycan brendi" olaraq 287 ədəd, 853 kvadratmetr xalça satılıb.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri dövlət başçısının tapşırığına uyğun olaraq Azərbaycan xalçaçılığının inkişafı ilə bağlı həyata keçirilən işlərə İqtisadiyyat Nazirliyi tərəfindən lazımi kömək göstərildiyini, dəstək verildiyini də söylədi. Bildirdi ki, bu il Prezident İlham Əliyevin sərəncamları ilə "Azərxalça"nın daha 10 filialının yaradılması üçün vəsait ayrılıb. 2018-ci ilin əvvəlindən Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsində, Naxçıvan şəhərində, Abşeron rayonunun Qobu qəsəbəsində, Qobustan, Şabran, Lənkəran, Kürdəmir, Tərtər, Goranboy rayonlarında, Biləsuvarda Cəbrayıl rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə filial binalarının tikintisinə başlanılıb. Lənkəran filialının tikintisi artıq başa çatdırılıb, burada 116 nəfər işlə təmin olunub, digər filial binalarının tikintisi isə bu ilin sonunadək başa çatdırılacaq. 20 emalatxana binasının tikintisi, infrastrukturunun yaradılması, avadanlıq və dəzgahlarla təchizatı üçün "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə Azərbaycan Respublikasının dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitdən 37 milyon 475 min 800 manat vəsait ayrılıb. Şirvan bölgəsinin tarixi xalçaçılıq ənənələrinə malik İsmayıllı rayonunda güclü kadr potensialını nəzərə alaraq dövlət başçısının imzaladığı 2018-ci il 27 avqust tarixli sərəncamla İsmayıllıda yeni xalça istehsalı emalatxanasının tikintisinə Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2 milyon 400 min manat vəsait yönəldilib. İndi tikinti-inşaat işlərinin aparılması üçün hazırlıq işlərinə başlanılıb.

Bu sahənin inkişafı üçün gələn il də mühüm işlərin həyata keçirilməsi nəzərdə tutulub. Belə ki, 2019-cu ildə Bakı şəhərinin Qaradağ rayonunda, Gəncə, Mingəçevir, Şəki şəhərlərində, Xızı, Masallı, Zaqatala, Bərdə rayonlarında, Ağcabədi rayonunda Laçın rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Taxtakörpü qəsəbəsində, Goranboy rayonunda Xocalı rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Aşağı Ağcakənd qəsəbəsində xalça istehsalı emalatxanaları yaradılacaq.

Bu sahədə fəaliyyət istiqamətlərindən biri də xalçaçılığın yerli potensiala əsaslanan xammal bazasının yaradılmasıdır. Bu məqsədlə Sumqayıt Kimya Sənaye Parkında yunəyirici-boyaq fabrikinin tikintisinə başlanılıb. Son illərin böyük miqyaslı iqtisadi layihələrindən biri hesab edilən, Türkiyə, Fransa və İtaliya istehsalı olan avadanlıqlarla təchiz ediləcək fabrikdə təmiz yun, yun iplik, təbii və kimyəvi boyaq maddələri hazırlanacaq. Fabrikin fəaliyyəti ilk növbədə "Azərxalça"nın filiallarının, özəl xalçaçılıq müəssisələrinin yun ipliyə olan tələbatı ödəməyə, idxaldan asılılığın aradan qaldırılmasına imkan verəcək. Yunəyirici-boyaq fabrikinin xammalla təmin olunması üçün Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə rayonlarında, Sabirabad Sənaye Məhəlləsində regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri yaradılır.

Gələn il Şəki şəhərində, Masallı və Hacıqabul rayonlarındakı sənaye məhəllələrində daha üç regional tədarük məntəqəsi yaradılması nəzərdə tutulub. Hökumətin iclasında bildirildi ki, Azərbaycan Respublikasının dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulmuş vəsaitdən yunəyirici-boyaq fabrikinin tikintisi və avadanlıqlarla təchizatı üçün 27 milyon 420 min manat, regional yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin yaradılması məqsədilə 6 milyon 500 min manat ayrılıb. "Azərxalça"nın istehsal etdiyi xalçaların satışa çıxarılması prosesinin intensivləşdirilməsi məqsədilə 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında Hazır Xalçaların Emal Mərkəzinin inşasına başlanılacaq.

"Azərxalça"nın respublikanın rayonlarında təşkil etdiyi xalçaçılıq üzrə tədris-hazırlıq kurslarına cəlb olunanların əksəriyyəti gənclərdir. Tədrisi uğurla başa vuran toxuculara sertifikat verilir və filiallarda daimi işlə təmin olunurlar. Bununla yanaşı, xalçaçı-rəssamlar, yun və boyaq bitkilərinin tədarükü və emalı, hazır xalçaların emalı, xalça ticarəti və xalçaçılığın inkişafı üçün vacib olan digər istiqamətlər üzrə mütəxəssislər hazırlanır.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri 2019-cu ilin sonunadək "Azərxalça"nın istehsal, tədarük və emal müəssisələrinin yaradılması ilə 5 mindən çox vətəndaşın iş yeri ilə təmin ediləcəyini vurğuladı.

Tarix boyu şöhrəti dünyanı dolaşan Azərbaycan xalçalarının təbliği də unudulmur. Belə ki, 2017-2018-ci illərdə "Azərxalça"nın istehsalı olan xalçalar Rusiya, Amerika, Almaniya kimi ölkələrdə keçirilən beynəlxalq xalça satış-sərgilərində təqdim olunub. İndi Avropa, Amerika, Yaponiya və Rusiyanın böyük xalça şirkətləri ilə danışıqlar aparılır, əməkdaşlıq haqqında müqavilələr hazırlanır. Bu müqavilələr əsasında həm hazır xalçalar satılacaq, həm də sifarişlərlə müxtəlif ölçülü xalçaların toxunmasına başlanılacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Fındıqçılıq: hələlik dünyada dördüncüyük

*Amma daha yüksək yerə iddialıyıq*

Aqrar sektorda ənənəvi sahələrin dirçəldilməsi üçün görülən işlər bu gün həm istehsalın həcmində, həm də ixracda özünü göstərir.



Bir fakta diqqət yetirək: bir sıra ənənəvi sahələrin dirçəldiləndən sonra sahə üzrə məhsul istehsalı faizlə deyil, dəfələrlə artıb. Belə sahələrdən biri fındıqçılıqdır. Bu sahənin inkişafında dövlət başçısının 16 noyabr 2016-cı ildə imzaladığı "İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamın rolu böyükdür. Həmin sənədə əsasən, təksə fındıq pöhrələrinin alınmasına dövlət büdcəsindən 700 min manat vəsait ayrılmışdır.

Prezident İlham Əliyev 2017-ci il avqustun 4-də Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair keçirilən respublika müşavirəsində fındıqçılığın inkişafının əhəmiyyətini vurğulayaraq demişdir: "Qarşıya məqsəd qoyulub ki, biz fındıq bağlarının sahəsini 80 min hektara çatdıraq. Bu, aparılmış təhlil əsasında formalaşmış real rəqəmdir. Əgər biz 1-2 il ərzində 32 min hektardan 55 min hektara qalxa bilmişiksə, ona görə 80 min hektarda bağların salınması tam real rəqəmdir. Biz növbəti bir neçə il ərzində buna çatmalıyıq... Hazırda fındıqçılıqla 9 min nəfər məşğuldur, yeni bağlar salınandan sonra təqribən 20 min nəfərə çatacaq. Bizim tövsiyəmizlə Fındıq İstehsalçıları və İxaracatçıları Assosiasiyası yaradıldı ki, bu işlər mərkəzləşdirilmiş qaydada aparılsın, fermerlərə kömək göstərilsin, onların məhsulu mərkəzləşdirilmiş şəkildə alınsın və ixrac edilsin".

Göründüyü kimi, yüksək səviyyədə aqrar sektora göstərilən qayğı, verilən dəstək nəticəsində fındıqçılıq yenidən sürətlə inkişaf etməyə başlayıb. Dövlət tərəfindən fındıq pöhrələrinin fermerlərə pulsuz verilməsi bu sahəyə marağı daha da artırıb. Üstəlik, fındıq istehsalçılarına indiyədək 10 milyon manatdan çox güzəştli kredit verilib. Bütün bunlar isə nəticəsiz qalmır. Bugünədək ölkəmizdə 50 min hektardan çox fındıq bağı salınıb, özü də qısa müddətdə. Belə ki, yeni bağların salınmasına 2016-cı ildən start verilib və bu proses indi də davam edir.

Fındıqçılığın inkişafında Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının da xüsusi rolu var. Bu assosiasiya 2017-ci ilin ilk üç ayı ərzində 62 min fındıq ağacı yetişdirərək fermerlərə pulsuz paylamışdır. Bu proses indi də dayanmayıb.

Dünyada fındıq ixracı üzrə Türkiyə liderdir. Amma ölkəmizin də bu sahədə imkanı genişdir. Təsadüfi deyil ki, hazırda Azərbaycan dünyada dördüncü fındıq ixracatçısıdır. Əgər bu sahədə ölkəmiz qarşıya qoyulan hədəflərə çatsa, bu sırada yerimizi yüksəldə bilərik. Bir daha qeyd edək ki, ölkəmizin potensialı bu sahədə genişdir və üstəgəl dövlət fermerlərə fındıqçılığı inkişaf etdirmək üçün hər cür dəstək verir.

Zaqatala və Qax şimal-qərb bölgəsində fındıq istehsalında öndə gedən rayonlardandır. Fındıqçılığın təbliği ilə bağlı I Beynəlxalq fındıq, qoz və şabalıd festivalının Zaqatalada keçirilməsi də bununla bağlıdır. Xatırladaq ki, 1929-cu ildə keçmiş SSRİ məkanında yeganə fındıq zavodu Zaqatalada fəaliyyət göstərmişdir. Həmin müəssisədə istehsal olunan məhsullar SSRİ-nin bütün ərazisi ilə yanaşı, Avropa ölkələrinə də ixrac edilirdi. Rayonda fındıqçılığı inkişaf etdirmək məqsədilə 1932-ci ildə fındıqçılıq sovxozu da yaradılmışdı.

Prezidentin fındıqçılığın inkişafı ilə bağlı sərəncamından sonra Zaqatalada məhsul istehsalı sürətlə artmağa başlayıb. Son 3 ildə fındıq bağlarının ümumi sahəsi 9 min 575 hektardan 18 min 503 hektara çatdırılıb. 2016-cı ildə Zaqatalanın emal müəssisələri tərəfindən 90 milyon, 2017-ci ildə 124,4 milyon manatlıq fındıq ixrac olunub. Keçən il rayonda 13 min 420 ton fındıq istehsal edilib. Cari ildə isə bu rəqəm 15 min tondan çoxdur. Qeyd edək ki, burada fındığın 100-dən çox sortu mövcuddur və onların hər birinin özünəməxsus üstünlükləri var.

Fındıq istehsalı Qaxda da artır. Son məlumata görə, cari il rayon üzrə 4 min 785 ton məhsul tədarük olunub ki, bu da ötən ildəkindən 641 ton çoxdur. Prezidentin kənd təsərrüfatının ənənəvi sahələrindən olan fındıqçılığın inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırığa əsasən, Qaxda da əkin sahələri genişləndirilir. Təkcə bu il yaz əkini dövründə rayon üzrə 160 hektar sahədə yeni fındıq bağları salınıb. Ümumiyyətlə, son 3 ildə rayon ərazisində 2 min 660 hektar sahədə yeni fındıq bağları salınaraq mövcud bağların ümumi sahəsi 9 min 478 hektara çatdırılıb.

Məlumdur ki, dövlət tərəfindən son illər aqrar sektorda istehsal olunan məhsulların ixrac təşviqinin həyata keçirilməsi istiqamətində bir sıra işlər görülür. Belə tədbirlər fındıq ixracının stimullaşdırılması üçün həyata keçirilir. Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası AzPROMO ilə əməkdaşlıq edərək yeni dəstək mexanizmləri, xüsusilə ixrac təşviqi və "Made in Azerbaijan" brendinin tanıdılması istiqamətində mühüm tədbirlər reallaşdırır. Bunun sayəsində artıq bir çox ölkələrdə Azərbaycana məxsus "Ata-baba" fındıq sortu özünə müştərilər tapıb.

İndi kənd təsərrüfatı məhsullarının ixracında fındıq pomidor satışından sonra ikinci yerdədir. Pomidor ixracından əldə olunan gəlir artsa da, fındıq istehsalı da, qeyd edildiyi kimi, ölkəmizə ən çox valyuta gətirən sahə olaraq qalır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Gəncə Avtomobil Zavodu inkişaf dövrünü yaşayır. Burada ağırtonnajlı avtomobillər istehsal ediləcəyini, ölkənin aqrar sektorunu kənd təsərrüfatı texnikaları ilə yüksək səviyyədə təmin edəcəyini söyləyəndə çoxları təəccübünü gizlətmədi.





## Gəncə Avtomobil Zavodunun Türkiyədə filialı açılacaq

Lakin illər ötdükcə qarşıya qoyulan məqsədə nail olundu. İndi bu zavodun "Gəncə" adı ilə istehsal etdiyi texnikalara digər respublikalarda da rast gəlmək olar. Əsası ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulan Gəncə Avtomobil Zavodunun istehsal etdiyi texnikalara bu gün nəinki ölkə daxilində, onun hüdudlarından kənarda da böyük maraq göstərirlər.

Müəssisə əsas fəaliyyətə 2006-cı ilin oktyabrında Prezident İlham Əliyevin Belarus Respublikasına səfərindən sonra başladı. İki dövlət arasında iqtisadi əlaqələrin yaradılması, o cümlədən Minsk traktor və avtomobil zavodları ilə Gəncə Avtomobil Zavodu arasında əməkdaşlığın qurulması barədə memorandum imzalanması müəssisənin fəaliyyəti üçün geniş imkanlar açdı. Əvvəlcə ümumi ərazisi 20 min kvadratmetr olan sex yaradıldı. Yeni texnoloji yığım xətləri, müasir avadanlıqlar quraşdırıldı və bir neçə aydan sonra zavodun konveyerindən kənd təsərrüfatı üçün müxtəlif markalı traktorlar çıxmağa başladı. Kənd təsərrüfatında vacib texnika hesab edilən bu traktorların istehsalı sovetlər birliyi dağıldıqdan sonra yaranmış çətinlikləri xeyli aradan qaldırdı. Nəticədə respublikamızda aqrar sektorun inkişafı istiqamətində həyata keçirilən islahatlar bir qədər də sürətləndi. Konveyerdən çıxan hər bir traktorun yüksək keyfiyyətinə təminat verən Gəncə istehsalçıları bundan sonra daha bir yeniliyə imza atdılar. Belarusun "Dorelektromaş" və "Smorqon" aqreqat zavodu ilə razılaşmaya əsasən "Belarus" traktorlarının bazasında kənd təsərrüfatı işlərində lazım olan asma avadanlıqlarının istehsalına başlanıldı. Nəticədə ölkəmizdə kənd təsərrüfatı texnikası və avadanlıqlarına olan tələbat təmin edildi.

Cəncə Avtomobil Zavodunun direktoru Kamran Nəzərov dedi ki, müəssisədə istehsal prosesləri tamamilə mənimsənilib. Sexlərdə ən müasir yığım aqreqatları quraşdırılıb. İşçilərin peşə hazırlığı lazımi səviyyədə olduğundan hər hansı texnikanın yığımında çətinlik olmur.

Son illər ölkəmizdə aqrar sektorun sürətli inkişafı bu sahədə lazım olan texnikalara da tələbatı artırıb. Xüsusilə iqtisadi cəhətdən gəlirli olan pambıqçılığın inkişaf etdirilməsi üçün dövlət vəsaiti hesabına güclü maddi-texniki baza yaradılır. Ən vacibi isə uzun illər səmərəsiz qalaraq sıradan çıxmış texnika və avadanlıqların yenilənməsi istiqamətində işlərin həyata keçirilməsidir. Bununla bağlı Belarus həmkarları ilə aparılan danışıqlar sayəsində pambıqçılıqda çox vacib olan üçtəkərli traktorların yığımına başlanılmışdır. Yerli iqlim şəraitinə uyğun olaraq həmin traktorlara bir neçə əlavə də edilmişdir. Sınaq zamanı məlum olmuşdu ki, üçtəkərli traktorlar tarlada işləyərkən qabaq hissəsi qalxır və pambıq kollarını sıradan çıxarır. Bunu aradan qaldırmaq üçün zavodda istehsal edilən traktorların qabaq təkərinin üstünə əlavə önlük və yük qoymaqdan ötrü aqreqat quraşdırıldı. İndi pambıq sahələrində işləyən "MTZ-80X", "MTZ-1221" və "MTZ-1025" markalı traktorlar fermerləri olduqca razı salır.

Bundan başqa, mini pambıqyığan kombaynların istehsalı da mənimsənilmişdir. Bu məqsədlə zavod mütəxəssislərindən bir qrupu Belarusa ezam edilərək, yeni texnologiyaların mənimsənilməsi istiqamətində fikir mübadiləsi aparmışlar. Nəticə sevindirici olmuşdur. "Belarus" traktorlarının bazasında mini pambıqyığan kombayn istehsal edilmiş və ilk nümunələri uğurla sınaqdan keçirilmişdir. Həmin mini kombaynlar iqtisadi cəhətdən də fermerlər üçün çox səmərəlidir. Belə ki, pambıqyığan aqreqat "Belarus" traktorunun arxa hissəsinə qoşulur. Məhsul yığımı başa çatdıqdan sonra aqreqat açılaraq növbəti ilin məhsul yığımına saxlanılır. Traktordan isə kənd təsərrüfatının digər sahələrində istifadə edilir.

Pambıq yığımında işlədilən lafetlərin istehsalı da artıq Gəncə zavodunda həyata keçirilir. Halbuki əvvəllər Türkiyədən alınan bu lafetlər baha başa gəlirdi. Respublika Kənd Təsərrüfatı Nazirliyi ilə aparılan danışıqlar nəticəsində zavod 700 ədəd belə lafetlərin sifarişini aldı. Artıq 400 lafet "Azərlizinq" Açıq Səhmdar Cəmiyyətinə təhvil verilmişdir.

Yeri gəlmişkən, cari ilin 9 ayı ərzində müəssisədə 1200 müxtəlif təyinatlı traktor, 349 traktor qoşqusu, 100 "URAL", 58 "KamAZ", 9 məişət tullantılarını daşıyan avtomobil istehsal edilmişdir.

Müəssisədə bağçılıqda istifadə edilən mini traktorların da istehsalına başlanılmışdır. 95 at gücündə olan bu traktorlar bağlarda aparılan bütün aqrotexniki işləri görməyə qadirdir. Hələlik sifarişlə 20 belə traktor istehsal edilmişdir.

Bu il müəssisədə daha bir yeniliyə imza atılmışdır. Burada 130 at gücündə olan "Belarus-1221" və 105 at gücündə olan "Belarus-1225" markalı traktorlar istehsal edilirdi. Aparılan sorğular nəticəsində məlum olmuşdur ki, at gücü bir qədər zəif olan traktorlara da ehtiyac var. Müəssisə belarus həmkarları ilə danışıqlar apararaq 90 at güçündə olan yeni "Belarus-892" markalı traktorların istehsalını mənimsəmişdir.

Hazırda Gəncə Avtomobil Zavodunda 530 nəfərədək işçi çalışır. Orta əməkhaqqı 500 manatdan çoxdur. Bu yaxınlarda zavodda işçiləri pulsuz yeməklə təmin etmək üçün yeməkxana binası da istifadəyə verilmişdir. Hər il onların istirahəti üçün müxtəlif tədbirlər də həyata keçirilir. Məsələn, cari ildə 90 nəfər işçi zavodun hesabına ailəsi ilə birlikdə respublikamızın müxtəlif istirahət mərkəzlərində dincəlmişdir.

Həyata keçirilən tədbirlər Gəncə Avtomobil Zavodunun şöhrətini daha da artırır. Hazırda zavodun Gürcüstanda və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Türkiyədə Gəncə Avtomobil Zavodunda istehsal edilən traktorlar razılıqla qarşılanır. Elə Türkiyədə təşkil edilmiş kənd təsərrüfatı texnikalarının sərgisində Gəncə Avtomobil Zavodunun istehsal etdiyi traktorlara böyük maraq göstərilmiş və onun Türkiyədə "Azəri-Türk" adı ilə istehsalı üçün razılığa gəlinmişdir. Hazırda Türkiyənin paytaxtı Ankara yaxınlığında traktorların yığımı üçün başlanan müəssisənin tikintisi sürətlə davam etdirilir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Rusiyanın "Vestnik Kavkaza" agentliyinin saytında Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənovun məqaləsi dərc olunub




Rusiyanın "Vestnik Kavkaza" analitik informasiya agentliyinin saytında Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun Prezident İlham Əliyevin dövlət başçısı vəzifəsində 15 illik fəaliyyətinə həsr edilmiş "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, oktyabrın 15-də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 illiyi tamam olur. Əli Həsənovun bu münasibətlə yazdığı məqalədə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətindən söhbət açaraq oxucuların diqqətinə çatdırır ki, dövlət başçısının 15 illik prezidentliyi dövründə daxili ictimai-siyasi sabitlik daha da möhkəmlənib, əhalinin təhlükəsizliyi, insanların əsas hüquq və azadlıqları, ölkənin əmin-amanlığı təmin edilib, vətəndaşların rifah halı getdikcə yüksəlib.

Müəllif vurğulayır ki, Azərbaycan son 15 ildə əsas daxili inkişaf parametrləri üzrə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirib. Ölkədə vətəndaş cəmiyyəti təsisatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına böyük əhəmiyyət verilir, planlı sosialist iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilir. Qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilib, ölkə ərazisində çoxsaylı sənaye parkı və məhəlləri, texnoparklar yaradılıb.

Əli Həsənov qeyd edir ki, aqrar sektorda həyata keçirilən islahatlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, "Şərq-Qərb" və "Şimal-Cənub" Beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı olub. Həmçinin Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulduğunu diqqətə çatdıran Əli Həsənov xatırladır ki, 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılıb, 2013-cü ildə Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə ikinci - Yer səthini müşahidə edən "Azersky" peyki, bu ilin sentyabrında isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılıb.

Məqalədə qeyd edilir ki, son 15 ildə ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənib, Prezident İlham Əliyevin təşəbbüsü ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş ciddi tədbirlər görülüb, ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi islahatlar aparılıb, şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik avtomobili verilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görüldüyünü bildirən Əli Həsənov qeyd edir ki, dövlət başçısının milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınıb, beynəlxalq nüfuzu getdikcə yüksəlib. Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, Qoşulmama Hərəkatına üzv qəbul edilib. Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin, dini etiqad azadlığının, konfessional və etnik müxtəlifliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılmasını və inkişafını təmin edib. Ölkədə bədən tərbiyəsi və idman sahəsində böyük uğurlar qazanılıb.

Əli Həsənov məqaləsinin sonunda yazır: "Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaqdır".

# Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" məqaləsi xarici KİV-də geniş maraq doğurub









Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" sərlövhəli məqaləsi xarici KİV-də geniş maraq doğurub.

AZƏRTAC xəbər verir ki, "Rossiya-Onlayn" internet saytı və "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin "Rossiya dlya vsex" şəbəkə nəşri, İordaniyanın tanınmış "orobanews" nəşri, Misirin nüfuzlu "Asiya-alYoum" qəzeti Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın son 15 ildə bütün sahələrdə qazandığı möhtəşəm uğurlar haqqında Əli Həsənovun məqaləsinə yer veriblər.

Əli Həsənovun məqaləsində deyilir ki, İlham Əliyev prezidentliyinin 15 ili ərzində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş vətəndaş həmrəyliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmləndirib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin edib, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olub. "Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır", - deyə müəllif qeyd edir.

Məqalədə vurğulanır ki, daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirib.

Müəllif yazır: "Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınıb, onun beynəlxalq nüfuzu getdikcə yüksəlib. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilib. 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurub və müvafiq sənədlər imzalayıb".

Məqalədə Azərbaycanın iqtisadi sahədə uğurlarından ətraflı bəhs edilir və vurğulanır ki, 15 il ərzində ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə artıb. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib.

Xarici KİV Əli Həsənovun məqaləsinə istinadən vurğulayırlar ki, son 15 ildə Azərbaycanda demokratik təsisatların möhkəmlənməsi, siyasi plüralizmin təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilib. Ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən seçkilərdə fəal iştirak edən siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il büdcədən vəsaitlər ayrılır. Bu isə Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir.

Azərbaycan Prezidenti köməkçisinin məqaləsində xüsusi qeyd edilir ki, dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənib, ona ən güclü dayaq olub.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Birinci Moskva Dövlət Tibb Universitetini yubiley münasibətilə təbrik edib





Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (MDTD) professor-müəllim heyətini, tələbələrini və məzunlarını bu ali məktəbin 260 illik yubileyi münasibətilə təbrik edib. AZƏRTAC xəbər verir ki, universitetin rektoru Pyotr Qlıboçkoya təbrik məktubunu Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Moskvada keçirilən yubiley gecəsində təqdim edib.

Məktubda deyilir ki, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti özünün "Bərabərlər arasında birinci!" devizini tamamilə doğruldur. Nadir akademizm və novatorluq, yaradıcı axtarış və məsuliyyət atmosferi Seçenov Universitetinin çox böyük elmi, mədəni və mənəvi mərkəzə çevrilməsinə imkan verib. Universitetin professorları və müəllimləri həmişə öz yüksək erudisiyası, ziyalılığı və ən başlıcası, öz humanist peşəsinə sevgisi və sədaqəti ilə fərqləniblər. Birinci Tibb Universitetinin nüfuzu və şöhrəti Rusiyanın sərhədlərini çoxdan aşıb. Axı həqiqi elm mahiyyət etibarilə beynəlmiləldir, onun inkişafı beynəlxalq elmi-təhsil əməkdaşlığından ayrılmazdır.

Azərbaycanın Birinci vitse-prezidenti öz məktubunda Seçenov Universitetinin beynəlxalq əlaqələrinin geniş coğrafiyaya malik olmasını qeyd edir. MDTU-nun Bakıda açılmış filialı özünün təhsil, müalicə və elmi fəaliyyətini uğurla həyata keçirir. Bu, Azərbaycan ilə Rusiyanın dostluq münasibətlərinə daha bir parlaq sübutdur. Təbrik məktubunda vurğulanır: "Ölkələrimiz elmi və humanitar əməkdaşlığı, vahid təhsil və mədəni məkanı qoruyub saxlayıb və möhkəmləndiriblər. İki əsrdən artıq fəaliyyəti dövründə Seçenov Universiteti böyük yol keçib, adlı-sanlı həkimlərin, alimlərin və maarifçilərin gözəl nəslini yetişdirib. Seçenov Universiteti insanların həyatının və sağlamlığının qorunub saxlanması naminə humanizm və şəfqət ideallarına əsaslanan nəcib missiyasını davam etdirir. Birinci MDTU təkcə Rusiya üçün deyil, həm də bir sıra başqa ölkələr üçün tibbi kadrlar hazırlanan iri mərkəzdir. Siz Seçenov Universitetinin ən yaxşı ənənələrini, tədrisin və həkim sənətinin ən yüksək standartlarını qoruyub saxlayırsınız. Bu gün sizin məzunlar dünyanın bir çox guşələrində elmi araşdırmalar aparır, insanlara sağlamlıq və həyat sevincini qaytarırlar. Seçenov adına Tibb Universitetinin yubileyi təkcə Rusiya üçün deyil, bütün dünyanın tibbi və elmi ictimaiyyəti üçün və əlbəttə, şəxsi bioqrafiyası Seçenov Universiteti ilə bağlı olan hər kəs üçün parlaq, mühüm hadisədir. Mən bu nüfuzlu universitetin məzunu olduğuma görə qürur duyuram və aldığım biliklərə, dəyərli şəfqət və xeyirxahlıq məktəbinə görə öz müəllimlərimə təşəkkür edirəm".

Birinci vitse-prezident Seçenov Universitetinin müəllimlərini və tələbələrini bu əlamətdar tarix münasibətilə təbrik edib, Birinci MDTU-nun həmişə belə yüksək nüfuz və hörmət sahibi, yeni ideyalar üçün açıq, xeyirxah və nurlu məkan kimi qalmasını arzu edib.

Birinci MDTU-nun rektoru Pyotr Qlıboçko təbrik üçün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirib. Rektor deyib: "Bizim üçün çox xoşdur ki, Azərbaycanın Birinci vitse-prezidenti, universitetimizin fəxri professoru Mehriban Əliyeva bizim universiteti bitirib. Mehriban Əliyevanın sayəsində Azərbaycanda bizim filialımız işləyir. Bu gün Bakı filialında 500 nəfər təhsil alır. Bizim universitet öz məzunları ilə həmişə fəxr edir".

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti (Birinci MDTU) 260 illik yubileyini qeyd edir. İ.M.Seçenov adına Birinci MDTU-nun sələfi 1755-ci ildə açılmış Moskva İmperator Universitetinin tibb fakültəsi olub. 1917-1930-cu illərdə tibb fakültəsi Moskva Dövlət Universitetinin (MDU) tərkibində olub. 1930-cu ildə bu fakültə MDU-dan ayrılıb və Birinci Moskva Tibb İnstitutuna çevrilib. 1955-ci ildə instituta İ.M.Seçenovun adı verilib, 2010-cu ildən isə həmin institut Birinci Moskva Dövlət Tibb Universiteti kimi fəaliyyət göstərir.

Nikolay Piroqov, Anton Çexov, İvan Seçenov, Leo Bokeriya və başqaları bu ali məktəbin məzunları olublar.

Birinci MDTU-nun yeganə filialı 2015-ci ildə Bakıda açılıb. Filialda təhsil Seçenov Universitetinin tədris planları və proqramları əsasında həyata keçirilir, məşğələlər rus dilində aparılır. Filialın məzunlarına Birinci MDTU-nun diplomu verilir.

# *Seçenov Universitetinin rektoru:* "Mehriban Əliyeva bizim Bakıdakı filialımızı daim dəstəkləyir"

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko AZƏRTAC-a müsahibəsində deyib: "Biz Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin ünvanına göndərdiyi təbriklərə görə çox təşəkkür edirik. Mehriban Əliyeva bizim Bakıdakı filialımızı daim dəstəkləyir".

P.Qlıboçko qeyd edib ki, üç il bundan əvvəl Bakıda bu universitetin filialı açılıb. O vurğulayıb: "Hesab edirəm ki, bu, çox səmərəli layihədir. Bu gün Bakı filialında 500 tələbə təhsil alır. Tələbələr Bakıya məmnuniyyətlə gedən rusiyalı müəllimlərlə fərdi proqramlar üzrə məşğul olurlar. Filialda hazırlığın səviyyəsi və keyfiyyəti kifayət qədər yüksəkdir. Bu göstəricilər hələ universitetin filialına qəbul mərhələsində yüksək olur və sonradan tələbələr yaxşı bilik əldə edirlər. Bundan əlavə, bizim sınaqdan keçirdiyimiz bir təcrübə var: Bakıdan olan ən yaxşı tələbələrimiz Moskvanın və xarici ölkələrin klinikalarında təcrübə keçirlər. Gələcəkdə filialın genişləndirilməsi məsələsini ölkə rəhbərliyi ilə müzakirə edəcəyik. Biz artıq Mehriban xanım Əliyeva ilə görüşmüşük, klinik bazalar məsələsini müzakirə etmişik. Ona görə ki, tələbələr xəstələrlə görüşməli, onların müalicəsində iştirak etməlidirlər. Klinik praktika hər bir tələbə üçün çox vacibdir".



# *Hikmət HACIYEV:* "Ermənistan hər vəchlə Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında təmasların yaradılmasına mane olur"



"Ermənistan hər bir vəchlə Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında təmasların yaradılmasına mane olur".

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə müsahibəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan rəhbərliyi tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini təhrif edən müxtəlif açıqlamalar verilir, iddialar irəli sürülür. Bunlar reallıqdan tamamilə kənardır, cəfəngiyyatdır. Xüsusilə Ermənistan rəhbərliyi tərəfindən münaqişəyə insan hüquqları donu geyindirilməsi cəhdləri və yaxud Azərbaycanın guya Dağlıq Qarabağda əhali olmadan, yalnız əraziləri istəməsi barədə fikirlər də tamamilə qəbuledilməzidir və reallıqdan kənardır. Əslində, Azərbaycanın əraziləri Ermənistan tərəfindən işğal edilib və Azərbaycana qarşı hərbi təcavüz əməlləri həyata keçirilib. Ermənistanın Azərbaycana qarşı təcavüz siyasətinin tərkib hissəsi olaraq çoxsaylı müharibə cinayətləri, insanlıq əleyhinə cinayət əməlləri törədilib ki, bunlar da beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Prezident Administrasiyasının rəsmisi bildirib ki, bu gün Ermənistan tərəfi hətta Dağlıq Qarabağın azərbaycanlı icmasının olması faktını inkar edir və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında təmasların yaradılmasına imkan vermir. Ermənistan tərəfinə xatırlatmaq istərdik ki, insan hüquqlarına dair bütün beynəlxalq sənədlərdə açıq və birmənalı şəkildə təsbit olunub ki, insanların hüquqlarının pozulması ilə digər hər hansı hüquqların həyata keçirilməsi tamamilə qəbuledilməzdir və bu, düzgün yanaşma deyil. İnsan hüquqlarının müdafiəsi haqqında bütün sənədlərdə təsbit olunub ki, bu hüquqlar universal xarakter daşıyır və bərabərhüquqlu şəkildə təmin olunmalıdır. Açıq şəkildə görünür ki, Ermənistanın bu cür iddiaları təcavüz faktını gizlətməkdən başqa bir şey deyil. Yerevan obyektiv reallıqdan fikri yayındırmaq, beynəlxalq ictimaiyyəti aldatmaq kimi addımlara əl atır. Ermənistan hakimiyyəti xüsusilə Frankofoniya adlı sammitin keçirildiyi əsnada beynəlxalq ictimaiyyəti çaşdırmaq istəyir.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, bunlar əbəs yerə atılan addımlardır. Dünya ictimaiyyəti Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Ölkəmizin bu istiqamətdə mövqeyi daim möhkəmlənir. Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş sənədlər bunu sübut edir. Ermənistan tərəfi destruktiv əməllərinə son qoymalı, münaqişənin həlli istiqamətində konstruktiv addımlar atmalıdır. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə münaqişənin həllində real imkanlar yarana bilər. Nəticə etibarilə, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində, ərazi bütövlüyü və suverenliyi çərçivəsində Dağlıq Qarabağın erməni, azərbaycanlı icmaları əvvəlki dövrdə olduğu kimi, sülh və əmin-amanlıq içərisində yaşamağa davam edə bilərlər.

Hikmət Hacıyev əlavə edib ki, Azərbaycan Respublikasının zəngin multikultural ənənələri var. Ölkəmizdə müxtəlif millətlərin və dinlərin nümayəndələri əsrlərboyu sülh içərisində yaşayırlar. Azərbaycan bu kimi dəyərləri milli və beynəlxalq səviyyədə təşviq edir. Ermənistan isə monoetnik dövlətdir. Ermənistan dövlətinin milli səviyyədə yürütdüyü siyasət nəinki Azərbaycanın işğal olunmuş ərazilərində, Ermənistanın özündə də müxtəlif etnik icmalara, o cümlədən köklü azərbaycanlılara qarşı törətdiyi cinayət beynəlxalq ictimaiyyətə çox gözəl məlumdur. Ona görə də Ermənistanın hazırkı hakimiyyəti reallığı düzgün qiymətləndirməli, əvvəlki rejimin səhvlərini təkrarlamamalı və münaqişənin həllində konstruktiv addımlar ataraq regionda davamlı sülhün bərpa olunması üçün səylər göstərməlidir.

# Fövqəladə hallar naziri Badamdar şosesində baş verən sürüşmə zonasında olub





Oktyabrın 13-də fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Badamdar şosesində baş verən sürüşmə zonasında olub.

Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, nazir sürüşmə zonasındakı vəziyyətlə yaxından tanış olub, lazımi işlərin görülməsi ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

**AZƏRTAC**

# Badamdar şosesində baş verən sürüşmə ilə bağlı brifinq keçirilib

Hazırda sürüşmə baş verən ərazi 20-ci sahə ilə Badamdar istiqamətinə gedən yolun sol hissəsindədir. Ərazidə aktivlik oktyabr ayının birindən başlayıb. Həmin gündən nazirlikdə ekologiya və təbii sərvətlər nazirinin müavini Novruz Quliyevin rəhbərliyi altında xüsusi qərargah yaradılıb. Mütəmadi olaraq hər gün müşahidələr aparılıb. Bu gün səhər saat səkkiz radələrində aktivlik gərgin vəziyyətə gəlib və sürüşmə baş verib. Sürüşmənin eni 300 metrdən artıq ərazidə üstündə istinad divarları ilə birlikdə yamacboyu asfalta doğru irəliləyib və yolda asfaltın bir hissəsi torpaq altında qalıb.

Ərazinin təsir dairəsinə təxminən 11 yaşayış evi və iki iaşə obyekti aiddir. Dünən müvafiq qurumlar tərəfindən sakinlərə xəbərdarlıq edilib. Kanalizasiya sisteminin işi tamamilə dayandırılıb, su, qaz, işığın verilməsinin yarada biləcəyi zərər barəsində müvafiq orqanlara bildirilib.

Hazırda aktivlik davam etməkdədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Badamdar şosesində baş verən sürüşmə zonası ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən keçirilən brifinqdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov deyib.

Onun sözlərinə görə sürüşmə ilə bağlı xəritə hazırlanıb: "Sürüşmənin təsir dairəsi nə qədər evə zərər gəlməsi barədə məlumat hazırlayıb, Nazirlər Kabinetinə təqdim etmişik. Aidiyyəti qurumlar hadisə ilə bağlı tam məlumatlandırılıb. Hazırda ərazidə gərginlik var. Bu ərazidə 2012-ci ildə sürüşmə müşahidə olunurdu. 2013-cü ildə istinad divarları tikilib. Amma o vaxtdan sürüşmə hadisəsi qeydə alınmayıb. Bu ayın əvvəlindən ərazidə gərginlik yenidən başladı və bu gün də proses davam edir.

Mütəmadi olaraq hər gün müşahidələr aparılır".

Əziz Qaralovun sözlərinə görə, hazırkı sürüşmə bu gün baş verən proses deyil: "Bu ərazinin konturları bizim tərəfimizdən tərtib olunub. Abşeron yarımadasında sürüşməyə meyilli ərazilərin atlası var ki, orada bu konturlar qeyd edilib. Bu gün baş verən proses adıgedən konturların daxilindədir".

# İsmayıllıda məcburi köçkünlərin elektron qeydiyyatı hazırlanacaq

## Məqsəd mənzilə daha çox ehtiyacı olan ailələrin yaşayış səviyyəsini yaxşılaşdırmaqdır

Keçən əsrin 90-cı illərindən başlayaraq erməni təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşən soydaşlarımızın pənah gətirdikləri məkanlardan biri də İsmayıllı rayonudur. Burada 764 məcburi köçkün ailəsi məskunlaşıb. Köçkünlərdən 150-si yerli insanlarla ailə qurub. Gəlin gətirəni də olub, qız köçürəni də.

Oktyabrın 12-də İsmayıllı Rayon İcra Hakimiyyətinin akt zalına toplaşanlar da köçkün soydaşlarımız idi. Tədbiri açan rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov əvvəlcə İsmayıllıda məskunlaşan qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində görülən işlərdən ətraflı danışdı. Qeyd etdi ki, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, məşğulluğunun təmin edilməsini və maddi rifahının yüksəldilməsini qarşıya mühüm məsələ kimi qoyub. Dövlət başçısı bildirib ki, məcburi köçkünlərin problemləri daim dövlətin diqqət mərkəzindədir. Məcburi köçkünlərin müvəqqəti yaşayış yerlərindən müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqət və qayğının təzahürüdür. Sözügedən iclasda məcburi köçkünlərlə iş sahəsində vəziyyətlə bağlı ciddi iradlar da bildirilib.

M.Sadıqov daha sonra dedi ki, hazırda İsmayıllıda çətin vəziyyətdə yaşayan 45 məcburi köçkün ailəsi var. Onların bir qismi müəyyən idarə binalarında, uşaq bağçalarında yaşayırlar. Bu ailələr üçün məhəllə salınır. Həmin insanların vəziyyəti də nəzərə alınaraq yaxın bir ay ərzində rayondakı məcburi köçkünlərin elektron uçotu aparılacaq. Sənəd hazır olduqdan sonra aidiyyəti qurumlara təqdim olunacaq. Siyahı ilə yanaşı, rayon ərazisindəki daha çox ehtiyacı olan insanlar üçün bina və ya fərdi yaşayış evlərinin tikintisi ilə əlaqədar təkliflər təqdim ediləcək, işlə bağlı müraciət edənlərə kömək göstəriləcək.

Rayon Sosial Müdafiə Mərkəzində məcburi köçkünlərin gənc övladları üçün peşə təhsili kurslarının açılması təklifi də verildi. Bildirildi ki, müraciətlər olarsa, köçkünlərin kompakt yaşadıqları kəndlərdə rayon mərkəzindəki tikiş və xalça fabriklərinin filiallarını da açmaq olar.

Rayonun ayrı-ayrı kəndlərində məskunlaşan məcburi köçkünlər onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, qarşılaşdıqları çətinliklərdən söz açdılar. Tədbirdə səslənən problemləri aradan qaldırmaq üçün aidiyyəti qurumlara müvafiq tapşırıqlar verildi.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Azərbaycanın ilk orqanik şərabı - "Meysəri"nin təqdimatı olub





Dənizkənarı Milli Parkda yeni istifadəyə verilən "Milan Ekspo 2015" Azərbaycan pavilyonunda "Meysəri" şərablarının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, Milanda beynəlxalq sərgidə Azərbaycanın təbiəti və mədəniyyətinin müxtəlifliyini tanıdan pavilyon Bakıda qurulduqdan sonra burada ilk dəfə olaraq ölkəmizin yeni milli məhsulunun təqdimatının keçirilməsində də bir rəmzilik var idi.

Üzümçülük və şərabçılıq sahəsində vaxtilə qazandığı şöhrəti yenidən özünə qaytarmaq yolunda olan Azərbaycanda həm də bu sahədə yeni texnologiyalar tətbiq edilir. Belə ki, "Meysəri" Azərbaycanın ilk orqanik bioşərabı kimi yerli və dünya bazarına daxil olur.

"Meysəri" şərablarının istehsal olunduğu "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksi avqustun 25-də açılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə açılışı olan "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksi bu sahənin keçmiş şöhrətini özünə qaytarmaq, şərabçılıq turizminin inkişafına töhfəsini verməklə yanaşı, xarici bazarlarda layiqli yer tutmağı qarşıya məqsəd qoyub.

Kompleks ərazisində müxtəlif üzüm sortlarından ibarət üzüm bağı salınıb. 2019-cu ildə ümumi sahəsi 200 hektar olacaq üzüm bağının 40 faiz hissəsini ağ, 60 faiz hissəsini isə qırmızı üzüm sortları təşkil edəcək. "Şirvan şərabları" MMC "Meysəri" markası ilə - "Sədəf", "Mərcan" və "Məxməri" şərabları istehsal edir.

Şamaxının Meysəri kəndinin təbii iqlim şəraiti, illik yağıntıların miqdarı, temperatur göstəriciləri, ərazinin müxtəlif yerlərindən götürülən torpaq nümunələrinin Fransanın müvafiq laboratoriyalarında aparılan analizlərinin nəticələri burada yüksək keyfiyyətli və məhsuldar üzüm sortlarının yetişdirilməsi üçün imkanların olduğunu göstərir. Yerli şəraitə uyğun tinglərin seçilməsi, əkilməsi, aqrotexniki qulluğun göstərilməsi, üzümün toplanması və emalı mərhələlərində Fransanın üzümçülük sahəsində ixtisaslaşmış şirkətlərinin mütəxəssisləri ilə daim məsləhətləşmələr aparılır. Bütün bunlar bazarda asanlıqla rəqabət apara biləcək yüksək keyfiyyətli şərab məhsullarının istehsalını şərtləndirən amillərdəndir.

Qeyd edək ki, Şamaxıda vaxtilə üzümçülük böyük şöhrət qazanmışdı. Ötən əsrin 70-80-ci illərində Şamaxı Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrilmişdi. Hazırda bu gəlirli sahənin bərpası və yenidən inkişaf etdirilməsi diqqət mərkəzindədir.

# Azərbaycan Rusiya bazarlarında mövqeyini möhkəmləndirir

Atalar sözüdür: "Malın mal olunca, bazarın bazar olsun". Amma məsələ ondadır ki, Azərbaycanın istehsal etdiyi kənd təsərrüfatı məhsulları istənilən bazarda böyük üstünlüklərə malikdir. Dağ və dağətəyi rayonlarda yetişən meyvə-tərəvəz tərkibindəki faydalı mikroelementlərin sayına və miqdarına görə dünyanın bir çox ölkələrində - Çində, Belarusda, Moldovada, Ukraynada, əksər Avropa dövlətlərində istehsal olunan meyvə-tərəvəzi kölgədə qoyur. Bu baxımdan Azərbaycan ənənəvi Rusiya bazarında da üstünlüklərə və perspektivlərə malikdir. Əvvəlcə qısa da olsa qeyd edək ki, dünyanın aqrar bazarı 8 min ilə yaxın inkişaf tarixinə malikdir. İlk dəfə torpağı istehsal məqsədi ilə bazar üçün əkib-becərən, təkəri kəşf edən, yəni, məhsuldarlığı artırmaq məqsədi ilə kənd təsərrüfatını mexanikləşdirən qədim şumer tayfaları olub.



Onların ardınca qədim misirlilər eyni minvalla məhsul istehsalını davam ediblər. Beləliklə, ilk ordular və nəhəng imperiyalar yaranıb. VII-VIII əsrlərdə baş verən aqrar inqilab isə müsəlmanların adı ilə bağlıdır. İspaniyadan Hindistana qədər ərazini əhatə edən ərəb xilafətlərində kənd təsərrüfatı məhsullarının öz ölkələrində və xaricdə satışını təşkil edən tacirlər olub. İnsanlar öz regionları üçün xarakterik olmayan kənd təsərrüfatı bitkilərini yetişdirməyə başlayıblar. Məhz bu dövr qlobal dünya iqtisadiyyatının inkişafının əvvəli sayılır. Amerika kəşf ediləndən sonra isə kənd təsərrüfatı məhsullarının ikinci miqrasiyası başlanıb. Sonra dəmir yolları salınıb, ilk soyuducular kəşf edilib. Yalnız XIX əsrin sonunda və XX əsrin əvvəllərində daha faydalı və məhsuldar işləyən kənd təsərrüfatı texnikası - traktorlar və kombaynlar yaranıb, geni dəyişdirilmiş məhsullar yetişdirilib.

Belə uzun inkişaf yolu keçən müasir dünyanın aqrar bazarının əsas vəzifəsi mal mübadiləsini təmin etmək, ərzaq məhsullarına olan ehtiyacı ödəmək və satışdan qazanmaqdır. Qlobal aqrar bazar mürəkkəb strukturdan ibarətdir, əhalinin artmasından və yoxsulluqdan əziyyət çəkən ölkələrin natamam, formalaşmamış aqrar bazarlarının problemləri ilə üzbəüzdür.

Azərbaycan da İpək yolunun üstündə yerləşən, qlobal aqrar bazara ilk ayaq açan bölgələrdən biri kimi qədim təcrübəyə, zəngin ənənələrə malikdir. Məhsullarımız Şərqə və Cənuba daşınsa da, Şimal bazarı bizim üçün həmişə daha sərfəli olub.

Bu gün isə Qafqazın ən güclü ölkəsinə çevrilən, iqtisadiyyatını uğurla şaxələndirən Azərbaycan üçün Rusiyanın aqrar bazarında yerini möhkəmləndirmək, daha güclü mövqelərə sahib olmaq üçün ötən illərin təcrübəsindən yararlanmaq faydalıdır. Azərbaycan-Rusiya münasibətlərini nəzərdən keçirəndə görünən odur ki, hər iki tərəf üçün daimi əlaqələrin inkişaf etdirilməsi yeni tərəfdaşlar axtarmaqdan əlverişlidir. İki ölkə arasında əlaqələr dinamik inkişaf edir, demək olar ki, hər il geniş formatda görüşlər keçirilir və aqrar sektorun inkişafına təkan verən müqavilələr imzalanır. İki ölkə arasında ticarət dövriyyəsi mütəmadi olaraq artır. Bu artımda kənd təsərrüfatı məhsullarının payı çox böyükdür. Eyni zamanda, nəzərə almaq lazımdır ki, Rusiyaya qarşı Qərbin sanksiyaları artdıqca, Azərbaycandan bu ölkəyə ixrac olunan kənd təsərrüfatı məhsullarının həcmi də artır. Artıq neçə ildir ki, hər iki ölkə bunda maraqlıdır. Təsadüfi deyil ki, keçən il Rusiya Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsal edən daha 14 müəssisəsinin Rusiya bazarlarına çıxması barədə qərar qəbul edib.

Bu əlaqələr 2018-ci ildə daha intensiv inkişaf edir. Sentyabrın 1-ində iki ölkənin Soçidə geniş tərkibdə keçirdiyi görüşdən sonra iki dövlət başçısının iştirakı ilə gələcək əməkdaşlıqla bağlı çox vacib sənədlər imzalanmışdır. Həmin müqavilə, razılaşma və memorandumların bəziləri bilavasitə və dolayısı ilə logistika sisteminin və aqrar sektorun inkişafı ilə bağlıdır. İmzalanan digər sənədlər - "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi publik hüquqi şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi", "Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında protokol", "Azərbaycan Respublikası hökuməti və Rusiya Federasiyası hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq proqramı" da bu qəbildəndir. Bütün bu sənədlər iki ölkənin aqrar sektorunun və bazarlarının qarşılıqlı inkişafını stimullaşdırmağa xidmət edir.

IX Azərbaycan-Rusiya Regionlararası Forumu da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Hər iki tərəfdən iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 1000-ə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində dəmir yolu xətti ilə yükdaşımaların genişləndirilməsi, o cümlədən dəniz yolu ilə daşınan malların boşaldılmasının artırılması, Azərbaycan və Rusiya limanları arasında birbaşa bərə xəttinin açılması məsələsi müzakirə mövzularından olmuşdur.

IX Azərbaycan-Rusiya Regionlararası Forumunun plenar iclaslarında ikitərəfli iqtisadi əlaqələrin inkişafı ilə bağlı Rusiya Federasiyasının Dağıstan Respublikasının başçısı Vladimir Vasilyev, Stavropol diyarının qubernatoru Vladimir Vladimirov, Novqorod vilayətinin qubernatoru Andrey Nikitin, Arxangelsk vilayətinin qubernatoru İqor Orlov çıxış edərək təmsil etdikləri regionların iqtisadi, turizm imkanları, mədəniyyəti barədə ətraflı məlumat vermiş, regionlar arasında iqtisadi əməkdaşlığın, o cümlədən aqrar əlaqələrin dərinləşdirilməsi üçün geniş imkanların mövcud olduğunu diqqətə çatdırmışlar.

Forumun plenar iclasından sonra iki ölkənin şirkətləri və biznes təşkilatları arasında sənədlər imzalanmışdır. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AzPROMO) və Rusiya-Azərbaycan İşgüzar Şurası arasında əməkdaşlığa, Azərbaycanın "Khan-El" MMC və Rusiyanın "Qud-Fud Postavka" MMC şirkətləri, eləcə də Azərbaycanın "Azhazelnut" MMC və Rusiyanın "Frutimpex" MMC arasında Rusiyaya fındıq ixracına, Azərbaycan Respublikasının "Dövlət Aqrar Ticarət Şirkəti" MMC və Rusiyanın Kənd Təsərrüfatı Nazirliyinin Analitik Mərkəzi Federal Dövlət Büdcə Təşkilatı arasında əməkdaşlığa, "Azər Sharab NM" MMC və "Del Monte" MMC arasında spirtli içkilərin Rusiyaya ixracına, "Grovv Group Azerbaijan" MMC və "Essen Logistic" MMC arasında pomidor satışına, Azərbaycanın "Mətanət-A" MMC və Rusiyanın "Matanat" MMC şirkətləri arasında Rusiyada quru inşaat qarışıqlarının istehsalı zavodunun tikintisinə dair bir sıra ciddi sənədlər imzalanmışdır.

Bütün bunlar o deməkdir ki, hər iki tərəf tarixi əlaqələrə dəyər verir, möhkəm dostluğun əsaslarını gücləndirir. Azərbaycan tarixən çıxışı olan Rusiyanın aqrar bazarında mövqelərini möhkəmləndirir. Necə deyərlər, həm bazarımız bazardır, həm də məhsulumuz məhsul.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan idmançısı ağırlıqqaldırma üzrə Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının gümüş medalını qazanıb

Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının ağırlıqqaldırma yarışında mübarizəyə qoşulan gənc idmançımız Tarmenxan Babayev gümüş medal qazanıb.




AZƏRTAC xəbər verir ki, 85 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxan gənc atlet birdən qaldırma hərəkətində 142 kiloqramı ram edib və bu hərəkətdə ikinci olub. O, təkanla qaldırma hərəkətində də 174 kiloqramın öhdəsindən gələrək ikinci yeri tutub. Yekun nəticədə 316 kiloqram (142 kq+174 kq) nəticə qazanan Tarmenxan Babayev Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının gümüş medalına layiq görülüb.

İdmançımızın çıxışını Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov və ölkəmizin nümayəndə heyətinin digər üzvləri də izləyiblər.

Tarmenxan Babayev "Təhsil" İdman Mərkəzinin nümayəndəsidir. Onun şəxsi məşqçisi Şəfi Hüseynovdur. Yeniyetmələr arasında Avropa birinciliyinin ikiqat qalibi (2017, 2018) olan idmançımız altı dəfə yeni rekord müəyyənləşdirib.

Azərbaycan olimpiadada iki ağır atlet ilə təmsil olunub. Oktyabrın 11-də qızların yarışında 58 kiloqram çəki dərəcəsində çıxış edən Lalə Rzazadə altıncı yeri tutub.

Xatırladaq ki, bu, Azərbaycan milli komandasının Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında dördüncü medalıdır. Bundan əvvəl cüdoçu Vüqar Talıbov və gimnast Yelizaveta Luzan qızıl, taekvondoçu Cavad Ağayev isə bürünc medal qazanıblar.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Lənkəran Dövlət Universiteti
## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1. Avadanlığın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50 nömrəli ünvandan ala bilərlər.

**İştirak haqqı:**
**1-ci LOT üzrə 350 (üç yüz əlli) manat**

**Əlaqələndirici şəxs: Quliyev Vaqif Şahvərən oğlu**
**Telefon: (025) 2550025**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.**

**Lənkəran Dövlət Universiteti**
**Hesab № AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**"KapitalBank" ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**
**Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50. Faks: (025) 255 27 86; www.lsu.edu.az;office@lsu.edu.az**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 noyabr 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 noyabr 2018-ci il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Görmə imkanları məhdud uşaqlar üçün müyəssər formatlı nəşrlərin hazırlanması", "Xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtının təşkili", "Sağlamlıq imkanları məhdud uşaqlarla davranış üzrə valideynlərə dəstək göstərilməsi" və Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi (Goranboy, Göygöl, Hacıqabul, Neftçala, Oğuz, Qusar, Salyan, Şirvan, Tərtər, Ucar, Zərdab, Abşeron, Masallı, Zaqatala, Gəncə şəhər və rayonları üzrə) adlı müsabiqələr və "Sağlamlıq imkanları məhdud uşaqlar üçün (Balakən rayonu üzrə) icma əsaslı sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası" adlı təkrar müsabiqələr keçirir.

**Müsabiqələrdə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.**

**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, H.B.Zərdabi pr., 80 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri H.B.Zərdabi pr., 80 ünvanına 29 oktyabr 2018-ci il saat 17:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 30 oktyabr 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda keçiriləcəkdir.

Əlaqə telefonu: **(012) 434-05-20.**

***Müsabiqə komissiyası***

## "Holcim Azerbaijan" ASC
## təchizatçı şirkətlər bazasını artırmaq niyyəti ilə asağıdakı xidmətlər üzrə Azərbaycan Respublikasında fəaliyyət göstərən təşkilatları əməkdaşlıq etmək üçün dəvət edir

| | |
|---|---|
| **01/18-HA** | **Holcim (Azərbaycan) zavodunda müxtəlif növ işlər üçün insan (işçi) gücü - illik müqavilə.** |
| **02/18-HA** | **Sənaye alpinizm xidməti - Yüksək hündürlükdə görilən işlər: silosun, qızdırıcı sistemin (preheater) təmizlənməsi - illik müqavilə.** |
| **03/18-HA** | **Zavoda məxsus olan mobil avadanlığa xidmət - illik müqavilə.** |
| **04/18-HA** | **İskələ xidməti - illik müqavilə** |

Maraqlı tərəflər yuxarıda göstərilən xidmətin adını qeyd edib, şirkətin profayl məlumatlarını 31.10.2018 tarixinədək offer-aze@lafargeholcim.com elektron ünvanına göndərə bilərlər. Tenderin nömrəsi mütləq qeyd olunmalıdır.

"Holcim Azerbaijan" ASC-nin tələblərinə uyğun olan sirkətlərə əlavə anket göndəriləcək.

***"Holcim Azerbaijan"***
***Satınalma departamenti***

## With the aim to increase the Vendor's data base Holcim Azerbaijan OJSC is inviting to cooperate organizations operating for the following services

| | |
|---|---|
| **01/18-HA** | **Man power for different type of works at Holcim (Azerbaijan) plant - annual contract.** |
| **02/18-HA** | **Industrial alpinism service - High Altitude Works: cleaning of thesilo, of the device for preheating - annual contract** |
| **03/18-HA** | **Service for plant mobile equipment - annual contract** |
| **04/18-HA** | **Scaffolding service - annual contract** |

Interested parties can send their company profile to offer-aze@lafargeholcim.com e-mail address by 31.10.2018 with the subject for the above mentioned services. Tender number has to be indicated.

The companies that meet the requirements of Holcim Azerbaijan OJSC will be requested for additional info.

***"Holcim Azerbaijan"***
***Procurement department***

## Azərbaycan Milli Antidopinq Agentliyi
## *kotirovka sorğusu elan edir*

"Azərbaycan Milli Antidopinq Agentliyi" (AMADA) publik hüquqi şəxsi aşağıdakı işlərin (xidmətlərin) kotirovka sorğusu üsulu ilə satın alınmasını elan edir:

**LOT 1. Dopinq Nəzarəti üçün Nəqliyyat (daşınma) xidmətləri**

Maraqlanan təşkilatlar müvafiq LOT üzrə kotirovka sorğusunun şərtlərinin əldə edilməsi üçün əlaqələndirici şəxs Süleymanzadə Samir Rasim oğlu ilə (012) 599 08 28 telefon nömrəsi vasitəsilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədləri Bakı şəhəri, Mərdanov qardaşları küç., 102, AZ 1022 ünvanında, AMADA-nın inzibati binasından əldə etmək olar. Kotirovka sorğusu təkliflər, 18 oktyabr 2018-ci il saat 18:00-dək həmin ünvanda qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

*Sumqayıt Şəhər İcra Hakimiyyəti*
*Sumqayıt şəhərinin mənzil fonduna daxil olan çoxmənzilli binaların dam örtüklərinin təmiri işlərinin satın alınmasının təkliflər sorğusu üsulu ilə həyata keçirilməsini elan edir*

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 2018-ci il 18 oktyabr tarixdə saat 17:00-a kimi qəbul olunur. Təkliflər sorğusunun açılışı 2018-ci il oktyabr ayının 19-da saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 nömrəli ünvanda Sumqayıt Şəhər İcra Hakimiyyətinin kiçik zalında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Rəhimdil Əhmədov**
**Telefon: (018) 65 51448**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 1 avqust 2018-ci il tarixdə keçirilmiş "Elektrik enerjisinin ümumi generasiya güclərində alternativ və bərpa olunan enerji mənbələrinin xüsusi çəkisinin artırılmasını, habelə alternativ və bərpa olunan enerji sahəsinə özəl investisiyaların cəlb edilməsi məqsədilə bu sahəni tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsini, güzəştli tariflərin və digər təşviqedici tədbirlərin tətbiqini əhatə edən sənədlərin hazırlanması" işlərinin satın alınmasına dair açıq tenderdə Almaniyanın DNV GL Energy Advisory GmbH şirkəti qalib elan edilmiş və qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Tramp BMT-də daimi nümayəndə vəzifəsinə qadın təyin etmək istəyir



ABŞ Prezidenti Donald Tramp ölkənin BMT-də daimi nümayəndəsi vəzifəsinə Kanadadakı səfir Kelli Kraftın namizədliyini nəzərdən keçirir. "The Wall Street Journal" qəzeti xəbər verir ki, dövlət başçısı bir neçə dəfə diplomatla danışmış və ondan razı qalmışdır.

Qəzet xatırladır ki, Kraft Şimali Amerikada azad ticarət haqqında yeni müqavilənin tərtib olunmasında iştirak etmişdir. Əvvəllər BMT-də daimi nümayəndə vəzifəsindən istefa vermiş Nikki Heylinin yerinə əsas namizəd kimi Trampın milli təhlükəsizlik üzrə müşavirinin sabiq müavini Dina Pauellin adı çəkilirdi.

Prezident həmçinin bu rola Vaşinqtonun NATO-dakı səfiri Key Beyli Hatçinsonu və döş xərçənginə tutulmuş qadınlara yardım fondunun başçısı Nensi Brinkeri nəzərdən keçirir.

"Politico" qəzetinin xəbərinə görə, Trampın ətrafı dövlət başçısına gələn ay Konqresə keçiriləcək aralıq seçkilər ərəfəsində respublikaçıların tərəfdarlarının sayını artırmaq üçün daimi nümayəndəni qadın seçməyi məsləhət görür.

## Avstriyada ilk eynicinsli nikah bağlandı

Avstriyada ilk eynicinsli nikah ölkənin paytaxtı Vyanada qeydə alınmışdır. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Nikaha iki qadın girmişdir. Onlar bu məsələ ilə əlaqədar məhkəmə prosesində iştirak etmiş və nəticədə eynicinsli nikah bağlamaq hüququ əldə etmişlər.



Qeyd edək ki, ötən ilin dekabrında Avstriya Konstitusiya Məhkəməsi 1 yanvar 2019-cu ildən etibarən homoseksual cütlərin nikah bağlamasına icazə vermişdir. Amma bir cüt qadın buna tez nail olmuşdur, çünki məhkəmə onların şikayətinə baxaraq qadağanı ləğv etmişdir.

## Türkiyə püstə istehsalında dünya lideri olmaq niyyətindədir

Dünyada püstə istehsalının 85 faizi ABŞ, İran və Türkiyənin payına düşür. TRT telekanalının xəbərinə görə, ABŞ və İrandan sonra üçüncü yeri tutan Türkiyədə bu il Cənub-Şərqi Anadolu bölgəsində, xüsusilə Şanlıurfa, Qaziantep və Siitdə püstə istehsalı ötən illə müqayisədə 208 faiz artıb



240 min tona çatmışdır. 2000-ci illərdə ölkədə 2 milyon hektar sahədə püstə yetişdirilirdi. Son 18 il ərzində bu sahə 50 faizdən çox artaraq 3,2 milyon hektara çatmışdır.

Türkiyədə püstə istehsalının təxminən 50 faizi Şanlıurfa vilayətinin payına düşür.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı, Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.



Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Azərbaycana həsr edilən ömrün səmimi anları




BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri,*
*Mətbuat prospekti,*
*529-cu məhəllə, IV mərtəbə*

***e-mail:***
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 8407**
**Sifariş 2977**